AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

KƏMALƏ ATAKİŞİYEVA

# ŞİFAHİ ƏNƏNƏLİ AZƏRBAYCAN PROFESSİONAL MUSİQİSİ: AŞIQ VƏ XANƏNDƏ YARADICILIĞI

BAKI – 2020

**Elmi redaktor:** **N.RƏHİMBƏYLİ**
Sənətşünaslıq üzrə elmlər doktoru,
professor

**Rəyçilər:** **F.XALIQZADƏ**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Əməkdar incəsənət xadimi, professor

**E.MƏMMƏDLİ**
Filologiya üzrə fəlsəfə doktoru,
Əməkdar mədəniyyət işçisi

**Kəmalə Ələşrəf qızı Atakişiyeva. Şifahi ənənəli Azərbaycan professional musiqisi: aşıq və xanəndə yaradıcılığı.** Bakı, Elm və təhsil, 2020, -136 səh.

www.folklor.az

A 4603000000 / N-098-2020 Qrifli nəşr

© Folklor İnstitutu, 2020

# ÖN SÖZ

Şifahi ənənəli Azərbaycan professional musiqisini təmsil edən aşıq və muğam sənətinin öyrənilməsi orta əsrlərdən başlayaraq müasir günümüzə qədər davam edir. Hər biri zəngin yaradıcılıq irsini, tarixin dərin qatlarına dayanan ifaçılıq ənənələrini özündə ehtiva edən aşıq və muğam sənəti çoxsaylı tədqiqat işlərinin obyekti kimi müxtəlif rakurslardan öyrənilmişdir. Bu prosesin davam etməsi isə hər iki sənət sahəsinin elmi araşdırılması zamanı geniş perspektivlərin açılması ilə səciyyəvidir. Təqdim edilən monoqrafiyada bu iki sənətin müqayisəli şəkildə araşdırılması aşıq və xanəndə yaradıcılığının qarşılıqlı əlaqələri və təsir xüsusiyyətləri kontekstində aparılmışdır.

Monoqrafiyada aşıq və muğam sənətinin tarixi inkişaf mərhələlərinə nəzər salınaraq iki sənət arasında mövcud əlaqələrin aşkara çıxarılması, eləcə də musiqi repertuarında, ifaçılıq üslubunda baş verən qarşılıqlı təsir və janr transformasiyası kimi məsələlər işıqlandırılmışdır. Müəllif K.Atakişiyeva problemin həllində tarixi, nəzəri və müqayisəli metodlardan bəhrələnərək maraqlı yanaşma nümayiş etdirmişdir. Əldə edilən nəticələr isə hər iki sənətin tədqiqində yeni perspektivlərin açılmasına zəmin yaratmış olur. Qeyd etmək istərdim ki, monoqrafiyada müəllif tərəfindən toplanmış və nota köçürülmüş qiymətli musiqi nümunələri yer almışdır ki, onların sırasında həm aşıq, həm də xanəndə repertuarında yer alan müxtəlif janrlar vardır. Bu nümunələrin müxtəlif ifa variantları üzərində aparılan təhlillər isə xalq musiqisinin professional ifaçılıq məziyyətlərinin zənginliyindən, inkişaf dinamikasından, variantlılıq cəhətinin qabarıq təzahüründən xəbər vermiş olur. Monoqrafiyada təqdim edilən tarixi məlumat, elmi mülahizə və müddəalar aşıqşünaslıq, muğamşünaslıq, xalq musiqisinin öyrənilməsi, tədqiqi və tədrisində tətbiq edilməklə yanaşı, aşıq və muğam sənəti haqqında informasiya əldə etmək istəyən geniş oxucu kütləsi üçün də maraqlı mənbə ola bilər.

**Sənətşünaslıq üzrə elmlər doktoru,**
**professor N.Rəhimbəyli**

# GİRİŞ

Şifahi ənənəli Azərbaycan professional musiqisinin iki möhtəşəm qolunu təşkil edən aşıq və muğam sənəti əsrlər boyu bir-birilə qarşılıqlı əlaqə və təsir şəraitində inkişaf etmişdir. Həm aşıq, həm də muğam sənəti türk dilli xalqların mədəni həyatında xüsusi yer tutur. Böyük musiqi sərvətini özündə ehtiva edən hər iki sənət elmi tədqiqatlar üçün geniş mövzudur və Orta əsr Şərq alimlərinin yaradıcılığından başlayaraq bu günümüzə qədər öyrənilir, tədqiq olunur.

Aşıq və muğam sənətinin tədqiq olunması müxtəlif inkişaf mərhələləri keçmişdir. Müasir dövrümüzdə müstəqil Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin bir hissəsini təşkil edən mədəni proseslər bu sənətlərin inkişafında, təbliğində və öyrənilməsində yeni mərhələni təşkil edir. Xüsusilə bu işə təkan verən əsas faktor – aşıq (2009) və muğam sənətinin (2008) YUNESKO tərəfindən dünyanın qeyri-maddi mədəni irsinə daxil edilməsi musiqişünaslıq elmi qarşısında hər iki sənətin tədqiqi məsələlərini bir daha ön plana çəkmişdir.

Müasir dövrümüzdə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən möhtəşəm layihələr xalqımızın qədim tarixə malik mədəni abidələrinin dünya arenasına çıxarılmasına, qorunaraq olduğu kimi gələcək nəsillərə çatdırılmasına yönəlmişdir. Muğam və aşıq sənətinin qorunması, inkişafı, dünyada təbliği, böyük şöhrət qazanması, istedadlı ifaçıların yetişməsi, ustadların sənətinə yüksək qiymət verilməsi, muğamların gənc nəslə öyrədilməsi, xalq musiqisinin elmi araşdırılması, notlaşdırılması və nəşri, kitabların çap olunması istiqamətində çox böyük nailiyyətlər qazanılmışdır. Böyük layihələr, o cümlədən Muğam-2005, muğam və aşıq müsabiqələri, beynəlxalq «Muğam» jurnalının nəşri, «Muğam ensiklopediyası», «Muğam antologiyası»nın tərtib olunması, Beynəlxalq Mu-

ğam Mərkəzinin tikilməsi və s. bu sənətlərin nəzəri cəhətdən araşdırılmasını aktual və vacib məsələlərdən biri olaraq ön plana çıxarır. Aşıq və muğam sənəti arasında yaxın əlaqələrin və qarşılıqlı təsirin olması müxtəlif elmi mənbələrdə dəfələrlə qeyd olunmuş, lakin həmin əlaqələri yaradan səbəblər, ictimai-tarixi mühit lazımınca öyrənilməmişdir. Buna görə aşıq və xanəndə yaradıcılığının qarşılıqlı təsir xüsusiyyətləri xalq musiqisinin tədqiqi baxımından aktuallıq kəsb edir.

Əlbəttə ki, musiqişünaslarımızın da qarşısında xalq musiqimizi nəzəri cəhətdən təhlil edərək, qanunauyğunluqlarını müəyyənləşdirmək, ortaya xalq musiqisinə həsr olunmuş fundamental əsərlər çıxarmaq kimi vəzifələr durur. Bu vəzifələr XX əsrin əvvəllərindən xalq musiqisinin ilk və böyük tədqiqatçısı, dahi bəstəkar və musiqişünas alim Üzeyir Hacıbəyli tərəfindən irəli sürülmüşdür. Artıq uzun illərdir ki, Azərbaycan musiqişünaslığında həm aşıq, həm də muğam sənəti ilə bağlı mövzular öz aktuallığını qoruyub saxlayır və yeni tədqiqatlar üçün geniş imkanlar açır.

Aşıq və muğam sənəti özündə xalqın tarixini, mədəniyyətini, adət-ənənələrini, fəlsəfi-psixoloji dünyagörüşünü əks etdirmiş, musiqi və poetik janrlarda insan həyatının müxtəlif tərəfləri, mənəvi dünyası öz əksini tapmışdır. Aşıq xalq tərəfindən sevilən, seçilən, sözü keçən müdrik, ağsaqqal kimi qəbul olunmuşdur. Onun sənəti sadəcə əyləncə mahiyyəti daşımamış, insanın mənəvi dünyasını zənginləşdirən, həyatın vacib məsələlərini özündə əks etdirən əsl tərbiyəvi, fəlsəfi təsir qüvvəsinə malikdir. Muğam sənəti xalq musiqisinin ən kamil nümunəsini yaradaraq yüksək bədii zövqə və dərin mənaya malik musiqi əsərlərinin zəngin xəzinəsinə çevrilmişdir.

Həm aşıq, həm muğam sənəti XX əsr Azərbaycan bəstəkarlıq məktəbinin milli köklər üzərində formalaşmasında əsas rol oynamış, bəstəkarların daim bəhrələndiyi zəngin mənbə

olmuşdur. Müxtəlif tarixi dövrlərdə, fərqli ictimai-siyasi şəraitdə formalaşan və inkişaf edən bu sənətlər XIX əsrin ortalarından etibarən xalq şənliklərində, mərasim və bayramlarda birgə nümayiş etdirilməyə başlamışdır. Bu şəraitdə aşıqlar, xanəndələr, sazəndələr, zurnaçılar, bir sözlə xalq musiqiçiləri bir araya gələrək qarşılıqlı sənət mübadiləsi etmişlər. Nəticədə bir sənət sahəsində mövcud olan müəyyən musiqi nümunələri digərinin repertuarına keçmiş, aşıq poeziyasından muğam ifaçılığında, aşıq havalarından xanəndə repertuarında istifadə edilmiş, ifaçılıq üslublarının bir-birinə təsir etməsi hər iki sənətin daha da zənginləşməsinə və inkişaf etməsinə gətirib çıxarmışdır.

Digər tərəfdən aşıq və muğam sənəti arasında tarix boyunca məntiqi, fəlsəfi-psixoloji, milli təfəkkürə əsaslanan ümumi cəhətlər də mövcud olmuşdur. Bu baxımdan hər iki sənətin tarixini araşdıran elmi tədqiqatlarda aşıq və muğam sənətinin öz kökünü qam-şaman mədəniyyətindən götürməsi, hər iki sənətin daşıyıcılarının xalq tərəfindən sayılıb-seçilən şəxsiyyətlər olması kimi tarixi-ictimai cəhətlər, digər tərəfdən aşıq və muğam musiqisinin milli ladlara əsaslanması, milli musiqi alətlərinin müşayiəti, janr, ritm, musiqi dilinin xüsusiyyətləri, ifaçılıq ənənələri arasında olan yaxınlıq və s. kimi ümumi cəhətlər mövcuddur. Həmin xüsusiyyətlər aşıq və muğam sənətinin müxtəlif ictimai-siyasi şəraitdə formalaşıb inkişaf etməsindən asılı olmayaraq, eyni mədəni təfəkkürdən qaynaqlanmasından irəli gəlir. Bu məsələlərin araşdırılması və iki sənətin müqayisəli şəkildə təhlil olunaraq öyrənilməsi aşıq və muğam sənətinin tarix boyu və müasir dövrdə hansı qanunlar çərçivəsində, ictimai-sosial, bədii, mənəvi, fəlsəfi-psixoloji şəraitdə formalaşmasını izləməyə imkan verir. Bu baxımdan, aşıq və muğam sənətinin müqayisəli şəkildə tədqiq olunması müasir musiqişünaslıq üçün zəruridir.

Tədqiqatın əsas məqsədi aşıq və muğam sənəti arasında əlaqə və qarşılıqlı münasibətləri üzə çıxarmaq, bu münasibətlərin müəyyən tarixi dövrlərdə hansı formada özünü büruzə verməsini müəyyənləşdirməkdən, o cümlədən aşıq və muğam sənəti arasında oxşar və fərqli məqamların xarakterini, mahiyyətini aydınlaşdırmaqdan ibarətdir. Aşıq və muğam sənəti bir sıra cəhətlərdən, o cümlədən tarixi, ictimai-siyasi münasibətlər zəminində, tədqiqat problemləri, janr, musiqi və mətnin qarşılıqlı əlaqəsi, musiqi dilinin problemləri və s. baxımından müqayisə olunur.

Kitabda aşıq və muğam sənətinin tarixi, ictimai-siyasi şəraitdə formalaşması və inkişafı proseslərini izləyərək əlaqə və təsirləri müəyyənləşdirmək; aşıq və xanəndənin yerinə yetirdiyi tarixi və mədəni funksiyaları müqayisəli şəkildə araşdırmaq; aşıq və muğam sənətində poetik və musiqi janrlarının rolunu, əhəmiyyətini müəyyənləşdirmək və müqayisəli şəkildə təhlil edərək iki sənət arasında olan təcrübi və nəzəri əlaqələri aşkara çıxarmaq; aşıq və muğam sənətində rast gəlinən müştərək musiqi nümunələrini təhlil etməklə, onların arasında oxşar və fərqli cəhətləri musiqi dilinin ifadə vasitələri baxımından təhlil etmək və müəyyənləşdirmək; aşıq və xanəndənin özünəməxsus ifaçılıq üslublarının hər iki sənətdə mövcud olan musiqi nümunələrində təzahür formalarını araşdırmaq; aşıq və xanəndə sənətinin müqayisəsi zamanı Qərb və Şirvan zonasının havalarını ayrıca nəzərdən keçirmək və bölgə xüsusiyyətərinin təsirini izləmək kimi məqsədlər qarşıya qoyulmuşdur.

Xalq musiqisinin toplanması və nota salınaraq çap olunması sahəsində mövcud tədqiqat işlərinin çox böyük əhəmiyyəti vardır. Burada ilk dəfə onların bir-birinə qarşılıqlı təsiri, iki sənət arasında mövcud olan oxşar və fərqli xüsusiyyətlər, müştərək musiqi nümunələri müqayisəli şəkildə araşdırılır. Müqayisə məqsədilə indiyədək toplanmış və öyrənilmiş aşıq və muğam sə-

nətinə məxsus musiqi nümunələri yeni rakursdan öyrənilir və bu nümunələrin müqayisəli şəkildə təhlili ilk dəfə aparıldığı üçün əldə olunan nəticələr tədqiqatın elmi yeniliyi hesab olunur. Təhlil olunan nümunələrin janr və üslub xüsusiyyətlərinə diqqət yetirilmiş, janr transformasiyası məsələsinə toxunulmuşdur. Burada aşıq havalarının xanəndə repertuarına keçidi zamanı baş vermiş janr transformasiyası təhlil edilmiş və ənənəvi aşıq havalarının yeni məna və əhəmiyyət kəsb etməsi üzə çıxarılmışdır. Müqayisə zamanı müraciət edilən ifa formalarının fərqli cəhətləri müxtəlif səviyyələrdə (oxuma, calğı, instrumental müşayiət, vokal və instrumental parçalar və s.) aşkar edilmişdir. Nümunələrin müqayisəsi zamanı forma, lad, ritm, melodiya, ahəng və s. kimi üslub dəyişiklikləri zona xüsusiyyətləri nəzərə alınmaqla təhlil edilmişdir. Bundan başqa təhlil prosesinə ilk dəfə müəllif tərəfindən nota salınmış musiqi nümunələri də cəlb edilmişdir.

Kitabda «Arazbarı», «Ovşarı», «Heydəri», «Mani», «Qarabağ şikəstəsi», «Şirvan şikəstəsi», «Döymə Kərəmi», «Güllü qafiyə», «Çoban bayatı» kimi musiqi nümunələri təhlil olunmuşdur. Digər tərəfdən kitabda ilk dəfə tərəfimizdən nota salınmış musiqi nümunələri (Zabit Nəbizadənin ifasında «Güllü qafiyə», Aşıq Əhlimanın və Zabit Nəbizadənin ifasında «Döymə Kərəmi», Aşıq Altayın ifasında «Qarabağ şikəstəsi», Sevinc Sarıyevanın ifasında «Çoban bayatı» təsnifi, Alim Qasımovun ifasında «Şirvan şikəstəsi») də yer almışdır.

Aparılan tədqiqatlar zamanı hər iki sənətin tarixi inkişaf mərhələləri, bədii, fəlsəfi-psixoloji məzmunu, musiqi ifadə vasitələrinin təhlili və müqayisəsi kimi problemlər öyrənilərək təhlil olunur.

# I FƏSİL
# AŞIQ VƏ MUĞAM SƏNƏTİNİN TƏDQİQİ PROBLEMLƏRİ

## 1. Aşıq və muğam sənətinin tarixi əlaqələri

Şifahi ənənəli Azərbaycan professional musiqisinin iki möhtəşəm qolunu təşkil edən aşıq və muğam sənəti yarandığı gündən bir-birilə təmas etmiş, bu və ya başqa formada təsirlər zəminində mövcud olmuşlar. Əsrlər boyu həm aşıq, həm də muğam sənəti Azərbaycan xalqının həyatında önəmli yer tutmuş, xüsusi məclislərdə, mərasim və el şənliklərində eyni dərəcədə iştirak etmiş və sevilərək qəbul olunmuşdur.

Xalqın sevdiyi bu sənət sahələri eyni dərəcədə alimlərin də maraq və diqqətini cəlb etmiş və tədqiqat obyektinə çevrilmişdir. Hər iki sənət haqqında müxtəlif sahələrdə çox sayda fundamental əsərlər ortaya çıxarılmış, qiymətli fikirlər söylənilmişdir. Aşıq sənəti öz xarakterinə görə sinkretik sənətdir. Burada müxtəlif yaradıcılıq sahələri (musiqi, poeziya, teatr, rəqs, ifaçılıq və s.) vəhdət halında birləşərək mükəmməl mədəniyyət sistemi yaradır. Bu baxımdan aşıq sənətinin tədqiqi musiqişünas, ədəbiyyatşünas, teatrşünas alimlərin də daim diqqət mərkəzindədir.

Muğam sənəti isə musiqişünaslarla yanaşı, əruzla məşğul olan ədəbiyyatşünas alimlər tərəfindən tədqiq olunmuşdur. Hər iki sənətin yaranma tarixi haqqında tarixçi alimlərin araşdırmaları xüsusi əhəmiyyət daşıyır.

Aşıq və muğam sənətinin tədqiqi öz başlanğıcını Orta əsrlərin böyük Şərq alimlərinin yaradıcılığından götürür. Nəsirəddin Tusi, Əl-Kindi, Əbunəsr Fərabi, Səfiyyəddin Urməvi, Əbdülqadir Marağayi muğam sənətinin öyrənilməsində xüsusi rol oynamış və musiqi elminə qiymətli əsərlər bəxş etmişlər. Bu ənənəni XIX əsrin musiqişünas alimi Mir Möhsün

Nəvvab öz yaradıcılığında davam etdirmişdir. Muğam və aşıq sənətinin tədqiqində yeni mərhələ Üzeyir Hacıbəylinin yaradıcılığı ilə başlayır. Alimin xalq musiqisi ilə bağlı elmi araşdırmaları məqalələrində, eləcə də «Azərbaycan xalq musiqisinin əsasları» adlı (81) elmi-tədqiqat əsərində öz əksini tapmışdır. Aşıq və muğam sənəti ilə bağlı müqayisəli təhlillərə «Azərbaycan musiqi həyatına bir nəzər» (80) məqaləsində geniş yer verilmişdir. Məqalədə alim muğam və aşıq sənəti haqqında danışaraq bu sənətlərin əhatə etdiyi janrlar, ifaçılar, instrumental müşayiət barədə geniş məlumat verir və iki sənəti müqayisəli şəkildə araşdırır. Alim aşıq sənətinə yüksək qiymət vermiş, dəyərli fikirlər söyləmişdir: "Aşıq sənəti ölməməlidir, bu sənət xalqa, kütlələrə daha yaxındır, xalqın həyəcan və arzularını xalq musiqisinin başqa növlərinə nisbətən daha parlaq əks etdirir. Sazəndədən fərqli olaraq, aşıq ictimai mövqeyinə görə kəndliyə, zəhmətkeş xalqa yaxındır." (80, s. 192)

Aşıq sənətinə dərindən bələd olan istedadlı sənətkar və mədəniyyət xadimi Bülbül Məmmədov bu sənətinin potensial imkanlarını yüksək qiymətləndirərək ifaçılıq üslubunun milli vokal məktəbinin formalaşmasında xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayırdı. Belə fikirlər onun bir sıra məqalələrində, o cümlədən «Azərbaycan oxuma məktəbi», «Azərbaycan vokal məktəbinin xüsusiyyətləri və ifaçılıq mədəniyyəti» (14) məruzələrində öz əksini tapmışdır. «Əsil Azərbaycan xalq vokal sənəti aşıq ifaçılığından başlanır. Aşıqlar xalq mahnısının yaradıcıları və improvizatorlarıdır». (14, s.138)

Aşıq sənəti haqqında geniş məlumat, janrlar, saz aləti haqqında informasiyalar Ə.Bədəlbəylinin «İzahlı monoqrafik musiqi lüğəti» (13) əsərində öz əksini tapmış, bu sənətlərin bir-birilə əlaqəli şəkildə tədqiq olunması məsələsini ön plana çəkmişdir.

Aşıq sənətinin tarixi ilə bağlı fikirlər bu sənətə dair ilk musiqişünaslıq tədqiqat əsərinin müəllifi Əminə Eldarovaya

məxsusdur. «Azərbaycan aşıq sənəti» əsərində alim aşıq sənətinin tarixi ilə bağlı maraqlı fikirlər söyləmiş, bu sənətin köklərini oğuz elinin möhtəşəm dastanı «Kitabi Dədə Qorqud»la bağlamışdır. Öz mülahizələrində isə o, əsas etibarilə Üzeyir Hacıbəylinin, Əfrasiyab Bədəlbəylinin aşıq qurultaylarındakı çıxışlarına, eləcə də tarixçi və ədəbiyyatşünas alimlərin fikirlərinə istinad etmişdir: «Aşıq sənəti öz kökləri ilə hələ ozanların meydana çıxdığı dövrə qədər xalq arasında geniş şöhrət qazanmış «varsaq» tipli müğənnilərlə sıx əlaqədardır…Bir zamanlar musiqi alətində çalan, rəqs edən, oxuyan və tamaşa göstərən istedadlı adamları varsaq adlandırarmışlar. Bu mənada varsaqlar müasir aşıqların ən qədim əcdadlarıdır». (70, s.14) Sitatdan da göründüyü kimi tədqiqatçı aşıq sənəti ilə varsaq sənəti arasında bağlılığı, sözün ifadə etdiyi mənanı və s. müqayisə edərək bu sənətin köklərini varsaq sənətində axtarır. «Azərbaycan aşıq sənəti» əsərində aşıq sənətinin tarixi ilə bağlı aşıqların göstərdiyi fəaliyyətə görə fərqlənməsi, eləcə də poetik və musiqi janrlarının qanunauyğunluqları, saz aləti ətraflı şəkildə araşdırılmış, aşıq sənəti ilə bağlı xüsusi təsnifatlar aparılmışdır.

Aşıq sənətinin əcdadının ozan sənəti olması fikri musiqişünaslıqda öz təsdiqini tapmış fikirlərdəndir. Aşıq və ozan sənəti arasında yaxınlıq olduqca aydın görünür. Aşıq sənətinin tarixi ilə bağlı araşdırmalarında Tariyel Məmmədov aşıq sözünün artıq XII əsrdən məlum olmasını qeyd etmişdir. (45, s.14) Ümumiyyətlə T.Məmmədov aşıq sənəti ilə bağlı çox sayda tədqiqatların müəllifidir. «Azərbaycan klassik aşıq havaları» (129), «Azərbaycan xalq professional musiqisi: aşıq sənəti» (45), «Koroğlu aşıq havaları» (44), «Azərbaycan aşıq yaradıcılığı» (43) əsərlərində alim aşıq sənətini müxtəlif aspektlərdən araşdırmışdır. Tariyel Məmmədov öz əsərlərində aşıq havalarını müxtəlif tərəflərdən, o cümlədən forma, har-

monik dil, musiqi ilə poetik mətnin vəhdəti, lad və s. baxımından təhlil edir və bütün əsərlərdə çoxlu sayda aşıq havalarının not yazılarını təqdim edir.

Aşıq sənətinə dair bir sıra əsərlər musiqişünas alim, professor İradə Köçərliyə məxsusdur. «Azərbaycan xalq musiqi yaradıcılığında şikəstə» (31), «Aşıq sənəti: musiqili poetik janrlar» (30) kitablarında müəllif aşıq sənətinə aid bir sıra janrları (o cümlədən şikəstə, bayatı, müxəmməs, qoşma, gəraylı) ətraflı təhlil edir. Aşıq sənətinin müxtəlif problemlərinə həsr olunmuş məqalələr, xüsusilə də aşıq sənətində sinkretizm və sintez problemlərinin tədqiqinə dair elmi fikirlər İ.Köçərlinin doktorluq dissertasiyasında öz əksini tapmışdır.

Aşıq sənətində ustad ifaçılar ilə bağlı araşdırmalar, aşıq havalarının təhlili və not yazıları musiqişünas alim, professor Kamilə Dadaşzadənin «Знаковая система дастана» ("Dastanın işarə sistemi") (98) elmi- tədqiqat işində ifadə olunur. Öz tədqiqatlarında alim bir sıra aşıq havalarının not yazılarını da təqdim etmişdir. Sənətşünaslıq doktoru, professor Nailə Rəhimbəylinin «Aşıq Qərib» dastanına həsr olunmuş «Azərbaycan dastanlarının melo-poetikası» (62) adlı xüsusi tədqiqat işində aşıq sənətinin, dastan janrının və xüsusilə «Aşıq Qərib» dastanında ifa olunan havaların ətraflı şəkildə təhlili və müəllif tərəfindən yazıya alınmış not nümunələri təqdim olunur və aşıq havaları lad, forma, poetik janr və s. baxımından geniş təhlil olunur.

Aşıq sənətinin tədqiqatçılarından biri, sənətşünaslıq üzrə fəlsəfə doktoru İlqar İmamverdiyev «Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri» (18) əsərində aşıq sənətinin bir sıra tərəflərinə toxunmuş, aşıq ifaçılığında variant xüsusiyyətlərini, ritm, tembr, üslub, aşıq məktəbləri, saz kökləri və s. məsələlərə aydınlıq gətirmişdir.

Aşıq sənəti ilə bağlı müxtəlif problemlərin araşdırılmasında Səadət Seyidovanın, Elxan Babayevin, Azad Ozan Kərimlinin, Fəttah Xalıqzadənin, Əhməd İsazadənin, Bayram Hüseynlinin, Səltənət Tağıyevanın və başqalarının müxtəlif səpgili əsərləri xüsusi əhəmiyyət daşıyır.

Aşıq sənəti ədəbiyyatşünas alimlərin daim diqqət mərkəzində olmuş, bu sənətlə bağlı ilk tədqiqatlar folklorşünas alimlərin əsərlərində də yer almışdır. Aşıq sənətinin görkəmli tədqiqatçıları, folklorşünas alimlər Məhərrəm Qasımlı, Məmmədhüseyn Təhmasib, Həmid Araslı, Qara Namazov, Mürsəl Həkimov, Mahmud Allahmanlı, Seyfəddin Qəniyev, Sədnik Paşayev, Elxan Məmmədli və başqalarının elmi əsərləri bu baxımdan qiymətli mənbədir.

Xalq yaradıcılığının öyrənilməsində böyük xidmətləri olan folklorşünas alimlərin tədqiqatlarında problemin öyrənilməsinə müxtəlif aspektlərdən yanaşılmış, dəyərli elmi nəticələr əldə edilmişdir. Akademik Muxtar İmanovun bu elm sahəsinin inkişafı ilə bağlı fikirləri "Azərbaycan folklorşünaslığının dünəni və bu günü" məqaləsində öz əksini tapır: "Azərbaycan folklorşünaslığının dünəni çox da uzaq keçmişlərə gedib çıxmır, çünki folklorşünaslıq həm dünyada, həm də bizdə qismən cavan elm sahələrindən biridir. Avropada XVIII əsrin sonu, XIX əsrin əvvəllərindən formalaşmağa başlayan folklorşünaslığın bizdəki yaranma tarixi XIX əsrin sonları, XX əsrin əvvəllərinə təsadüf edir. Avropada olduğu kimi bizdə də folklorşünaslıq, əsasən folklor mətnlərinin toplanmasından, tərtib və nəşr olunmasından, nəşr olunmuş mətnlərə elmi münasibət bildirilməsindən başlayır". (20) Folklorşünaslıq elminin inkişafında bu əsərlər böyük rol oynamaqla yanaşı, xalq yaradıcılığının öyrənilməsinə kompleks yanaşma metodunun formalaşmasına təkan vermiş və incəsənətin müxtəlif sahələrinə öz təsirini göstərmişdir.

Aşıq sənətinin tarixi köklərinin araşdırılmasında bir sıra faktlar əsas tutularaq bu sənətin öz kökünü ən qədim mədəniyyət daşıyıcıları hesab olunan qam-şaman mədəniyyətindən götürüldüyü folklorşünas alimlərin tədqiqatlarında qeyd olunur. Burada arxeoloji qazıntılar zamanı tapılan nümunələrdə əks olunan mənzərələr əsas kimi götürülmüşdür. Bu barədə M.Həkimov, T.Bünyadov, V.Çobanzadə və s. maraqlı fikirlər qeyd etmişlər.

Məsələn, M.Həkimov maraqlı tarixi faktı əsas tutaraq bu sənəti köçəri maldarlığın yarandığı dövrlə bağlayır: «Azərbaycanda aşıq sənətinin tarixini hər şeydən əvvəl bu ərazidə məskən salan yarım köçəri tayfaların məişətində axtarmaq daha düzgün olar. Bu sənətin işarələri çox qədim dövrlərə gedib çıxır. Etnoqrafik müşahidələrdən belə məlum olur ki, aşıq sənətinin yaradıcıları maldar olmuşlar. Təkzibedilməz arxeoloji materiallar Azərbaycanda yarım köçəri həyat tərzi keçirən və əsasən qoyunçuluqla məşğul olan tayfaların tarixini təxminən 4000 il bundan əvvələ aparıb çıxarır…Şərq aləmində sazın tarixi çox qədimdir. Bu cəhətdən şumerlərə aid gil parçası üzərində təsvir edilən rəsm xüsusilə qiymətlidir. Həmin rəsmdə başı çalmalı bir çoban sinəsində simli musiqi aləti tutub oturmuşdur…Bu musiqi aləti görkəmcə kiçik sazı xatırladır – eramızdan əvvəl II minillik. Deməli Şərqdə hələ 4000 il bundan əvvəl saz aləti qoyunçuluqla məşğul olan əhali arasında intişar tapmışdır». (79, s.200)

Daha sonra alim bir sıra dastanların, o cümlədən «Kitabi Dədə Qorqud», «Alıxan-Pəri», «Əsli-Kərəm», «Novruz-Qəndab» adlarını çəkərək bu dastanlarda həmin tarixin izlərinin olduğunu qeyd edir. Alim bu iddianı irəli sürərkən ilk növbədə aşıq yaradıcılığında ən önəmli yerlərdən birini tutan bayatı janrının xalq mərasimlərində də istifadəsi, əmək prosesində söyləmələrin məhz bayatı janrının quruluşuna uyğun gəlməsi-

ni əsas götürür. Bu fikir musiqi baxımından da öz təsdiqini müəyyən mənada tapır. Çünki xalq mərasim musiqisinin poetik əsasını əsasən bayatılar təşkil edir. Ümumiyyətlə bayatı janrı şifahi xalq yaradıcılığında ən qədim şeir forması kimi qəbul olunur. Bu janrın tarixi haqqında, bayatı toponimi haqqında müxtəlif fikirlər söylənmişdir. Bir sıra alimlər bayatı janrının yaranmasını Azərbaycan ərazisində yaşayan Bayat tayfalarının adı ilə bağlayır. Lakin M.Həkimov bu fikirlə razılaşmayaraq bayatı janrının tarixinin daha qədim olduğunu söyləyir.

Alim digər folklor sənətinin tədqiqatçısı B.Çobanzadənin fikirləri ilə razılaşmayaraq aşıq sənətinin formalaşma prosesinin ozandan şamana deyil, şamanlardan ozana istiqamət götürdüyünü qeyd edir və aşıq sənəti mərhələlərini məhz bu cür təqdim edir:

Ozan-aşıq sənətinin mərhələləri:

1. Saya-çoban-maldar xətti;
2. Kam-şaman, Oğur-uğur, Oğ-uğ xətti;
3. Ozan-Dədə-Varsaq-Aşıq.

Bu cədvəldən ümumi xətti sezməmək mümkün deyil. Beləliklə, aşıq sənətinin mərhələləri M.Həkimovun fikrincə Saya (maldar) - şaman-ozan-varsaq-aşıq şəklində inkişaf etmişdir.

Bu fikirlər M.Qasımlının «Ozan-aşıq sənəti» kitabında da müxtəlif tarixi faktlar və məntiqi nəticələrlə əsaslandırılmışdır. Alim aşıq sənətinə qədər keçid prosesində ilk mərhələni qam-şaman mədəniyyətində, növbəti mərhələni baxşı, ozan və nəhayət aşıq ardıcıllaşması kimi təqdim edir. Lakin M.Həkimovdan fərqli olaraq bu formalaşma xəttində saya-maldar mərhələsi qeyd olunmur. M.Qasımlı aşıq sənətinin genetik qaynaqlarının qam-şamanlardan irəli gəlməsini ilk növbədə bu sənətin yerinə yetirdiyi funksiya, ifadə etdiyi fəlsəfi-psixoloji məzmunla əlaqələndirir.

Mifoloji dünya görüşünün mövcud olduğu ibtidai icma quruluşunda şamanlar bir sıra mərasim və ayinləri yerinə yetirərkən musiqidən istifadə etmələri onların həm də musiqiçi olmasından xəbər verir. Həmçinin bu kahinlər gələcəkdən xəbər verən, xəstəlikləri müalicə edən, qeyri-adi təbiət qüvvələri ilə əlaqə yarada bilən toxunulmaz insanlar kimi qəbul edilirdi: «…ibtidai cəmiyyətdəki tafya başçılarının gələcəkdən xəbər bilən, ruh çağırma qabiliyyəti olan, görücü-baxıcı-bilici funksiyası daşıyan kahinləri – qam-şamanlar ayin icrası zamanı daha çox musiqiçi kimi fəaliyyət göstərmişdir». (38, s.9)

Ozan-Aşıq sənətinə aparan bu yolda mifoloji dünya görüşünün təsirlərinin itməsi şamanların fəaliyyətinin daha çox dünyəvi xarakter alması ilə şərtlənir və bu tarixi prosesdə şamanların funksiyasını ozanlar həyata keçirməyə başlayır. Ozan adını almağa başlayan qam-şaman artıq kahin simasından çıxaraq el ağsaqqalına, dünyəvi əhəmiyyət daşıyan insana çevrilir. Lakin onun fəaliyyətində əsas yer tutan musiqi ifası, gələcəkdən xəbər vermə, qeyri-adi güc, bilik və s. bu kimi faktorlar yenə də öz əhəmiyyətini saxlamaqda davam edir. Bu bacarıqların tətbiqi isə əfsanə və sehrdən uzaqlaşaraq dünyəvi xarakter daşıyan həyat hadisələrində, adi insanların məişət ehtiyaclarında, el şənlik və mərasimlərində, hərbi yürüşlərdə və s. öz əksini tapmağa başladı. Beləliklə, əfsanədən dünyəviliyə, real həyata aparan yolun başlanğıcı qoyuldu.

Ozan sənətinin bu cür xarakter alması onları xalqın həyat və məişətinə daha da yaxınlaşdırdı. Əgər qam-şamanlar əsas etibarilə tayfa başçılarına daha yaxın, adi insanlar üçün əlçatmaz, qeyri-adi obraz səciyəsi daşıyırdısa, ozan onlardan çox fərqli ictimai funksiya daşımağa başladı. İlk növbədə ozan xalqın ağsaqqalı, xeyir-dua, məsləhət verəni, xəstəliyinə dərman tapan, dərdinə əlac edən, problemlərin ən optimal həllini fikirləşən, xalqın ən yaxın və sevimli nümayəndəsinə çevrildi.

Dediyimiz fikirlərin təsdiqini əsas etibarilə ozan sənətinin ən mükəmməl daşıyıcısı «Kitabi Dədə Qorqud» dastanında tapırıq. Dastanda ozan sənətinin nümayəndəsi Dədə Qorqud yuxarıda səslənən bütün xarakter cizgiləri özündə birləşdirmiş bir obraz olaraq qarşımızda canlanır. O, hökmdara da, xalqın adi bir nümayəndəsinə də eyni bir sevgi və qayğı ilə, diqqətlə yanaşır. Çünki ozan özü də həm hökmdar tərəfindən, həm də xalq tərəfindən eyni sevgi ilə sevilir, ona olan inam, hörmət ən azı hökmdar qədər vardır. Qam-şamanlarla ozanların fəaliyyətində müştərək qalan məqamlar həm də musiqi ilə bağlıdır. Qam-şamanın cəmiyyətdə tutduğu mövqeyi və yerinə yetirdiyi vəzifələri M.Qasımlı çox aydın şəkildə əks etdirmişdir: «Musiqi-söz-rəqs magiyasının əsas ifaçısı və təmsilçisi olan qam-şaman qəbilənin, tayfanın, ümumiyyətlə, toplu halında yaşayan ibtidai icmanın müşkülünü həll edən, dolaşığa düşmüş çətin işini asana çevirən, gələcəkdən xəbər gətirən, idarəedici, ruhani xadim idi. Bu qeyri-adi qabiliyyətləri özündə cəmləşdirdiyi səbəbindən o, icmanın ali təbəqəsinə daxil edilir və bir qayda olaraq, rəhbər-idarəedici özəkdə əsas yerlərdən birini alırdı». (38, s.10)

Sitatdan da göründüyü kimi şamanlar bu qeyri-adi bacarıqlarına görə hakim dairələrdə mövqe tutmuşlar. Bir məqamı da qeyd etmək yerinə düşər ki, mifoloji dünyagörüşünün mövcud olduğu dövrlərdə musiqi ifa etmək qeyri-adi bacarıq kimi qavranılırdısa, ozan sənətinin intişar tapdığı dövrdə musiqi ifaçılığı da öz qeyri-adilik xüsusiyyətini dəyişərək daha çox ictimailəşdi, insanlar üçün əlçatmaz bacarıq kimi yox, istedad tələb edən fəaliyyət anlamını daşımağa başladı. Həmin anlam bu günkü günümüzdə də mövcuddur və öz əhəmiyyətini itirməmişdir.

Ozan sənətinin bu baxımdan da xalqa yaxınlaşması onu adi musiqiçi obrazı almasına gətirib çıxarmır. Çünki hər kəs

musiqi alətində ifa etməyi öyrənə bilərdisə də, hər kəs ozan, də-də ola bilməzdi. Bunun üçün musiqi istedadından başqa müdrik-lik, bilik, uzaqgörənlik, tanrıya yaxın olmaq, bir sözlə kamil in-san obrazının bütün atributlarını, cizgilərini özündə əks etdirmək gərək idi. Əvvəllər mifoloji mərasim icraçısı ilə musiqiçini özündə cəmləşdirən qam-şamandan fərqli olaraq ozan sənətində bu iki tərəfdən məhz ikincisi daha çox inkişafa meyl edir və onun da sonrakı mərhələsi aşığın formalaşmasına gətirib çıxarır.

Musiqi aləmində folklor sənətinin öz başlanğıcını məhz mifoloji mərasim və ayinlərdən götürməsi fikri dünya musiqi sənətinin tədqiqi ilə məşğul olan digər alimlərin də yaradıcılı-ğında ifadə olunmuşdur. O cümlədən müxtəlif xalqların qə-dim musiqisini öyrənən görkəmli alim İ.Qruber musiqi sənəti-nin ilk izlərini məhz qədim mərasim və ayinlərdə axtarır. Onun fikrincə çoxallahlılığın mövcud olduğu dövrdə misteri-yalar, müxtəlif allahların şərəfinə təşkil olunmuş ayinlər, mə-rasimlər ilk musiqili tamaşalardır və musiqili səhnə əsərləri, musiqi ilə sözün vəhdəti, musiqi-söz-rəqs kompleksi məhz bu tamaşalarda yaranmışdır. (97)

Öz fikirlərini əsas etibarilə Qədim Misir mədəniyyətinin tədqiqi zamanı ifadə edən alimin iddiaları Şərq aləmində eyni vaxtda və hətta daha qədimlərdə mövcud olmuş qam-şamanla-rın də fəaliyyətində axtarmaq mümkündür. Qam-şaman ilkin mərhələdə mifoloji mərasim icraçılığı ilə folklor sənətkarlığını (habelə ifaçılığını) bir qovuşuq halda özündə cəmləşdirir.

Sonrakı dövrlərdə, eləcə də müasir dövrümüzdə musiqi-nin, ifaçılığın ifadə etdiyi məna və məzmuna nəzər salsaq, qam-şamanlarda ifadə etdiyi məzmundan qalan cizgiləri gör-müş olarıq. Musiqinin insana psixoloji-tərbiyəvi, emosional təsiri, musiqi ifaçılarının digərlərindən seçilməsi (istedad fak-toru), musiqinin müalicəvi təsiri (musiqinin tibb elmində tət-biqi) və s. dediyimiz cizgilərdəndir.

«Kitabi Dədə Qorqud» dastanı aşıq sənəti ilə bağlı ən böyük tarixi fakt kimi qiymətləndirilir. Məhz bu dastanda IX-X əsrlərdə Azərbaycanda baş verən tarixi hadisələr, qədim oğuz-türk tayfalarının həyatı, adət-ənənələri, mədəni, fəlsəfi, psixoloji dünyagörüşü, eləcə də aşıq sənətinin sələfi sayılan ozan, onun ifa etdiyi musiqi aləti qopuz (qolça qopuz) haqqında ən dolğun məlumatlar yer almışdır. Bu dastanın günümüzə gəlib çatan variantlarında aşıq sənətinin qədim poetik formaları, qopuz alətinin forma və quruluş xüsusiyyətləri, eləcə də ozanın cəmiyyətdə tutduğu mövqe bu sənətin öyrənilməsində əsaslı mənbə rolunu oynamışdır. Dastanın 1300 illik yubileyi çərçivəsində bir sıra dəyərli musiqişünaslıq tədqiqatları da işıq üzü görmüşdür. O cümlədən F.Xalıqzadənin «Kitabi Dədə Qorqud»un musiqi sözlüyü» (83), «Kitabi Dədə Qorqud» və musiqi poetikasının bəzi məsələləri» (84) məqalələrində qədim türk musiqi ənənələrinin tarixi kökləri, o cümlədən saz-söz sənətinin kökünü təşkil edən məsələlər işıqlandırılmış, dastanın musiqi tariximizin öyrənilməsində əhəmiyyəti vurğulanmışdır.

Musiqi üçün ən əhəmiyyətli fakt əsas etibarilə ozanın ifa etdiyi musiqi aləti, ifa etdiyi musiqinin və deyilən sözün müəllifinin özü olması, xalq şənliklərinin aparıcısı, el ağsaqqalı kimi xalq arasında hörmət qazanmasıdır ki, müasir aşıq sənətində sadaladığımız bütün xüsusiyyətləri tapmaq mümkündür. Folklorşünas alimlər ozan sənətinin əsas etibarilə fəlsəfi-psixoloji məzmununu sonrakı dövrdə yaranmış aşıq sənətinin ehtiva etdiyi məna və məzmunla bağlayır, «Dədə Qorqud» dastanında ifadə olunan şeir formasının aşıq şeir formalarının əsasını qoyduğunu qeyd edirlər. Ümumiyyətlə dastanda qarşılaşdığımız şeir formaları ədəbiyyatşünaslıqda Azərbaycan şeirinin ilkin nümunələri kimi qiymətləndirilir.

M.Qasımlı qam-şaman-ozan keçidini əsas etibarilə hər iki tərəfin eyni vəzifələri icra etməsi ilə bağlayır. «İlkin ibtidai çağlarda ozanlar da ruhani, təbib, musiqiçi, tayfa ağsaqqalı, xaqanın məsləhətçisi-yardımçısı və s. bu kimi qam-şaman vəzifələri icra etmişlər». (38, s.14) Burada ozanın ilk vaxtlar icra etdiyi vəzifələrə görə şamana yaxınlığı qeyd olunursa, daha sonra əvvəldə də qeyd etdiyimiz kimi ozanın daha çox dünyəviləşməsi prosesi ifadə olunur: «Bir sıra təkamül prosesindən bu keyfiyyətlərin müəyyən axarı-musiqiçi-söz sənətkarı xətti güclənməyə başlamış və ozanlar da əsasən çalıb-çağıran, söz düzüb qoşan el sənətkarı səciyyəsi qazanmışlar». (38, s.15)

Alimin dediyi kimi məhz bu proses onu daha çox aşıq sənətinə yaxınlaşdıran xüsusiyyətlərdən biri hesab olunur. Burada cəmiyyətin təfəkkür formalarının dəyişməsi, dünyagörüşü səviyyəsinin daha da güclənməsi, artması, dünyaya, musiqiyə, onu ifadə edən insanlara baxışın dəyişməsi ozan sənətini xalqa yaxınlaşdıran əsas amillərdən biri olmuşdur. Qam-şamandan qalan sehrli güc, qabaqdan görmə, bəlanın gəlişini əvvəldən hiss etmə kimi xüsusiyyətlər isə müasir aşıq sənətində də müəyyən izlərini itirməmişdir. Aşığı el anası, el ağsaqqalı adlandırmaq, onun məsləhətinə şübhə etmədən əməl etmək, onun gəlişinə sevinmək, xüsusi hörmət etmək və s. həmin izlərin parlaq nümunəsidir.

Ozan sənətinin dünyəviləşməsini sübut edən daha bir fakt da "Dədə Qorqud" dastanında qarşımıza çıxır. Bu da onun ifa etdiyi musiqi alətinin, qopuzun adi insanlar tərəfindən də ifa edilə bilməsidir. Bu ənənə sonralar aşıq sənəti, saz aləti üçün də səciyyəsi olmuşdur. Kübar evlərində royal alətinin olması yüksək mədəniyyətin vacib atributu sayıldığı kimi, Azərbaycan ailəsinin evində saz olması da həmin ailənin musiqiyə, saza, aşığa olan sevgisini, hörmətini ifadə edirdi. Saz

aləti evin ən hörmətli yerində, hündürdən asılır, ev sakinləri üçün bu alətdə ifa edə bilmək isə şərəf sayılırdı.

Bütün aşıq dastanlarının qəhrəmanları, hətta təsadüfi obrazlar belə müraciət zamanı öz sözlərini ilk olaraq sazla deməyə üstünlük verirlər. Xalq dastanlarında «aldı görək, nə dedi», «saçından üç tel ayırıb basdı sinəsinə», «bunu sözlə deyə bilmərəm dilim yanar, gərək sazla deyim» və s. bu kimi ifadələrə çox tez-tez rast gəlinir.

Ozan sənətinin formalaşması prosesində bir mühüm faktor bu sənətin mövcud olduğu dövrdə hakim mövqe tutmuş İslam dini ilə qarşıdurmada müqavimət göstərməyə imkan verirdi. Bu da ozanın təktanrılı inanışa, dünyagörüşünə malik olması idi. Lakin bununla belə İslam dini hər cür musiqi və rəqs proseslərini həyata keçirən sənətləri haram buyurur, o cümlədən ozanlar da ruhanilərin bu və ya başqa şəkildə təqibinə məruz qalırdılar. Təktanrılıq inanış forması ozanlarla müsəlman dinini qəbul etmiş adi insanların münasibətini korlamırdı və bu da ruhanilərin ozanı inkar etmək cəhdini zəiflədirdi. Bütün bu tarixi və ictimai proseslərin digər tərəfində də yeni mühit, yeni tələblər, yeni dinləyici auditoriyası ozan sənətinin öz yerini aşıq sənətinə verməsinə təkan rolunu oynayırdı. İslam dininin keçilməz ehkamlarının qarşısını isə ərazidə baş verən tarixi-siyasi hadisələr, o cümlədən bu sənətlə bağlılığı olan yeni fəlsəfi-estetik prinsiplər almağa başladı, onun musiqiyə, musiqi ifaçısına olan münasibətinə bir dəyişiklik gətirdi. Bu dövrdə daha çox humanistlik ideyalarının daşıyıcısı olan sufilik xalq arasında geniş yayıldı.

Sufiliklə aşıq sənətinin bağlılığı nəinki folklorşünaslıqda, həmçinin musiqişünaslıqda da qeyd olunur. T.Məmmədov aşıq sözünün kökünü, mənasını araşdırarkən bu sənətin sufiliklə əlaqəsini qeyd edir: ««Aşıq» anlayışının sufi təriqətləri ilə bağlılığı bir çox tarixi faktlarla təsdiqlənir. Sənədlərdən də məlum

olduğu kimi XIII əsrin sonu XIV əsrin başlanğıcında oturaq və köçəri türk əhalisi arasında geniş yayılan «bəktaşiyyə» sufi təriqətində istər təriqətə qəbul edilmiş aşıq-mühitlərə, istərsə də onlarla əlaqədə olan digər aşıqlara rast gəlinirdi». (45, s.15)

Aşıq və muğam sənətinin fəlsəfi-psixoloji yaxınlığı sufi ayinlərində eyni dərəcədə iştirakı ilə görünməyə başlayırdı. Bu əsas etibarilə sufilikdə mövcud olan ayin və mərasimlərin musiqi və rəqsin müşayiəti ilə keçməsi idi ki, həm aşıq sənəti, həm muğam sənəti öz məzmununa və quruluşuna, emosional-psixoloji təsir qüvvəsinə görə eyni dərəcədə sufilik fəlsəfəsi ilə yaxınlaşırdı. Aşıq sənətində hələ şamançılıqdan qalmış ayin və mərasim ənənələrini tətbiq edən sufilik muğam musiqisini ifadə etdiyi fəlsəfi – psixoloji məzmunu ilə ruhu qidalandıran, insanı Allaha yaxınlaşdıran güclü vasitə hesab edirdilər. Sufi alimlərinin yazılarında muğamların insana təsir qüvvəsi, Allaha yaxınlaşmaq üçün mənəvi təmizlənmə vasitəsi hesab etmələri kimi fikirlər böyük üstünlük təşkil edir.

Belə fikirlər sufilik təlimində də yer almışdı. Sufilik təliminin müxtəlif mərhələlərində hansı növ musiqi dinlənilməsi xüsusi önəm daşıyırdı. Məsələn, Orta əsr alimlərindən görkəmli mütəffəkir Əli Şirazinin musiqi haqqında söylədiyi fikirləri yada salmaq yerinə düşər: «Musiqi səsləri müxtəlif xüsusiyyətlərə və müxtəlif təsir gücünə malikdirlər; onlar insanda sevinc, yaxud kədər, qəhrəmanlıq, yaxud səxavət halları və s. doğura bilərlər. 1) nə isə gözəl bir şey təəssüratı oyadıb, insanın əhvalına böyük təsir göstərən xoş havalar; 2) çox hallarda təbiət, heyvan və s. səslərini təqlid edən və bununla da dinləyicilərə ləzzət verən təxəyyülə təsir göstərən havalar; 3) könüldə qüssə hissi yaradan havalar. Havaların birinci növü insana istirahət verir. İkinci növü alın yazısı və insan taleləri mövzusu ilə bağlıdır, üçüncü – qüssə doğurur və onun aradan qaldırılmasına gətirib çıxarır». (1, s.139 - 140)

Sitatdan da göründüyü kimi musiqi müxtəlif cəmiyyət və təbiət hadisələrinə görə xarakterizə edilir. Həmin dövrün ən məşhur musiqi növü olan muğam sənəti sufi ayin və mərasimlərində, fəlsəfəsində xüsusi yer tutmuşdur. Sufi mərasimlərinin əsas mərhələsi Zikrdə muğam, onu ifa etmək üçün müşayiət edən musiqi alətlərindən tar, nağara, xəlilə və neydən istifadə olunması tarixi mənbələrdə öz əksini tapmışdır. Musiqi haqqında sufi alimlərinin müxtəlif fikirləri mövcud olmuşdur. Məsələn, «musiqinin mistik-psixoloji hallarının oyandırmaq qabiliyyətinə malik olması, eyni bir musiqi dinlənilməsi ilə dinləyicinin mistik təcrübəsinin kamilləşməsi» və yaxud «musiqi insana dua ekstazı verir. Musiqi insanı yer həyatından ayırır və göyə, Allahın yanına qaldırır» və s. kimi və bu qəbildən olan çoxsaylı fikirlər mövcud idi.

«Sufizmə görə muğam haqqa çatmaq yolunda, Allaha qovuşmaq yolunda pillərlərdir. Hər bir muğam bir neçə mənəvi keyfiyyətləri, kamil (mütləq) şəxsiyyətin bir neçə səviyyəsini özündə təcəssüm etdirir». (1, s.165) Bu fikir əsas etibarilə muğamın öz daxilində pilləvari quruluşu olması, o cümlədən muğamın daxili fəlsəfi-psixoloji məzmunu da get-gedə kamilləşən, aliləşən xarakteri daşıması ilə sufi təlimində də insanın kamilləşməsi, haqqa qovuşması üçün müəyyən pillələrdən keçməsi, daxilən mənəvi saflaşması, dünyəvi həzz və ləzzətlərdən, nemətlərdən imtina edərək ən ali pilləyə yüksəlməsi arasında müəyyən paralellik yaranmasından irəli gəlir. Diqqətə çatdıraq ki, eyni mənəvi-psixoloji proses aşıq yaradıcılığında məhz sufiliyin mövcud olduğu dövrdə gedirdi. Bu da kamilliyin nümunəsi olan haqq aşığı məfhumunun yaranması idi ki, nəticədə sufilik təlimininin həm muğam, həm də aşıq musiqisinə təsiri, eləcə də əksinə sufiliyin öz ideyalarını izah etmək üçün istifadə etdiyi musiqinin tərkibində hər iki sənət nümunələrinin iştirakının olmasını sübuta yetirir.

Orta əsrlərdə aşıq və muğam sənəti nümunələri birlikdə sufi mərasimlərində tətbiq olunmuşdur. Burada hər iki sənətə məxsus musiqi alətləri və musiqi janrları ayin və mərasimlərin keçirliməsində istifadə olunmuşdur. Lakin bu proses musiqilərin qovuşması yox, hər ikisinin sufi dərvişinin öz mənəvi-psixoloji ekstaz vəziyyətinə çatması üçün istifadə etdiyi praktik vasitələr idi. Hətta muğam musiqisinin sufiliklə əlaqədar yaranması fikirlərinin yanlış olması da burada sübuta yetir.

«Səm mərasimlərində və ümumiyyətlə sufi musiqisində muğam (məqam, makom) çox mühüm rol oynamışdır. Lakin əsrlər boyu inkişaf edən muğam (məqam) forması müsəlman xalqlarının sevimli, populyar musiqi forması oldu. Tezliklə muğamat (məqamat) sənəti regionun musiqi həyatında tamamilə seçilən və az qala mərkəzi bir yer tutdu». (1, s.145) Muğam sənətinin tədqiqatçısı G.Abdulluzadənin kitabından gətirdiyimiz sitatla yuxarıda dediklərimizi bir daha təsdiq etmiş oluruq.

Qeyd olunan fikirlərdən belə nəticəyə gəlmək olur ki, həm aşıq, həm də muğam sənətinin dərin fəlsəfi-psixoloji məzmunu onların tarixin ayrı-ayrı dövrlərində dini-fəlsəfi təriqətlər üçün xüsusi əhəmiyyət daşıması ilə nəticələnmişdir. Lakin yenə də hər iki sənətin ümumbəşəri əhəmiyyəti hansısa çərçivələr daxilində qalmadan, daim inkişafda olan və insanların mənəvi dünyasının zənginləşməsinə xidmət edən yüksək sənət sahələri kimi bu günümüzə gəlib çatmasına səbəb olmuşdur. Müasir dövrümüzdə aşıqların da, xanəndə və sazəndələrin də sənətlərinə xalqımızın necə qiymət verməsi, onların xalqın həyatında tutduğu yer bunu bir daha sübut edir.

Haqq aşığı ozandan aşığa keçidin ən parlaq nümunəsi hesab edilə bilər. İlk növbədə ozanın şəxsiyyət cizgilərini özündə ehtiva edən haqq aşığı da adi aşıqdan fərqlənən, ilahi istedada malik olan, qeyri-adi məhəbbətə tutulan, bu yolda böyük qurbanlar verən, çətinlikləri dəf edən, eyni zamanda

Allaha yaxınlığını hər addımında sübut edən, toxunulmazlıq xüsusiyyəti almış qeyri-adi insandır. Haqq aşığına toxunmaq, ona əziyyət vermək, cəzalandırmaq hətta hökmdarların da cəsarət etmədiyi işdir ki, bu da haqq aşığını əylənib-əyləndirmək məqsədilə çalıb-oxuyan musiqiçilərdən əsaslı surətdə fərqləndirir. Bu fərqli münasibəti «Koroğlu» dastanının «Qıratın oğurlanması» boyundan Hasan paşanın aşıq paltarı geyinərək məclisə gələn Koroğluya verdiyi sualdan da aydın görünür: «Aşıqsan, yoxsa yanşaq?». Aşıqla islam dinini qəbul etməyən və öz sənət ənənələrini qoruyub saxlamağa çalışan varsaq və yanşaqlara da cəmiyyətdə münasibət fərqli idi. Aşıqların hakim siniflər tərəfindən dəstəklənməsi yanşaq və varsaqları xalq arasında da arzuolunmaz obraza çevirirdi. M.Qasımlı bu barədə «Ozan-aşıq sənəti» əsərində qeyd etmişdir. (38, s.97) Burada ozanların sıxışdırıldıqdan sonra ozan-varsaq, ozan-yanşaq əvəzləmələrinin XVII əsrdə getdiyi ehtimal olunur. Bu adlar həmin ozanların varsaq və ya yanşaq tayfalarının ərazilərində yaşamasından asılı idi.

Tarixin ümumi mənzərəsinə nəzər saldıqda aşıq və xanəndə sənətlərinin ayrı-ayrı auditoriyaları olmasını aşkar görmək mümkündür. Mütaliə etdiyimiz bütün elmi əsərlərdə də qeyd olunduğu kimi, aşıqlar sıravi xalq içərisində, xanəndələr isə saraylarda öz sənətlərini yaradır və yaşadırdılar. Yalnız kütləvi bayramlarda, hərbi yürüşlərdə bu iki sənətin nümayəndələri eyni səhnəni bölüşsələr də, onlar arasında praktik əlaqələrin mövcud olduğunu demək çətindir. Lakin bu sənətlər arasında xalq musiqimizin əsasını təşkil edən lad, intonasiya və ritm əlaqələrinin olması danılmazdır. Bu əlaqələr əvvəldə Ə.Bədəlbəylinin də qeyd etdiyi kimi bir ağacın iki böyük qolu tək inkişaf etməsindən, eyni xalq tərəfindən yaranmasından, eyni etnik, genetik yaddaşın və musiqi təfəkkürünün məhsulu olmasından irəli gəlmişdir.

Aşıq sənəti və onunla bağlı baş verən bu proseslərin fonunda Azərbaycan ərazisində digər bir sənət nümunəsi də öz başlanğıc mərhələsini, formalaşma prosesini keçməyə başlamışdı. Hələ Sasani hakimiyyəti dövründə saray mədəniyyəti, saray musiqiçiləri deyilən bir zümrə vardı ki, onlar saraylarda yaşayır və hökmdarların şərəfinə musiqi ifa edir, yaratdıqları havaları onların şərəfinə adlandırırdılar. Sasani hökmdarı Xosrovun sarayında yaşamış, yaratmış musiqiçilər Barbədin, Nəkisanın adını biz XII əsrin dahi sənətkarı N.Gəncəvinin əsərlərindən öyrənmişik. Həmin dövrdə sarayda yaranan və inkişaf edən musiqini bir çox alimlər məhz muğam musiqisinin ilkin nümunələri hesab edirdilər. Ədəbi mənbələrdən məlum olan yeddi hava (Barbədin yaratdığı Xosrovani havaları) muğam tədqiqatçılarının diqqətindən yayınmamışdır. İlkin Orta əsrlərin muğam sənəti haqqında ən dolğun məlumatlar isə məhz N.Gəncəvinin əsərlərindən əldə edilir, daha sonra isə Orta əsr Azərbaycan alimləri Səfiyyəddin Urməvi, Əbdülqadir Marağayi, Əl-Fərabi, Əl-Kindi, Nəsrəddin Tusi və başqa alimlərin risalələri muğam sənəti, onun formalaşma prosesi, daxili quruluşu və s. haqqında ətraflı biliklər əldə etməyə imkan verir. Adı çəkilən alimlərin yazılarında ozan sənəti, qopuz aləti haqqında informasiyaya rast gəlinmişdir. Bu barədə öz tədqiqatlarında məlumat verən Ə.Eldarova S.Urməvinin, Ə.Marağayinin, M.Kaşğarinin adlarını çəkir.

Muğam sənəti ozan-aşıq sənətindən fərqli şəraitdə təşəkkül tapmağa başlasa da, bu fakt iki sənət arasında olan bağlılığı qopara bilməmişdir. Muğam sənətinin tarixi ilə bağlı musiqişünaslıq elmində daha çox araşdırmalar aparılmışdır. Muğam sənəti tədqiqat obyekti kimi Orta əsr alimlərin yaradıcılığından başlayaraq bu günümüzə qədər öz aktuallığını itirmir. Bu alimlərin yaradıcılığında muğam sənətinin müxtəlif tərəfləri, lad nəzəriyyəsi, ritm, instrumental musiqi, muğam

musiqisinin fəlsəfi-psixoloji məzmunu və s. məsələlər tədqiq olunur. Daha sonra bu yolu onların tələbələri, davamçıları apararaq muğam sənətinə dair böyük elm xəzinəsi yaratmışlar. Muğam sənətinin çiçəkləndiyi dövrdə (XIX əsrin sonu XX əsrin əvvəlləri) yenə də elmi cəhətdən araşdırılması davam etdirilmiş, bu sahədə alimlərlə yanaşı xanəndə və sazəndələr, ziyalılar, şair və ədiblər də böyük rol oynamışdır. Musiqi və şeir məclislərinin fəaliyyəti buna parlaq misaldır.

Azərbaycan xalq musiqisini hərtərəfli araşdıran Üzeyir Hacıbəylinin elmi fəaliyyətində muğam sənəti əsas tədqiqat obyekti kimi özünü göstərmişdir. Özündən əvvəlki sələflərinin əsərlərinə istinad edən alim lad nəzəriyyəsini yaratmaqla bir sıra məsələlərə aydınlıq gətirmişdir. Muğam sənətinə aid fikirlər də alimin Azərbaycan musiqisinə dair elmi məqalələrində öz əksini tapmışdır. Xanəndə və sazəndə sənəti ilə bağlı Üzeyir Hacıbəyli öz münasibətini ilk olaraq bu cür ifadə etmişdir: «Peşə və sənət məqamında isə musiqi icrası «ustad»ların işidir; bu ustadlar, qabiliyyət və ləyaqətlərinə görə iki zümrəyə ayrılırlar: biri şəhər və yaxud «məclis» musiqiçiləri ki, bunlara məlum olduğu üzrə, xanəndə və sazanda dəstəsi deyilir;…» (80, s.185) Xanəndə və sazəndə sənətini şəhər mədəniyyətinə aid edən alim daha sonra onların ifaçılıq xüsusiyyətlərinə, repertuarına da aydınlıq gətirir və hər dəfə onları aşıqlarla müqayisəli şəkildə təqdim edir.

Muğam sənəti Üzeyir bəydən başqa Əfrasiyab Bədəlbəylinin, Bülbülün də yaradıcılığında əsas yer tutmuşdur. Bu sənətlə bağlı terminlərin izahı «İzahlı monoqrafik musiqi lüğəti»ndə (13) ətraflı şəkildə verilir, Bülbülün məqalələrində isə xanəndə və sazəndə sənətinə dair informasiya ilə yanaşı, iki sənətin müqayisəli şəkildə təhlili ön plana çəkilir. Ümumiyyətlə, muğam sənətinə dair musiqişünaslıq tədqiqatları aşıq sənətinə nisbətən daha çoxdur.

Muğam sənətinin müxtəlif nəzəri problemlərinə dair digər tədqiqat əsərlərində bu sənətin ayrı-ayrı sahələri (instrumental, tarixi, fəlsəfi-psixoloji, janr, ifaçılıq ənənələri, ustad ifaçılar və s.) araşdırılır. Muğam sənətinin tədqiqinə dair qiymətli məlumatlar həmçinin 2009, 2011 2013 və 2015-ci illərdə Beynəlxalq Muğam Festivalının tədbirləri çərçivəsində keçirilmiş muğam simpoziumlarında öz əksini tapmışdır. Bu simpoziumlarda dünyanın bir çox ölkələrindən gələn alimlər muğamla bağlı müxtəlif aspektli məqalələrlə çıxışlar etmişlər. Simpozium materiallarında muğam sənəti dünya musiqisi rakursunda araşdırılmış, yeni təmayüllər üzə çıxarılmışdır. Eləcə də Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən «Muğam-internet», «Muğam-antologiya», «Muğam dünyası», «Muğam mərkəzi», «Azərbaycan muğamı» (tədris vəsaiti), «Qarabağ xanəndələri», «Muğam ensiklopediyası» kimi CD-DVD albomlar və nəşrlər muğam sənətinin müasir səviyyədə öyrənilməsində olduqca qiymətlidir.

Muğam sənətində də inkişaf prosesi həm vokal, həm instrumental ifaçılıq, həm də elmi-nəzəri cəhətdən mərhələlərlə getmişdir. Əvvəldə qeyd etdiyimiz kimi, Sasanilərin hakimiyyəti dövründə saray mədəniyyətinin çiçəklənməsi baş vermişdir. Tarixi faktlara nəzər saldıqda görürük ki, bu dövrün saray musiqiçisi həm vokal, həm instrumental ifaçılığı bacarır, eləcə də ifa etdiyi musiqilərin müəllifi, ifa etdiyi alətin yaradıcısıdır. Burada musiqi sənətinin müxtəlif tərəflərinin yalnız bir şəxsin timsalında təqdim olunduğunun şahidi oluruq. Lakin aşıq sənətindən fərqli olaraq muğam sənəti inkişaf etdikcə bu proses dəyişir, müğənni, xanəndə, sazəndə kimi anlayışlar yaranmağa başlayır. Tədricən muğam sənətinin ifaçılıq ənənələri formalaşır. Saray mühitində inkişaf edən bu sənətin görkəmli ifaçıları yetişir. Artıq XII-XIII əsrlərdə muğam sənəti alimlər tərəfindən araşdırılmağa başlayır. Çox sayda

musiqi alətləri yaranır. Muğam sənətində professionallaşma prosesi daha aktiv gedir. Nəticədə müğənnilər və instrumental ifaçılar yetişir, muğam sənətinin tədqiqi ilə məşğul olmaq sırf alimlərin fəaliyyət dairəsinə keçir, musiqi alətinin yaradılması da bu sahədə daha çox biliyə və qabiliyyətə malik olan insanların ixtiyarına verilir.

Orta əsrlərdə artıq məqam, muğam, dəstgah, təsnif və s. kimi anlayışlar formalaşmağa başlayır. Muğam sənətini tədqiq edən musiqişünas alim Ramiz Zöhrabov bu sənətin tarixini araşdırarkən Orta əsr alimlərin əsərlərinə istinad edir. «XIV əsrin ikinci yarısında və XV əsrdə Azərbaycanda bir sıra görkəmli musiqiçilər yetişmişdir. Onlar xalqın şifahi ənənəyə əsaslanan klassik irsinə daxil olmuş bir sıra muğamlar, təsniflər bəstələmiş və nəzəri tədqiqat əsərləri yaratmışlar». (85, s.35) Həmin fikirləri alim həmçinin N.Gəncəvinin yaradıcılığında muğam sənəti ilə bağlı məlumatları araşdırarkən qeyd edir. Burada şairin müxtəlif poemalarından sitatlar gətirilərək muğam, təsniflərin artıq bir janr kimi musiqiçilərin ifasında səslənməsindən danışırlır.

Muğam sənətinin saray mühitində inkişaf etdiyi dövrlərdə (Orta əsrlər) muğam ifaçılarının aşıqlarla bir araya gəlməsi kimi faktlar da məlumdur. Qeyd etmək lazımdır ki, bir sıra ədəbi mənbələrdə, o cümlədən xalq dastanı «Koroğlu»da biz sarayda yaşayan aşıqların adlarına da rast gəlirik. O cümlədən Hasan Paşanın sarayında yaşayan Aşıq Cünun dediyimizə misal ola bilər. Digər tərəfdən aşıq dastanlarının qəhrəmanları, xüsusilə də xanımlar əsas etibarilə hakim sinfə mənsub olmaqlarına rəğmən onlarda aşığa, saza məhəbbət ən qabarıq formasında özünü göstərir. Aşıqların adları ilə bağlı dastanlarda onların sevgililəri əsas etibarilə varlı sinfə məxsus qızlardır və onların qovuşmamasına da əsas səbəb çox vaxt sosial mövqeyin fərqindən yaranır. Və yaxud «Koroğlu» dastanında aşı-

ğın Qıratı sağalda bilməsinə inanan paşalar, bəylər bu işi aşıq kimi saraya daxil olan Koroğluya həvalə edirlər. Deməli aşıq saraylardan kənarda fəaliyyət göstərsə də, saray əhli tərəfindən sevgiyə və sayqıya malik olmuşdur. XVI əsrin görkəmli dövlət xadimi, şairi, Azərbaycan xalqının tarixində böyük rol oynamış Şah İsmayıl Xətai aşıq sənətinə xüsusi önəm vermiş, onun sarayında ustad aşıqlar fəaliyyət göstərmişlər. Şeirə, sənətə qiymət verən istedadlı şairin adı ilə bağlı dastan və havalar bu gün də aşıq sənətində yaşamaqdadır.

Aşıq və muğam sənəti arasında praktik əlaqələrin aktivləşməsi dövrü XIX-XX əsrləri əhatə edir. Musiqi tarixində bu dövrü Azərbaycan musiqi sənətinin yüksəliş dövrü adlandırmaq olar. XIX əsrdən başlayaraq həm muğam sənəti, həm də aşıq sənəti parlaq çiçəklənmə dövrünü yaşamağa başlamışdır. Aşıq və xanəndələrin öz sənətlərini nümayiş etdirdiyi məkanlar ümumiləşdikcə onlar arasında praktik əlaqələr daha da aktivləşmişdir. Həm el şənlikləri, həm də bu dövrdə fəaliyyət göstərən musiqi və şeir məclisləri iki sənət arasında əlaqə və təsirləri daha da artıran əsas məkanlar idi.

Musiqi məclislərinin, toy və bayramların ümumi mənzərəsini təsvir edən mənbələrlə tanış olduqda aşıq və xanəndələrin eyni səhnəni bölüşməsini, eyni həvəslə dinlənilməsini görmək mümkündür. Bu isə o deməkdir ki, aşıqlar xanəndələrin repertuarı, ifaçılıq üslubları, muğam improvizasiya ənənələri ilə yaxından tanış olur, eləcə də xanəndələr aşıq mahnılarının təsiri altında yeni-yeni mahnı və təsniflər yaradır, aşıq havalarını öz yaradıcılıqlarına daxil edirdilər. Eyni zamanda hər iki ifaçının musiqi təfəkkürü bir-birinin təsiri altında daha da mükəmmələşməyə səbəb olurdu ki, bu ilk növbədə ifaçılıq üslubunda baş verən yeniliklərlə səciyyələnirdi.

Bu təsir və əlaqələrin fonunda həm aşıq, həm də muğam sənəti yeni inkişaf mərhələsinə adlayır, aşıq və xanəndə ifası

isə yeni xüsusiyyətlərlə, ifadə vasitələri ilə zənginləşirdi. XX əsrin əvvəllərində xalq musiqisinin toplanması, nota salınması, təhlil və tədqiq olunması prosesi başladıqda aşıq və muğam sənəti arasında yaxınlıq, üslubların bir – birinə təsir faktorları ortaya çıxdıqca, bu problemin həllinə ehtiyac olduğunu Bülbül öz məqalələrində dəfələrlə qeyd etmiş, Ə.Bədəlbəyli isə aşıq və muğam sənətlərində mövcud janrların məhz bu əlaqə və təsirlər fonunda təhlil olunmasını düzgün metod hesab etmişdir.

«İlk əvvəl xalqın əmək prosesində sadə və olduqca ibtidai mahnı şəklində yaradılmış kiçik musiqi parçaları sonralar əməkçi xalq həyatının və gündəlik məişətinin müxtəlif cəhətlərini özündə əks etdirməyə başlamış, ictimai quruluşun ayrı-ayrı şəraiti üzrə müxtəlif sinfi qollara ayrılmış və daim dəyişən tarixi vəziyyətlə əlaqədar olaraq yeni-yeni janrlar və formalar kəsb etmişdir». (13, s. 28) Xalq musiqisinin ibtidai dövrdən başlayaraq hansı şəkildə təkamül prosesi keçməsini alim qısa olaraq təsvir edir. Sinfi qollar dedikdə isə məhz aşıq və muğam sənəti nəzərdə tutulur.

Aşıq və muğam sənətinin bir araya gəlməsinin yeni mərhələsi bəstəkar yaradıcılığında başlayır. Aşıq dastanı əsasında yaranan muğam operaları bu mərhələyə başlanğıc vermişdir. Bu əsərlərdə («Əsli və Kərəm», «Aşıq Qərib», «Şah İsmayıl») aşıq və muğam sənəti eyni zamanda bəstəkar yaradıcılığına daxil olur. Yəni bəstəkar operanın süjet xətti kimi aşıq dastanından istifadə edir. Bildiyimiz kimi bir çox aşıq dastanlarında əsas qəhrəman həm də aşıqdır. Muğam operasında çıxış edən ifaçının xanəndə olduğunu nəzərə alsaq, nəticədə aşıq rolunu operada xanəndə aparmalı olur. Burada söhbət tək artistlik xüsusiyyətlərindən yox, həm də xanəndənin ifa etməli olduğu aşıq musiqi nümunələrindən, həmçinin vokal ifa üslubuna aşıq ifaçılığı ənənələrinin daxil olmasından

gedir. Beləliklə, xanəndə səhnədə aşıq obrazında çıxış etməli olur. Nəticədə aşıq və muğam ifaçılıq üslublarının ən mükəmməl şəkildə qovuşması baş verir. Aşıq və muğam sənətinin bəstəkar yaradıcılığında istifadəsi çox müxtəlif istiqamətlərdə baş vermiş və verməkdədir.

### 1.2. Aşıq və xanəndə ifaçılığının əsas xüsusiyyətləri

Aşıq və muğam sənətinin tarixi əlaqələrini araşdırarkən onlar arasında praktik əlaqələrin, canlı ünsiyyətin və s. mövcud olması, hansısa münasibətlərin müəyyən tarixi şəraitdən, sosial-siyasi mühitdən asılılığının şahidi olduq. Bu asılılıqlar aşıq və muğam sənətinin yarandığı, inkişaf etdiyi, fəaliyyət göstərdiyi məkanlardan, dinləyici auditoriyasından, ifadə etdiyi məzmunun xarakterindən doğan səbəblərdən irəli gəldiyi üçün aşıq və muğam sənətinin daşıyıcılarının, daha dəqiq desək sırf aşıq və xanəndənin öz sənətlərini nümayiş etdirdikləri məkanları, onları sevən və dinləyən insanların sosial statusunu, hər iki sənətdə əsas yer tutan poetik məzmunun ifadə etdiyi mövzu dairəsi və s. bu kimi məsələlərə aydınlıq gətirilməsinin vacib olduğunu hesab etdik. Təqdim olunan bölmə məhz bu məsələlərin şərhinə həsr olunmuşdur.

Aşıq və xanəndə sənətlərinin tarix boyu ayrı-ayrı dinləyici auditoriyası olmasını həm tarixçi, həm folklorşünas, həm də musiqiçi alimlər dəfələrlə qeyd etmişlər. Hətta bu fərq o qədər qabarıq şəkildə özünü göstərmişdir ki, aşıq sənətinin cəmiyyətin kasıb təbəqəsinin, muğam sənətinin isə kübar cəmiyyətinin zövqünü oxşayan sənət olduğu iddiaları da mövcuddur. Tarixə müraciət etdikdə isə müəyyən dövrlərdə aşıqların da xanəndə və sazəndələr kimi şah saraylarında yaşaması, dövlət səviyyəli bayram və şənliklərdə çıxışlar etməsi faktları çoxdur. Aşıq sənətinin əsas etibarilə şəhər mühitindən kənarda, kəndlərdə inkişaf etməsi, aşıqların səyyar halda bir obadan başqa obaya gəzərək el şənliklərində iştirak etməsi,

eləcə də əsas etibarilə əzilən kasıb xalqın haqq səsini ucaldan fikirlərin aşıq şeirlərində yer alması bu tip fikirlərin yaranmasına səbəb olmuşdur.

Ehtimal edirik ki, keçmiş dönəmlərdə bu sənətkarların arasında qarşılıqlı praktik əlaqə və münasibətlərin olmaması, onların ayrı-ayrı yerlərdə yaşaması və yaratması səbəbindən irəli gəlir.

Orta əsrlərdə saray hakimlərinin öz yanlarında aşıq saxladığı faktları dastanlarda tez-tez rast gəlinir. Bununla belə aşıq həm də sadə insanlara, kasıb təbəqənin nümayəndələrinə yaxın olmuş, onların dilində çalıb oxumuşdur. Xanəndələr isə demək olar ki, yalnız saray şənliklərini, məclislərini bəzəmiş, fars dilində qəzəllər oxumuşlar. Məhz fars dilində oxumaq faktı da onları sadə xalqdan nisbətən uzaqlaşdırmışdır. Çünki xanəndələrin fars dilində oxuduğu qəzəllərin çoxu məhəbbət mövzulu, bir qismi isə hökmdarlara yazılmış mədhiyyələrdən ibarət olardı. Xanəndələrin aşıq sənətindən nə poetik, nə də musiqi baxımından heç bir nümunəni mənimsəmək, repertuarına daxil etmək və s. kimi şəraiti yox idi. Bu baxımdan Bülbülün fikirlərini qeyd etmək yerinə düşər: «Xanəndə sənəti əsrlər boyu yaranan ənənələrin izlərini saxlamışdır. Əsasən zadəgan-feodal təbəqələrinə və şəhər əhalisinin varlı təbəqələrinə xidmət edən xanəndələr onların zövqünə uyğunlaşırdılar. Feodal Azərbaycanında yuxarı təbəqələrin hakim dili fars dili olduğundan (bir çox Azərbaycan şairləri də bu dildə yazırdılar), xanəndələr də öz çıxışlarını demək olar ki, ancaq fars dilində ifa edirdilər. Onlar ərəb-fars mədəniyyətinin böyük təsiri altında olan qədim-klassik musiqinin ənənəvi formalarını səylə qoruyub saxlamışlar». (14, s.139)

Aşıqlar isə bütün yaradıcılığı boyu ailə-məişət, məhəbbət mövzuları ilə yanaşı xalqın dərdini, problemlərini, etirazını, hökmdarların haqsız, ədalətsiz fəaliyyətini ifadə edən şeir-

lər qoşaraq hakim dairələrin qəzəbinə səbəb olurdular. Aşıqlar həm də din xadimlərini bolluca tənqid atəşinə tutduğuna görə ruhanilər və mollalar tərəfindən güclü təqiblərə məruz qalmışlar.

Sadaladığımız sosial-siyasi səbəblər, tarixi şərait bu iki sənətin nümayəndələrinin bir araya gəlmələrinə mane olmuşdur. Bununla belə XIX-XX əsrlərdə iki sənət arasında mənəvi-psixoloji, praktik və nəzəri əlaqələr parlaq şəkildə üzə çıxmağa başladı. Kökünü etnoyaddaşdan, eyni təfəkkür mənbəyindən alan sənətlər arasında şüuraltı mövcud olmuş əlaqələr, təsir xüsusiyyətləri bu dövrdə qığılcımlar şəklində özünü göstərməyə başladı.

Bu əlaqə və təsirlər özünü ilk növbədə hər iki musiqi sənətinin bir intonasiya aləminə, ritm, lad əsaslarına malik olmasında göstərir. Bu barədə sonrakı fəsillərdə ətraflı danışılacaq. Həm aşıq, həm xanəndə musiqi sənətinə xidmət göstərdiyi üçün onların fəaliyyətində, yerinə yetirdiyi funksiyalarda ümumi, müştərək və fərqli cəhətlər var ki, onları qeyd etmək istərdik.

Hər hansı bir sahəni tədqiq edərkən adların, terminlərin mənşəyini öyrənmək bu sənət sahəsinin tarixini, mahiyyətini müəyyən etmək üçün çox vacibdir. Musiqi sənətində adlar, terminlər bu baxımdan olduqca əhəmiyyətlidir. Belə ki, bir sıra janrların, musiqi nümunələrinin hansı şəraitdə yaranması haqqında ilkin informasiyanı məhz onun adı verir. Aşıq və muğam sənətində adlar, terminlər, sözlər və s. daim maraq dairəsində olmuşdur.

Aşıq sənətinin özü kimi bu adın tarixi kökü də eyni dərəcədə həm musiqişünas, həm də folklorşünas alimləri maraqlandırmışdır. Aşıq sözünün kəsb etdiyi məna haqqında Ə.Bədəlbəylinin, Ə.Eldarovanın, S.Seyidovanın elmi tədqiqatlarında bir sıra maraqlı mülahizələr irəli sürülmüşdür. Bu fikirlərə

nəzər yetirdikdə aşıq sözünün daha çox ərəb sözü olan «aşiq»lə əlaqələndirilməsi diqqəti cəlb edir. Məsələn, Ə.Bədəlbəyli «İzahlı-monoqrafik musiqi lüğəti» əsərində aşıq sözünə bu cür xasiyyətnamə vermişdir: «Aşıq – (ərəbcə mənası aşiq – vurğun, məftun) yaradıcılığında şairlik, nəğməkarlıq və rəqs sənətlərini üzvi surətdə, sintetik tərzdə birləşdirən xalq sənətkarı». (13, s.7) Digər mənalandırma isə folklorşünas alimlərin fikirlərində təsadüf olunur ki, bu, əsas etibarilə sözün qədim türk kəlməsi olan aşılamaqla əlaqəli olduğunu ön plana çıxarır. «Aşiqin kökü ərəbcənin «eşq»i, «aşıq»ın kökü isə, bizcə, türkcənin indi artıq tamamilə arxaikləşmiş olan qədim «aş»ıdır. Bu söz öz fikrini, istəyini başqalarına təlqin etmək mənasında işlənmiş, buradan aşulamaq-nəğmə demək mənasını daşımış, buradan da «aşula», «aşıla» şəklində «nəğmə» mənasında işlədilmiş, indi isə özbəklərdə «aşulaçı» şəklində nəğməçi-müğənni mənasında işlənməkdədir». (69, s.62)

Sözün lüğət mənasından da göründüyü kimi alim aşıq sözünün ərəb dilindəki aşiq sözündən alınmasını göstərir. Ə. Eldarova «Azərbaycan aşıq sənəti» kitabında yenə də folklorşünas, tarixçi alimlərinin fikirlərinə istinad edərək, əsas etibarilə aşıq termininin ərəb işğalından sonra sənətə gəlməsini hesab edən M.Seyidovun məlumatlarına əsaslanır: «Aşıq termini bilavasitə ərəb istilasından sonra yaranmışdır». (70, s.14)

Aşıq sözünün müxtəlif mənalarına üstünlük verilməsi ilk növbədə onun cəmiyyətdə tutduğu mövqe, yerinə yetirdiyi funksiyaların müxtəlifliyi, ifa etdiyi havaların məzmun rəngarəngliyi ilə bağlıdır. Aşıq sənətində böyük üstünlük təşkil edən məhəbbət mövzusunu alimlər insanın ilahiyə olan eşqi kimi səciyyələndirir və bu nöqteyi-nəzərdən onun ilahi eşq aşiqi olduğunu iddia edirlər. Aşılamaq fikri isə aşığın cəmiyyətdə tutduğu mövqedən, onun el ağsaqqalı kimi yol göstərən, təlim-tərbiyə verən, uzaqgörən olması ilə əlaqədar olaraq in-

sanlara göstərdiyi tərbiyəvi təsirdən yaranmışdır. Hər iki halda aşıq sənəti öz mənəvi dünyası və yaratdığı əsərlərlə həm aşiq, həm də aşılayan mənasını təsdiqləyir.

Musiqişünaslıqda muğam sənətində adlar, terminlər, sözlər və s. aşıq sənətinə nisbətən daha çox öyrənilmişdir. Bununla bağlı Ə.Bədəlbəylinin «İzahlı monoqrafik musiqi lüğəti»ni (13) göstərmək kifayətdir. Muğam sənətində muğam, məqam, lad, tetraxord kimi anlayışlar Orta əsrlərdən musiqi aləminə məlumdur.

Aşıq və muğam sənətində adlarla bağlı informasiya olduqca böyük əhəmiyyət daşıyır. Aşıq sənətində havalar, poetik janrlar onlara verilmiş adlarla çox bağlıdır. Bu barədə Ə.Eldarova olduqca ətraflı şərh verir: «Bir sıra havaların adları mətnin poetik formasını və onun müəllifini müəyyənləşdirir, məsələn, Azaflı dübeyti;…bəzi havalar vardır ki, adlarında həm poetik forma, həm də yarandığı yer öz əksini tapır, məsələn, Aran gözəlləməsi;…ifa olunduğu pərdəyə görə adlanan havalar-Baş sarıtel;..dastan qəhrəmanları ilə bağlı adlanan havalar - Misri Koroğlu; aşıqların adları ilə bağlı havalar – Hüseyni, Cəlili; yer adı daşıyan havalar-Borçalı, Vanağzı; tayfa adları ilə bağlı havalar - Bayatı, Gəraylı, Əfşarı, mərasim və adət-ənənələrlə bağlı adlanan havalar - El toyunda; təbiət ünsürləri ilə adlanan - Mixəyi, Sarı bülbül və s.». (70, s.82) Sitatdan da göründüyü kimi adlara görə aşıq sənətində bir sıra açıqlamalar aparmaq mümkündür. Muğam sənətində də yer adları, ifaçılarla bağlı adlar mövcuddur. «Bayatı-Şiraz», «Mirzə Hüseyn Segahı» və s. Aşıq sənətindən fərqli olaraq muğam sənətində musiqi janrlarının adları daha konkretdir və hər hansı təbiət və ya sosial bağlılığı yoxdur. Digər tərəfdən aşıq sənətində eyni musiqi havası oxunduğu mühitə görə ad dəyişikliyinə uğrayırsa, muğam sənətində bu hal müşahidə olunmur. «Rast» və ya «Bayatı-Şiraz» hansı yerdə

(coğrafi mənada) oxunmasından asılı olmayaraq bu dəyişikliyə uğramır. Muğam sənətində variantlılıq sırf ifaçının improvizasiya bacarığından və ifa olunan muğamın daxili kompozisiya quruluşundan asılıdır.

Aşıq çıxış etdiyi səhnədən asılı olaraq bir çox vəzifələri icra edir. Məsələn, əgər bu səhnə müəyyən bir el şənliyidirsə, aşıq həm də məclis aparıcısıdır. Xalq arasında belə aşıqlara meydangir aşıq da deyirlər. Aşıq oxuduğu havanın da, söylədiyi şeirin də müəllifi özüdür. O halda ki, xanəndə ifa etdiyi muğamın yaradıcısı deyil. Muğam ifaçılığının özünəməxsus improvizasiya tipli üslub xüsusiyyətləri imkan verir ki, xanəndə öz istedad və ustalığını nümayiş etdirsin və ifa etdiyi muğamı fərdi improvizasiya qabiliyyəti, dünyagörüşü, musiqi duyumu və s. vasitəsilə daha da zənginləşdirsin. «Xanəndələr muğamların, dəstgahların quruluşundan, tərtibatından asılı olaraq təsnif düzəldir, mahnı qoşur, rəng seçir və qəzəllər ayırırlar. Öz səsinin, bacarığının daxilində bilik səviyyəsindən asılı olaraq qəzəllər oxuyur, qaval vurur, guşəxanlıq eləyir, gəzişir, zəngulə vurur, məclisi qızışdırırlar. Aşıqlar isə çoxlu nağıl bilməli, dastanlar əzbərləməlidirlər. Ustadnamələr, qıfılbəndlər, deyişmələr, qoşmalar, təcnis, müxəmməs, gəraylı, bayatı, dübeyti və buna bənzər bir çox aşıq havalarını öyrənməlidirlər». (15, s.25) Sitatdan da gördüyümüz kimi Bülbül üçüncü aşıq qurultayındakı məruzəsində də aşıqlarla xanəndələrin ifa zamanı yerinə yetirdiyi funksiyaları müqayisə edərək, onların bilik və bacarıq, istedad dairəsini aydınlaşdırır.

Aşıqların yerinə yetirdiyi funksiyalara görə onların da fəaliyyəti növlərə ayrılır. Bu barədə musiqişünaslıqda məlum təsnifat da vardır. Ə.Eldarova «Azərbaycan aşıq sənəti» əsərində aşıqları üç qrupa ayırır: «Yaradıcılıq imkanlarından asılı olaraq aşıqları üç qrupa bölmək mümkündür: I qrup-ustad aşıqlar, II qrup ifaçı aşıqlar, III qrup-aşıq-şairlər». (70, s.16)

Alim aşıqları yaradıcılıq səviyyəsinə, qabiliyyətinə görə ayıraraq ustad aşıqları həm şeir, həm hava yaradan, sazda ifa edib, dastan söyləyən rəqs edən sənətkar kimi; ifaçı aşıqları ustad aşıqlar tərəfindən yaradılan havaların ifaçısı kimi; şair aşıqları isə sadəcə şeir qoşan və məlum havaları sazda çalıb oxuyan sənətkarlar kimi müəyyənləşdirir. Biz müqayisə zamanı ustad aşığın fəaliyyətini əsas götürürük.

Aşıq musiqi alətinin ifaçısı, özü öz ifasının müşayiətçisidir. Xanəndəni isə xüsusi olaraq sazəndələr müşayiət edir. Ustad xanəndələr gözəl qaval çalmaqla öz çıxışlarını daha da mükəmməlləşdirə bilirlər. Lakin xanəndə qaval çalmazsa bu, muğam dəstgahının ifası zamanı ümumi kompozisiyasını pozmur. O halda ki, aşıq saz ifa edə bilməzsə heç aşıq sayıla bilməz. «Xanəndələr özləri qaval vurur. Qaval vasitəsilə vəzn saxlayırlar. Onları isə tar, kamança, nağara çalandan ibarət bir dəstə müşayiət edir. Əgər xanəndə qaval vurmazsa, bir özgəsi də qaval çala bilər. Halbuki, aşıqlar mütləq özü çalmalı, özü oxumalı və özü də oynamalıdır». (14, s.139) Əgər bu gün aşıq sənəti ilə məşğul olan gənclər ustad aşıqların yaratdığı havaları, qoşduğu şeirləri çalıb-oxumaqla aşıq statusuna yiyələnirlərsə, XVIII-XIX əsrlərdə bu tamamilə mümkünsüz idi. Belə aşıqlara xalq arasında da o qədər hörmət olunmazdı.

Ustad aşıq isə öz şeirləri, havaları, dastanları olan aşıq sayılırdı. O, həm də müdrik el ağsaqqalı idi. Onun sənəti insanları sadəcə əyləndirməyə deyil, mənəvi aləminin paklaşmasına, təmizlənməsinə də xidmət edirdi.

Yaradıcılıq funksiyası bir sıra ustad xanəndələrin də fəaliyyətinə xasdır. Məsələn, tarixdən Cabbar Qaryağdı oğlunun, Hacı Hüsünün, Seyid Şuşinskinin, Xan Şuşinskinin və başqa xanəndələrin neçə-neçə mahnıların müəllifi olduğu bizə məlumdur. O cümlədən müasirlərimiz sayılan Hacıbaba Hüseynov, Qulu Əsgərovun, Əlibaba Məmmədov, İslam Rzayev,

Arif Babayev və başqa xanəndələrimizin onlarla mahnı və təsnifləri xanəndə və müğənnilərimizin repertuarlarını bəzəyir.

Onu da qeyd edək ki, mükəmməl xanəndə olmaq üçün musiqi yaratmaqla məşğul olmaq şərt qoyulmadığı halda, ustad aşıq üçün bu, ən mühüm cəhətlərdən biridir. Ümumi mənzərədən belə görünür ki, aşığın qarşısında duran vəzifələr xanəndəyə nisbətən daha çoxdur. Tarixi dövrlərin araşdırılmasından gəldiyimiz nəticələrə görə bu hal yenə də aşıq və muğam sənətinin yarandığı və formalaşdığı mühitlə bağlı olmuşdur. Xanəndənin ətrafında musiqi alətində ifa edənlər çox olduğu halda, aşıq öz sənətini ağır həyatın çətinliklərinə qatlaşan kasıb camaatın arasında yaradıb-yaşatmışdır. Öz yaranma mənbəyinin xarakter cizgilərini əks etdirən aşıq sənətində musiqi aləti, onun qeyri-adi sehrli təsir qüvvəsi xüsusi rol oynamış və öz əhəmiyyətini heç bir zaman itirməmişdir.

Xanəndəlik sənətində isə musiqi alətinə sehrli qüvvə kimi münasibət olmamışdır. Ümumiyyətlə isə musiqinin insana göstərdiyi qeyri-adi təsir qüvvəsi alimlərin risalələrində tez-tez rast gəlinir. Hətta musiqi növləri planetlərə görə, bürclərə, havanın xarakterinə, rənglərə və s. görə müəyyənləşdirilirdi. Digər tərəfdən müxtəlif yaşlı insanlar üçün hansı musiqilərin ifasının münasib sayılması kimi məsələlərə Orta əsr alim və filosoflarının əsərlərində tez-tez toxunulurdu.

Aşıq və muğam sənətində ustad və şagird ənənələri, məktəb və mühit anlayışları haqqında danışmamaq mümkün deyildir. Çünki iki sənət arasında maddi və mənəvi əlaqələrin formalaşmasında bu faktorların xüsusi rolu olmuşdur.

Hər iki sənət şifahi ənənələr əsasında ustaddan şagirdə ötürülmək yolu ilə nəsildən-nəslə çatdırılmış, yaşadılmışdır. Müasir dövrdə bu prinsip olduğu kimi saxlanılır. Lakin aşıq sənətindən fərqli olaraq muğamın professional tədris prosesinə salınması bu sənətin nisbətən hərtərəfli və mükəmməl inki-

şafına səbəb olmuşdur. O cümlədən muğam sənəti öz təravətini, məzmununu, mahiyyətini itirmədən daha da püxtələşmiş, ictimailəşmiş və populyarlaşmışdır. Nəticədə muğam sənətinin elmi cəhətdən araşdırılması və öyrənilməsi daha aktiv aparılmışdır. Demək olar ki, bütün muğam dəstgahları, təsniflər, rənglər nota salınmış, ayrı-ayrı elmi-tədqiqat işlərinin mövzusuna çevrilmişdir. Muğam sənətinin bu cür təbliği ona olan marağı xeyli artırmış və nəticədə gənclər arasında muğam ifaçılarının sayı gənc aşıqlardan qat-qat çox olmuşdur.

Bütün bunlara baxmayaraq aşıq sənəti də öz auditoriyasını itirməmiş, sənətə yeni-yeni istedadlı aşıqlar bəxş etmişdir. Bu prosesin əsas etibarilə bölgələrdə müşahidə edilməsi aşıq sənətinin təhsil ocaqlarında az tədris olunması ilə, eləcə də tarix boyu bu sənətin əsas özəyi sayılan ərazilərdə məntiqi davamı kimi qəbul oluna bilər.

Aşıq və muğam sənəti tarix boyu vətənimizin müəyyən bölgələrində daha çox, digərlərində daha az səviyyədə formalaşmışdır. Buna görə də hansısa zonalarda aşıq məktəbləri və ya muğam məktəbləri yaranmışdır. Folklorşünas alimlər aşıq sənətində məktəblərlə yanaşı aşıq mühitlərini də qeyd edirlər. Bu baxımdan M.Qasımlının fikirləri çox maraqlıdır. Aşıq sənətinin tarixini əsaslı şəkildə tədqiq etmiş alim Azərbaycanda mövcud olan aşıq mühitlərini belə təqdim edir: «Aşıq mühiti geniş və mürəkkəb bir kompleksdir. Buraya müəyyən tarixi-coğrafi hüdudların çevrələdiyi (məsələn, Təbriz-Qaradağ, Urmiya, Şirvan, Gəncəbasar, Borçalı, Göyçə, Qarabağ, Naxçıvan və s.) aşıq ifaçılıq ənənələri ilə yanaşı, həmin regionun mədəni-tarixi mövqeyi, coğrafi şəraiti, iqlimi, yerli camaatın adət-ənənəsi etnoqrafik yaşam tərzi, dini-məzhəbi görüşləri, saza-sözə həssaslıq dərəcəsi və s. kimi çoxsaylı və çoxyönlü amillər daxildir. (38, s.24)

Sitatdan da göründüyü kimi müəllif bir aşıq mühitində bir neçə aşıq məktəbələrinin ola bilməsini qeyd edir. Lakin irəlidə folklorşünas alim konkret aşıqların ifaçılıq ənənələrini aşıq məktəbi kimi qiymətləndirir. Bu məqamda musiqişünas alimlərlə fikir ayrılığı yaranır. Musiqişünaslıq tədqiqatlarında aşıq məktəbi dedikdə böyük əraziyə malik olan bölgələrimizin aşıq musiqi ifaçılıq ənənələrini nəzərdə tutulur və bu bölgələri, məktəbləri bir yox, bəlkə onlarla aşıq təmsil edir.

İrəlidə M.Qasımlı Azərbaycanın aşıq mühitlərini təqdim edir: 1. Gəncəbasar aşıq mühiti; 2. Borçalı aşıq mühiti; 3. Göyçə aşıq mühiti; 4. Dərələyəz aşıq mühiti; 5. İrəvan aşıq mühiti; 6. Çıldır aşıq mühiti; 7. Şirvan aşıq mühiti; 8. Dərbənd aşıq mühiti; 9. Qarabağ aşıq mühiti; 10. Naxçıvan aşıq mühiti; 11. Qaradağ-Təbriz aşıq mühiti; 12. Urmiya aşıq mühiti; 13. Zəncan aşıq mühiti; 14. Xorasan aşıq mühiti; 15. Savə aşıq mühiti; 16. Qaşqay aşıq mühiti. Digər tərəfdən alim aşıq məktəbi kimi ayrı–ayrı aşıqların adlarını qeyd edir: Mirzə Bilal məktəbi, Aşıq İmran məktəbi və s. (38, s.25)

Fərqli mövqeyə Şirvan aşıq sənəti haqqında kitabların müəllifi S.Qəniyevin kitabında rast gəlinir. Alim burada S.Rzasoyun fikirləri ilə razılaşır: «Mühit - aşıq sənətinə münasibətdə tarixi, coğrafi, etnik, demoqrafik, siyasi, ictimai, iqtisadi, inzibati, linqvistik, mədəni və s. bu səviyyəli amillərin şərtləndirdiyi anlayışdır. Bu anlayışın gerçəkləşmə (ifadələnmə) kodu məkani-mənəvi, yəni fiziki – ruhanidir»… «Məktəb – aşıq sənətinə münasibətdə mədəni təcrübənin ötürülməsinin, sənəti sistem kimi gerçəkləşdirən ənənənin yaşadılma mexanizminin xüsusi halını ifadə edən anlayışdır. Onun gerçəkləşmə kodu bütün hallarda mənəvidir». S.Rzasoyun təqdim etdiyimiz fikirlərindən irəli gələrək S.Qəniyev məktəb və mühit anlamlarına bu cür izah verir: «Aşıq məktəbi – hər bir mühitə

məxsus sənət və yaradıcılıq ənənəsi, aşıq mühiti – həmin ənənənin əhatə etdiyi mədəni məkandır». (36, s.15)

Məktəb və mühit anlayışları baxımından musiqişünaslıqda folklorçu alimlərdən tamamilə fərqli fikirlər mövcuddur. İlk növbədə musiqi elmində aşıq sənəti bölgələr baxımından ayrılır və konkret olaraq məktəb və ya mühit deyə haçalanmır. Bu baxımdan Ə.Eldarovanın «Azərbaycan aşıq sənəti» kitabından nümunə göstərə bilərik: Göyçə zonası – Kəlbəcər, Naxçıvan, Borçalı; Gəncəbasar zonası – Gəncə, Şəmkir, Tovuz, Qazax; Şirvan zonası – Şamaxı, Kürdəmir, Salyan. (70, s.14)

Göründüyü kimi alim aşıq sənətinin daha çox populyar olduğu, inkişaf etdiyi əraziləri aşıq sənəti üçün səciyyəvi zonalara ayırır və nəticə etibarilə üç zonanı göstərir. Qeyd etmək lazımdır ki, bu zonalarda hal-hazırda da aşıq sənəti eyni şəkildə yaşayır və inkişaf etdirilir. Deyilən fikirlərdən aydın olur ki, folklor aləmində aşıq sənəti tarixi baxımdan mühitlərə, üslub, ifadə xüsusiyyətləri baxımından məktəblərə ayrılır. Musiqi sənətində isə bu iki faktor uzlaşır. Belə ki, aşıq musiqisi tarixi baxımından məhz bu bölgələrdə çiçəklənmiş, eləcə də öz üslub, ifadə, janr və s. xüsusiyyətlərinə görə də bu bölgələr arasında seçilmişdir. Buna görə də həmin zonaların aşıq sənəti çox vaxt aşıq məktəbi kimi də adlandırılır.

Aşıq məktəbləri ilə bağlı digər fikirlər Tariyel Məmmədovun əsərlərində də qeyd olunur: «Ənənəvi aşıq məktəbləri bir neçə baxımdan, o cümlədən etnoqrafik (diyarşünaslıq) və yerli ənənə və xüsusiyyətlər baxımlarından öyrənilməlidir. Bir sıra tanınmış aşıq məktəbləri, - Göyçə, Tovuz, Borçalı, Gəncə-Şəmkir, Qarabağ, Qaradağ, Təbriz, Urmiya, Çıldır və Dərbənd saz-söz ustaları arasında istər işlədilən havacat və onun ifa üslubunda, istər yerli danışıq və söz-dastan söyləmələrində, istərsə də saz çalğısı, oxuma texnikası, səs yüksəkliyi və səslənmə xüsusiyyətlərində, tək və ansambl (birgə) heyət-

də çıxışlarına görə bir-birindən fərqlənir». (45, s.23) Sitatdan göründüyü kimi alim aşıq məktəblərini Ə.Eldarovaya nisbətən daha geniş sayda götürür. Bu baxımdan M.Qasımlının əvvəldə qeyd etdiyimiz fikirlərində öz əksini tapmış aşıq məktəblərinin ərazi baxımdan fərqlənməsi ilə yaxınlıq hiss olunur. Qeyd etmək lazımdır ki, T.Məmmədov aşıq sənətində çox mühüm və hələ də bütünlüklə öz həllini tapmayan problemə toxunur, 2011-ci ildə nəşr olunmuş «Azərbaycan aşıq yaradıcılığı» əsərində bu məsələyə daha geniş yanaşma nümayiş etdirir: «Belə bir cəhətə diqqət yetirmək lazımdır: ənənəvi aşıq ifaçılıq məktəbləri və birliklər (sexlər) oxşar anlayışlar olsa da, onları eyniləşdirmək olmaz. Həm məktəblər, həm də sexlər eyni bir funksional mühitə, peşəkar istiqamətə aid musiqiçiləri birləşdirir». (43, s.57) Alim bu anlayışlara daha geniş izahat verərək məktəbləri ictimai statusdan məhrum olub, yaradıcılıq, ifaçılıq baxımından birliyi nümayiş etdirən qurum kimi qiymətləndirir.

Əlbəttə ki, aşıq sənəti və xüsusilə də aşıq havacatı müxtəlif aşıq məktəblərinin timsalında ətraflı şəkildə toplanılmalı, təhlil olunmalı, fərqləndirən və ümumilik təşkil edən xüsusiyyətləri aşkara çıxarılmalıdır. Bu, musiqişünaslıq elmi qarşısında duran əsas məsələlərdən biridir. Bu problemin həll olunmasının vacibliyini hələ əsrin əvvəllərində Bülbül Məmmədov öz məruzə və çıxışlarında, məqalələrində dəfələrlə vurğulamışdır. Məsələn, 1932-ci ildə o, öz məruzələrinin birində belə qeyd edir: «Xüsusilə Azərbaycan muğamları və aşıq yaradıcılığı əsaslı tədqiq olunmalıdır»; və yaxud 1934-cü ildə keçirilmiş I qurultayda qarşıya qoyulmuş məsələlərdən biri məhz belədir: «NİKMUZ-a Azərbaycan muğamları, xalq yaradıcılığı və xüsusi aşıq yaradıcılığı haqqında dərs vəsaitlərinin tərtib olunmasını həvalə etmək»; 1938-ci ildə keçirilmiş II qurultayın qarşısında duran vəzifələr:

- Azərbaycanda mövcud olan bütün aşıqların siyahısını tutmaq və onların gələcək inkişaf yollarını müəyyənləşdirmək;
- Aşıq yaradıcılığının elmi-nəzəri tədqiqi və bu sahədə işlər ərsəyə gətirmək və s.

Bu kimi fikirlərə aşıq qurultaylarının yazılı sənədlərində, eləcə də Bülbülün məruzə və məqalələrində çox rast gəlmək olar. Sitatlardan da göründüyü kimi o, aşıq sənəti və xüsusilə də aşıq musiqisi ilə bağlı bir sıra problemləri səsləndirir, hansı ki, onlardan bir çoxu hələ də öz tam həllini tapmamışdır.

Mətləbə qayıtmaq məqsədilə T.Məmmədovun adını çəkdiyi aşıq məktəbləri arasındakı fərqli xüsusiyyətlərlə bağlı fikirlərini səsləndirək: «Borçalı, Çıldır və Urmiya aşıqları ancaq təklikdə çıxışa üstünlük verdikləri halda, Tovuz, Gəncə-Şəmkir, Qaradağ sənətkarları həm təklikdə, həm cüt, həm də balabançı ilə məclis keçirirlər. Şirvan və Təbriz aşıqlarının havacatı və ifa tərzi ilə Göyçə və başqa aşıq məktəblərinin arasında köklü oxşarsızlıqlar var və s.». (45, s.23)

Musiqişünaslıqda təqdim olunan, tanınan aşıq məktəbləri haqqında yuxarıda səslənən fikirlərdən də aydın olur ki, əsas etibarilə təqdim olunan zonalar özünəməxsus repertuar tərkibinə görə, ikinci növbədə müşayiət edən dəstənin tərkibi, funksiyası, üçüncü əsas məsələ isə aşıq musiqisilə muğam musiqisinin, daha dəqiq desək, aşıq və xanəndə ifa ənənələrinin, üslub xüsusiyyətlərinin, muğam musiqisinin aşıq ifasına, musiqisinə sirayət etmə dərəcəsinə görə bir-birindən fərqlənir.

Sadaladığımız bu xüsusiyyətləri Ə.Eldarova ətraflı şəkildə təhlil edir: 1.Göyçə zonası – Bu zonanın nümayəndələri klassik musiqili-ədəbi aşıq irsinin mahir biliciləri və aşıq sənətinin çoxəsrlik ənənələrinin ehtiraslı varisidirlər. Onların ifaçılıq forması əsas etibarilə solo və deyişmələrdən (yalnız sazın müşayiəti ilə) ibarətdir. 2.Gəncəbasar zonası – Bu zonanın aşıqlarını sazdan əlavə balaban da müşayiət edir. 3.Şirvan zo-

nası – Bu zonanın nümayəndələrinin bir çoxu aşıq musiqisinin klassik ənənəvi qanun-qaydalarını pozur və oxuduqları mahnılara çox vaxt yersiz muğam ünsürləri daxil edirlər. (70, s. 23-25)

Beləliklə, musiqi aləmində aşıq məktəbləri ərazi bölgüsündə də folklorşünaslıqdan müəyyən qədər fərqlənir. Bunu M.Qasımlının təqdim etdiyi mühitlərlə Ə.Eldarovanın qeyd etdiyi zona bölgüsünü müqayisə etdikdə daha aydın görmək mümkündür. Yəni musiqişünaslıqda zonaların seçilməsi nisbətən ümumiləşmiş halda götürülmüşdür. Həmin zonaların aşıq musiqisinin xarakterik cizgiləri, bölgə xarakterli aşıq havaları, musiqi janrları, müşayiət edən dəstənin tərkibi və s. bu bölgünün aparılmasında əsas xüsusiyyətlər hesab olunur. Folklorşünaslıqda bu bölgü əsas etibarilə psixoloji-fəlsəfi, ictimai-siyasi məqamları nəzərə almaqla, sırf ərazi baxımından və s. aparılmışdır. Ola bilsin, bu baxımdan zonaların əhatə etdiyi bölgələr, rayonlar nisbətən fərqli tərkibdə təqdim olunmuşdur. Aradakı fərq isə bölgü prosesində musiqi alimlərinin aşıq sənətinin sırf musiqi tərəfini nəzərə almaqla, ədəbiyyatçıların isə poetik tərəfi əsas tutmaları ilə yaranır.

Aşıq sənətində musiqi havalarına nisbətən poetik materialın daha çox olması bu sahədə xarakter zona bölgüsünün sayının çox olmasına gətirib çıxarır. Məsələn, bir aşıq havasının poetik əsasını neçə-neçə aşıq şeirləri təşkil edə bilər. Hər aşıq müəyyən hava altında öz qoşduğu və ya bildiyi qoşmanı və s. digər aşıq şeirini oxuyursa, onun aid olduğu zonanın, mühitin əlamətləri musiqi ilə bərabər söylədiyi sözlərdə, məzmunda da özünü göstərir. Bu baxımdan musiqi nümunələrinin fərqlənmə, ifaçılıq ənənələrinin özünəməxsusluğu şeirlərə nisbətən daha ümumidir. Nəticədə aşıq musiqinin bölgələr üzrə fərqlənməsi çoxsaylı ərazilərə parçalanmır.

Bu məsələ muğam sənətində sırf musiqi anlamında öz həllini tapmışdır. Çünki muğam ifaçılığının klassik forması

dedikdə əsas etibarilə muğamın vokal-instrumental ifası nəzərdə tutulur. Fərqlənmə də bu ifanın müəyyən bölgələrdə fərqli ifaçılıq ənənələri ilə bağlı yaranır. Burada hansı poetik formaların hansı bölgələrdə necə seçilməsi və s. məsələlər tamamilə önəm daşımır. Muğam sənəti Azərbaycanda əsas etibarilə üç bölgə üzrə xarakterizə olunur: Qarabağ, Şirvan və Bakı. Bu barədə çoxsaylı elmi işlər ortaya qoyulmuş, hər zonanın muğam ifaçılıq ənənələri haqqında tədqiqatlar aparılmışdır. Bu səbəbdən muğam sənətində zona bölgüsü, ifaçılıq ənənələrinin fərqi və s. haqqında ətraflı danışmırıq. Lakin aşıq sənəti ilə fərqli məqamları qeyd etmək yerinə düşər. Muğam sənətində məktəb və mühit anlayışları aşıq sənətinə nisbətən az qabardılır. Belə ki, sadaladığımız bölgələrin muğam ifaçılıq ənənələri əsas etibarilə bu bölgələrdə təşkil olunmuş çoxsaylı musiqi məclislərinin fəaliyyəti ilə səciyyələndirilir. Bu baxımdan burada mühit və ya məktəb fərqi araşdırılmır. Muğam məktəbi dedikdə isə Qarabağda XIX əsrin II yarısında Xarrat Qulu tərəfindən təşkil olunmuş muğam məktəbi, eləcə də bu dövrün görkəmli musiqi alimi M.M.Nəvvabın hücrəsi yada düşür ki, burada sistemli şəkildə muğam sənətinin tədrisi ilə məşğul olunmuşdur. Bölgələrin muğam ifaçılıq ənənələri isə həmin ərazilərdə yaşayan xanəndələrin ifa üslublarının xarakter cizgilərinin ümumiləşdirilməsi ilə aparılmışdır. Əslində muğam sənətində məktəbdən daha çox mühit təsiri hiss olunmuşdur. Çünki musiqi məclislərində yalnız həmin bölgənin musiqiçiləri deyil, digər bölgələrdən dəvət olunmuş görkəmli sənətkarlar da iştirak etmiş, sənət təcrübələri ilə bölüşmüşlər. Lakin bununla belə Qarabağ xanəndəsinin ifasını Şirvan xanəndəsinin ifasından seçmək heç də çətin deyildir. Musiqi və xüsusilə də muğam sənətinin müasir dövrdə əsas etibarilə Bakıda inkişaf etməsinə baxmayaraq, burada təhsil alan qarabağ-

lı xanəndənin ifasını şamaxılı xanəndədən seçmək yenə də mümkündür. Bu ilk növbədə ifa üslubu ilə bağlıdır.

Həm aşıq sənətində, həm də muğam sənətində öyrədilmə prosesi ustad-şagird ənənələrilə formalaşmışdır. Xanəndə və ya aşıq olmaq istəyən kəs ilk növbədə ustad yanında şagirdliyə qəbul olunur. Öyrənmə prosesinə illər sərf olunur və yalnız öz ustadının icazəsi ilə o, müstəqil sənətə atıla bilər. Bu prinsip hər iki sənətdə eyni dərəcədə gözlənilir. Ustad və şagird arasında olan münasibətlər də hər iki sənətdə eyni dərəcədə böyük məsuliyyət və ciddiyyət, eləcə də valideyn qayğısı qədər isti münasibət və hörmət əsasında qurulur. Lakin burada da bir sıra fərqli məqamlar üzə çıxır. Aşıq sənətində ustad yanında sənəti öyrənən şagird ciddi şəkildə ustadından bu sənətin bütün sirlərini öyrənənə qədər ayrılmır, ustadı hara getsə onu müşayiət edir. Bu baxımdan muğam sənətində ustad xanəndə yanında sənət öyrənən şagirdlər nisbətən daha azaddır. Hətta istərsə müəyyən vaxtlarda fərqli xanəndələr yanında öyrənmə prosesini genişləndirə də bilər. Bu təcrübə müasir dövrdə də tələbələr arasında istifadə olunur. Məsələn, dəfələrlə öz müəllimindən başqa digər muğam ifaçılarının lent, CD yazılarından ifaçılıq təcrübəsi toplayan tələbələrimiz az deyildir. Hətta bu formada mənimsəmə prosesinin daha məhsuldar olduğunu da qeyd edirlər.

Aşıq sənətini öyrənən şagird isə öz ustadının, eləcə də böyük aşıqların poetik yaradıcılığını, saz çalmaq sənətinin sirlərini, mövcud aşıq havalarını öyrənir. Deməli yaxşı aşıq ustad aşıqların yaradıcılığından mümkün qədər çox şeir bilən, yaxşı xanəndə daha çox muğam bilən və mükəmməl ifaçılıq üslubuna yiyələnmiş sənətkar hesab olunur. Şeirlə musiqinin hər sənətdə daşıdığı önəmin fərqi nə qədər qabarıq gözə çarpsa da, hər iki sənət nümunəsinin ifasında musiqi ilə poetik əsasın vəhdəti vacibdir və buna peşəkar səviyyədə nail olmaq

yenə ifaçının ustalıq səviyyəsindən asılıdır. İfa zamanı birinə və ya digərinə üstünlük verilərkən, hər iki sənət nümunəsi yarımçıq halda təqdim olunmuş olur, nəticədə öz məqsəd və məzmununu bütünlüklə çatdıra bilmir. Deməli həm aşıq, həm də muğam sənətində söz musiqi qədər, musiqi də söz qədər əhəmiyyətlidir. Bu əsərin mükəmməl səviyyədə ifası üçün isə sənətkarın hansı komponenti necə öyrənməsi texniki hazırlıq prosesinin bir tərəfidir və sənətlərin özəl xüsusiyyəti kimi qəbul oluna bilər.

Hər iki sənətdə musiqi alətlərinin rolundan danışmamaq mümkün deyildir. Aşıq sənətində əsas etibarilə üstünlük təşkil edən musiqi alətləri saz, balaban, nağara, qoşa nağara, muğam sənətində isə tar, kamança, qaval hesab olunur.

Aşıq sənətində saz alətinin mövqeyi haqqında xüsusi qeyd etmək lazımdır. Saz alətinin yaranma tarixi ozan sənətinin özü qədər qədimlərə gedib çıxır. Müasir sazın sələfi qopuz aləti hesab olunur. Qolça Qopuz oğuz tayfalarının mövcud olduğu vaxtda ozan sənətinin yaradıcısı hesab olunan Dədə Qorqudun ifa etdiyi musiqi aləti kimi tarixə düşmüşdür. Onun quruluşunun müasir saza uyğun gəlməsi, aşıq sənətinin sələfi sayılan ozan sənətində istifadə olunması qopuzun sazın sələfi olması fikrini təsdiqləyir.

Qopuz aləti haqqında, onun necə yaranması ilə bağlı çox sayda əfsanələr də yaranmışdır. Həmin əfsanələrdə qopuzun yaradıcısının qeyri-insan məxluqların məsləhəti və göstərdiyi qaydaya əməl edərək bu aləti yaratması və buna görə də sazda ifa olunan musiqinin sehrli təsir qüvvəsinin olması təsvir olunur.

Müasir dördə saz aləti əsas etibarilə üç növdə mövcuddur: ana saz, tavar saz və cürə saz. Bunlardan tavar saz (ona qoltuq sazı da deyilir) daha çox istifadə edilir. Sazın doqquz simi olur. Simlər üç qrupa ayrılır. Alt-barmaq, zil; orta-köklə-

nən, bəm; Üst-dəm simlər. Altı kökdən istifadə olunur: Baş, Orta, Şah, Divani, Çoban bayatı, açıq. Sazın diapazonu kiçik oktavanın «do» səsindən ikinci oktavanın «sol» səsinə qədər əhatələnir. Sazın qolunda olan bütün pərdələrin özünəməxsus adı vardır: Baş pərdə, lal pərdə, Ürfani pərdə, Misri, Çuxur oba, Bayatı pərdə. Ümumiyyətlə sazın əsas pərdə sayı on iki-on dörd arası dəyişir. Ə.Eldarova ənənəvi dörd kökü qeyd edir.

Zonadan asılı olaraq aşıq dəstəsində digər instrumental musiqiçilər də iştirak edir: «Göyçə (Gəlbəcər, Naxçıvan, Borçalı) – yalnız sazın müşayiəti; Gəncə, Şamxor, Tovuz, Qazax – sazdan əlavə balaban da müşayiətçi alət kimi çıxış edir; Şamaxı, Kürdəmir, Salyan – saz, iki balaban, qoşa dümbək (qoşa-nağara – K.A.) və dəf». (70, s.24-26) Aşıq sənətindən fərqli olaraq muğam sənətində bölgəsindən, zonasından asılı olmayaraq xanəndəni müşayiət edən əsas etibarilə tar və kamança ifaçılarıdır. Digər alətlərin qoşulması isə sırf musiqiçilərin öz istəyindən asılıdır.

Sazın ifa məsuliyyəti birbaşa aşığın öz üzərinə düşür. Deməli, yaxşı aşıq olmaq üçün, həm də yaxşı saz ifaçısı olmaq tələb olunur. Musiqi aləmində aşığı sazsız təsəvvür etmək mümkün deyildir. Burada aşığın xanəndə ilə ifa məsuliyyətlərinin yerinə yetirilməsində ortaya çıxan fərqi açıq görünür. Aşıqdan fərqli olaraq xanəndəni tarzən və kamançaçı müşayiət edir. Bu, klassik muğam üçlüyünün tərkibidir. Bununla yanaşı digər musiqi alətlərinin, o cümlədən balabanın, qoşa nağaranın da müşayiət dəstəsinə qoşulması mümkündür. Hər bir halda xanəndə yalnız muğam dəstgahının vokal partiyasını ifa edir. Lakin bu o demək deyildir ki, onun müşayiətçilərin ifa etdiyi partiyadan xəbəri yoxdur. Bu vahid bir kompleksdir və muğam dəstgahının formayaradıcı prinsipidir. Mükəmməl ifa üçün xanəndə müşayiətçinin nə ifa etdiyini və ya edəcəyini, sazəndələr də xanəndənin musiqi materialını əz-

bərdən bilir. Əks halda dəstgahın hissələrinin düzgün qaydada ardıcıllaşması yarana bilməz. Yeni şöbənin istinad pərdəsini tarzən hazırlayır, ifa olunmuş şöbədən sonra hansı rəngin və ya təsnifin səslənməli olduğunu həm xanəndə, həm müşayiətçilər bilməlidirlər. Belə məqamları çox sadalamaq olar.

Bütün bunlardan başqa peşəkar xanəndə qaval çalmasını da bilməlidir. Deməli aşıq kimi o da öz ifasını musiqi alətində müşayiət edir. Qaval çalmaq qabiliyyəti xanəndəlik sənətində çox mühüm şərtlərdən biridir. İfa zamanı gözəl qaval çalmaq heç də hər xanəndəyə nəsib olmur. Lakin xanəndə muğamı qaval çalmadan da ifa edə bildiyi halda, aşıq öz ifasını sazsız təqdim edə bilməz. Qavalla sazın ifa zamanı iştirakı mahiyyət etibarilə fərqlidir. Aşıq sazsız ifa edə bilməz, xanəndə isə qavalsız da muğamı mükəmməl ifa edə bilər. Digər tərəfdən aşıq sazı mütləq özü ifa etməlidir, bir çox hallarda xanəndələri müşayiət edən dəstədə zərb alətlərinin iştirakı qavalın funksiyasını müəyyən mənada yerinə yetirmiş olur.

Müasir dövrümüzdə həm aşıq, həm də xanəndə el şənliklərindən böyük səhnələrə qədər həm vətənimizdə, həm də xarici ölkələrdə Azərbaycan xalq musiqisinin əsas təmsilçiləri funksiyasını daşıyır. Bu proses isə XX əsrin əvvəllərindən başlamışdır. Əsrin əvvəllərində təşkil olunan Şərq konsertləri bu çıxışların ilk nümunələri kimi tarixə düşmüşdür. Daha sonra Ü.Hacıbəylinin, Bülbülün və başqa görkəmli mədəniyyət xadimlərinin rəhbərliyi ilə keçirilən Aşıq qurultayları bu sənətin dövlət səviyyəsində əhəmiyyətə malik olmasına, ən əsası isə elmi əsərlərin tədqiqat obyektinə çevrilməsinə səbəb oldu.

Bu baxımdan muğam sənəti nisbətən irəlidə olmuşdur. Əvvəlki bölmədə də qeyd etdiyimiz kimi, muğam sənəti Orta əsrlərdən tədqiqat obyekti kimi ətraflı tədqiq olunmuşdur. Lakin müasir dövrümüzdə muğam sənətinə də yeni yanaşma tərzi formalaşmış, bu sənətin musiqi məclislərinin fəaliyyət gös-

tərdiyi dövrlərdə ifadə etdiyi əhəmiyyəti yenidən özünə qayıtmışdır. Müasir dövrdə muğam sənəti ilə bağlı çoxsaylı proyektlər, festivallar, müsabiqələr və s. təşkil olunmuş və olunmaqdadır. Hər iki sənətə ilk növbədə dövlət qayğısı göstərilməsi bu iki möhtəşəm musiqi salnamələrinin gələcək nəsillərə də çatdırılmasına güclü zəmin olacaqdır.

Tarix boyu həm aşıq, həm də xanəndə Azərbaycan xalq musiqisini təmsil və təbliğ etmiş, bu gün də sənətkarların qarşısında duran əsas vəzifələrdən biri məhz bu funksiyadır və bunun üçün müasir dövrümüzdə daha münbit şərait yaranmışdır.

### 1.3. Aşıq və muğam sənətində təsnifat və janr məsələləri

Azərbaycan musiqişünaslığında təsnifat məsələləri olduqca vacib yerlərdən birini tutur. Bu məsələ Üzeyir bəyin elmi yaradıcılığında əksini tapmış və bu günə qədər də musiqişünas alimlərimizin yaradıcılığında xüsusi diqqət ayrılan problemlərdən biridir. Xalq musiqisinin təsnifatı bu baxımdan daha aktualdır. Belə ki, həm «xalq musiqisi» anlayışı, həm də onun daxilində əksini tapan şifahi ənənəli professional musiqi, xalq professional musiqisi, aşıq sənəti, muğam sənəti, xanəndə-sazəndə yaradıcılığı, folklor musiqisi, ənənəvi musiqi və s. kimi anlayışlar müəyyən tarixi dövrlərdə müxtəlif mənalar kəsb etdiyinə görə təsnifat prosesində fikir ayrılıqları yaranmışdır.

Xalq musiqisinin təsnifatı ilk dəfə Üzeyir Hacıbəylinin yaradıcılığında aparılmışdır. Görkəmli alim «Azərbaycan musiqi həyatına bir nəzər» məqaləsində xalq musiqisinin müxtəlif qolları haqqında danışaraq ətraflı məlumat vermiş, xalq musiqisinin təsnifatı ilə bağlı ilk nümunəni musiqişünaslıq elminə təqdim etmişdir. Bütün sonrakı təsnifatlar Üzeyir bəyin nümunəsinə əsaslanmışdır. Bununla belə musiqişünaslıq elmində ən çox dəyişikliyə də məhz bu mövzu uğramışdır. Bu

da ilk növbədə musiqi elminin inkişafı ilə bağlı xalq musiqisinə, folklor yaradıcılığına qarşı yaranan yeni münasibət, zaman-zaman anlayışların da yeni məna kəsb etməsinə gətirib çıxarmışdır. Müəyyən anlayışlar, o cümlədən xalq musiqisi, folklor musiqisi kimi terminlər öz məzmununu dəqiqləşdirmişdir.

Bu səbəblərdən irəli gələrək musiqişünaslıq elmində də fərqli, mübahisəli fikirlər meydana gəlmişdir. Azərbaycan xalq musiqisinin daxilində muğam sənəti, aşıq sənəti və folklor musiqisi kimi sahələr mövcuddur. Bütün sahələr yaşama, yayılma və ötürülmə formasına görə şifahi ənənəyə əsaslanır. Şifahilik xalq musiqisinin ən əsas xüsusiyyətidir. Lakin folklor musiqisindən fərqli olaraq aşıq və muğam sənətində professionallıq məsələsi üzə çıxır. Professionallıq dedikdə ilk növbədə hər iki sənətin əsrlər boyu formalaşmış və qanun halına düşmüş konkret ənənələrə əsaslanması və məktəb əhəmiyyəti kəsb edən ustad-şagird ənənələri əsasında mövcud olması nəzərdə tutulur. Hər iki sənətdə bu ənənələri yaradan, öyrədən və inkişaf etdirən ustadlar vardır və sənətə yalnız ustaddan öyrənmək şərtilə yiyələnmək mümkündür. Bu sənətlərdə yalnız ustad xeyir-duası aldıqdan sonra fəaliyyət göstərmək mümkündür. İki sənətdə də müəlliflik hüququ gözlənilir.

Müəlliflik hüququ məsələsində bir az haşiyəyə çıxmaq istərdik. Muğam sənətində ifa olunan muğamların konkret müəllifi yoxdur, ifa zamanı istifadə olunan qəzəllər klassik ədəbiyyatdan götürülür. Burada hər hansı bir xanəndənin ifaçılıq üslubuna istinad olunsa belə və yaxud müəyyən xanəndənin ifasına xas zəngulələr, boğazlar digər xanəndə tərəfindən edilsə də, müəllif hüququnun pozulması deyil, təqlidçilik ön plana çıxır. Sənəti öyrənən zaman bu hal təbii və qəbul olunandır. Lakin ustad xanəndələrin ifasında təqlidçilik yolverilməzdir.

Aşıq sənətində isə məsələ bir qədər fərqlidir. Burada həm poeziya, həm musiqi birləşdiyi üçün müəlliflik haqqı

hər iki sahədə gözlənilir. Aşıqlar bu sənətə yiyələnərkən həm ustad aşıqların poetik yaradıcılığını, həm də mövcud havaları mütləq şəkildə öyrənir və ifa zamanı müəllifin adı, imzası vurğulanır. Müəyyən aşığın adı ilə bağlı məşhurlaşan hər hansı bir havanı başqa aşığın öz adından oxuması mümkün deyil. Eyni sözləri poetik mətn haqqında da söyləmək olar.

Professionallıq faktoru folklor musiqisinə aid edilmir. Çünki folklor musiqisi dedikdə nəzərdə tutulan xalq mahnıları və rəqsləri, mərasim musiqisi bu sənətlə professional şəkildə məşğul olmayan (rəqs musiqisi istisna olmaqla) insanlar tərəfindən yaradılır. Qeyd etmək lazımdır ki, müasir musiqi elmində bu məsələ də mübahisəli şəkildə qalmaqdadır. Çünki musiqidə professionallıq anlayışı müxtəlif cür şərh olunur. Müasir dövrümüzdə professional musiqiçi dedikdə musiqi savadı almış şəxs nəzərdə tutulur. Lakin musiqi savadı almamış çox istedadlı, ustad xanəndə də, aşıq sənətinin görkəmli ustadları da, xalq arasında məşhurlaşmış istedadlı instrumental ifaçılar da professional musiqiçilər hesab olunur. Onların öz sənətində professional olması üçün not savadının olması əsas şərt hesab olunmur. Və yaxud əksinə hər musiqi savadı almış musiqiçi yaradıcılıqla məşğul olmadığı halda, öz sənətində zirvələri fəth etmədiyi halda professional musiqiçi adlana bilməz. Belə nəticəyə gəlmək olar ki, ifaçılıq sənətində professional dedikdə öz sənətində ustadlıq zirvəsinə yüksəlmiş istedadlı, fərdi ifaçılıq üslubunu yaratmış musiqiçi nəzərdə tutulmalıdır. Məhz bu baxımdan folklor musiqisinin yaradıcıları professional musiqiçilər hesab olunmur. Digər tərəfdən isə folklor sənətindən fərqli olaraq aşıq və muğam sənətində məktəb ənənələri, ustad-şagird münasibətləri mövcuddur, bu faktorlar hər iki sənətin ciddi qayda-qanunlara tabe olduğunu bir daha sübut edir və onu professionallıq baxımından folklordan fərqləndirir.

Beləliklə, xalq musiqisi professionallıq baxımından iki qrupa ayrılmış olur. Professionallıq statusuna malik muğam və aşıq sənəti, qeyri-professional folklor musiqisi. Birinci qrup öz daxilində iki müxtəlif sənəti ehtiva edir. Hər iki sənət şifahilik və professionallıq xüsusiyyətinə malik olsa da, Azərbaycan musiqişünaslığında muğam sənəti şifahi ənənəli professional musiqi, aşıq sənəti isə xalq professional musiqisi kimi müəyyənləşdirilir. Bu təsnifat öz əksini R.Zöhrabovun yaradıcılığında tapmışdır. (85) Onun təsnifatı ilə T.Məmmədov da razılaşır. (46) Lakin xalq musiqisinin tanınmış tədqiqatçısı E.Babayevin əsərlərində isə «Ənənəvi musiqi» termininə üstünlük verilir. Fərqli mövqeyin yaranması ilk növbədə hər iki sənətdə professionallıq faktının olması ilə bağlıdır. Bu baxımdan E.Babayev həm muğam, həm də aşıq sənətinin şifahi ənənəli professional musiqi adlandırılmasını məntiqli hesab edir. O, R.Zöhrabovun «şifahi ənənəli professional musiqi-muğam, xalq professional musiqisi-aşıq sənəti və xalq musiqisi (folklor)» təsnifatı ilə razılaşmır: «Şifahi ənənəli musiqi irsimizin bu cür təbəqələşməsi, zənnimcə, o qədər də düzgün deyil. Aşığın heca vəznində qoşduğu şeirlərin, oxuduğu havaların xalqa daha yaxın olması, heç də onların peşəkarlığının xanəndələrdən aşağı olduğunu sübut etmir». (11, s.7)

Beləliklə, aşıq sənətinin xalq professional musiqisi adlanmasına əsas səbəb məhz onun xalqa daha yaxın olması, yaradıcılıq prosesinin isə xalqın maddi-mənəvi həyatı ilə üzvi surətdə bağlılığı olmasıdır ki, zənnimizcə bu fikir daha çox öz təsdiqini tapmışdır. Elə bu səbəbdən də aşığın yaratdığı sənət daim xalqın tələblərinə, istək və arzularına cavab vermiş, onun simasını öz yaradıcılığında bütün tərəfləri ilə ifadə etməyə müyəssər olmuşdur.

Muğam sənətində təsnifat məsələləri ilə hələ Orta əsr alimləri məşğul olmuş, müxtəlif janr təsnifatı aparılmışdır.

XX əsrin əvvəlində Ü.Hacıbəyli də öz yaradıcılığında muğam sənəti ilə bağlı müəyyən təsnifatlar aparmışdır. Daha sonra bu iş M.İsmayılov, R.Zöhrabov, T.Məmmədov və başqa alimlər tərəfindən davam etdirilmişdir. Aşıq sənətində bu məsələ həm musiqişünas alimlər, həm də folklorşünas alimlər tərəfindən araşdırılmış, əsaslı nəticələr əldə edilmişdir.

Bu əsərlərdən də məlum olduğu kimi muğam sənətində dəstgah, rəng, təsnif, zərbi-muğam, şöbə, guşə, və s. kimi terminlər (R.Zöhrabov «Muğam» kitabında hər bir janr haqqında ətraflı məlumat verilmişdir) müəyyən edilmişdir. Aşıq sənətində janr məsələləri onun poetik tərəfi ilə sıx bağlı olduğu üçün bu məsələyə daha geniş yanaşılmış, müxtəlif aspektlərdən işıqlandırılmışdır. Geniş anlamda aşıq musiqisi aşıq havaları, aşıq mahnıları, saz havaları, aşıq rəqsləri kimi janr-terminlərlə ifadə edilir. Bu barədə İ.Köçərlinin «Aşıq sənəti: musiqili-poetik janrlar» (30) əsərində ətraflı məlumat verilmişdir. Alim, Ə.Eldarovanın təsnifatına və M.İsmayılovun terminoloji lüğətinə əsaslanaraq aşıq havalarını melodik tipinə görə bəhrsiz, bəhrli, qovuşuq bəhrli olaraq üç növə bölündüyünü qeyd edir. Eyni zamanda, aşıq mahnılarını (Şirvan aşıq mühiti) və aşıq rəqs havalarını, eləcə də sırf instrumental aşıq havalarını ayrı-ayrı bəndlər vasitəsilə bir-birindən fərqləndirir. Aşıq mahnısı anlayışına X.Əliyevanın «Şirvan aşıq havalarının məqam və melodiya xüsusiyyətləri» adlı dissertasiyasında ayrıca bölüm həsr olunmuşdur: «Mahnı yaradıcılığı və mahnı ifaçılığı Şirvan aşıq mühitinin özünəməxsus, qədim sənətkarlıq ənənələrindən biridir. Peşəkar ustad aşıqların yaratdıqları müxtəlif mövzulu mahnılar aşıqların repertuarına daxil edilmiş, ənənəvi və müasir mahnı repertuarında özünə daimi yer qazanmışdır. Hətta qüdrətli ustad aşıqların mahnıları tədricən mühitin ənənəvi havasına çevrilmiş, ifaçılıqda ənənəvi hava kimi yaşamışdır. Araşdırmalar göstərir ki, bəzən Şirvan

aşıq mahnıları xanəndə və müğənnilərin repertuarında da ifa olunur». (76, s.16)

Aşıq havalarından başqa, aşıq mahnıları da müasir ifaçılıqda geniş yer tutur. Bu mahnılar xanəndə repertuarına, eləcə də müasir estrada müğənnilərinin repertuarına yol tapmışdır.

Aşıq mahnılarının müxtəlif repertuarlara yol alması bu sənətin təbliğində, müasirləşməsində xüsusi rol oynayır. Lakin aşıq mahnıları digər musiqiçilər tərəfindən ifa edilərkən bir sıra hallarda onun orijinallığı qorunmur və musiqinin özünəməxsus ifa xüsusiyyətləri kobud şəkildə pozulur. Əlbəttə bu fikirlər xanəndə ifasına aid deyildir. Xanəndə ifasında aşıq mahnıları da tədqiqata cəlb etdiyimiz musiqi nümunələri kimi bir sıra dəyişikliklərə uğrayır. Burada xanəndənin ifa üslubu mahnının melodiyasının, ritminin, tempinin, xarakterinin dəyişməsinə və yeni obraz almasına səbəb olur. Qeyd etmək lazımdır ki, digər aşıq havalarına nisbətən, aşıq mahnıları xanəndə ifasında daha sərbəst formada təfsir olunur. Bu da mahnı janrının xanəndə yaradıcılığında da eyni yüklü mahiyyət daşımasından irəli gəlir. Çünki ustad xanəndələrimizin yaratdığı mahnılar xalq mahnılarının tərkibini əsrlər boyu zənginləşdirmiş, xalq tərəfindən sevilərək xalqlaşmışdır. Bu gün müəllifi bəlli olduğu halda, xalq mahnısı kimi tanınan çoxlu sayda aşıq və xanəndə mahnıları vardır. Bu sahədə musiqi materialının genişliyi və mövzunun ayrıca tədqiqat sahəsi olması səbəbi ilə aşıq mahnılarını müqayisəli təhlilə cəlb etməmişik.

Dar anlamda aşıq sənətində poetik janrlarla musiqi janrlarının təmasından söz açmamaq mümkün deyil. Bu araşdırmalar aşıq sənətinin görkəmli tədqiqatçısı Ə.Eldarovanın «Azərbaycan aşıq sənəti» (70) əsərində aparılmışdır. Burada poetik janrla bağlı musiqi havaları, məkanla bağlı havalar, konkret aşıq adları ilə bağlı havalar, xalq qəhrəmanları ilə bağlı yaranmış havalar, xalq adət-ənənələri ilə bağlı yaranmış

havalar və s., eləcə də nəsr və musiqi janrlarının birləşdiyi dastan haqqında məlumat verilir. Bu nümunələri muğam sənətində konkret adlarla bağlı yaranmış şöbələrə, konkret ifaçılar tərəfindən yaranmış təsniflərə, ränglərə uyğunlaşdırmaq olar. Aşıq havaları ilə bağlı təsnifatı isə muğam sənətində mövcud olan janr təsnifatı ilə əlaqələndirmək mümkün deyil. Aşıq sənətində reçitativ-deklamasiyalı havalar, mahnıvari havalar, rəqs xarakterli havalar mövcuddur. Bu məsələyə toxunmaqda əsas məqsədimiz irəlidə təhlil edəcəyimiz musiqi nümunələrinin janr dəyişikliyinə uğraması səbəbindən təsnifatda müxtəlif yer alması ilə bağlıdır. Belə ki, məsələn, aşıq havası adlanan «Arazbarı», «Ovşarı», «Heydəri», muğam sənətində zərbi-muğam janrı kimi təqdim olunur. Şikəstələr aşıq yaradıcılığında şikəstə janrı kimi, muğam sənətində zərbi-muğam janrına aid edilir. «Güllü qafiyə», «Döymə Kərəmi» havaları isə xanəndə repertuarında öz adı ilə müstəqil şəkildə ifa olunaraq, hansısa bir janr çərçivəsində, sırasında təqdim olunmur. Xarakter, musiqi quruluşu baxımından bu havalar da aşıq sənətindən xanəndə sənətinə keçən zərbi-muğamlarla yaxındır. «Çoban bayatı» aşıq havası muğam sənətində həm vokal-instrumental, həm də instrumental muğam kimi mövcuddur.

Deyilənlərə əlavə olaraq qeyd etmək istərdik ki, təhlilə cəlb olunan musiqi nümunələrinə nəzər saldıqda görürük ki, əsas etibarilə aşıq havaları xanəndə repertuarına keçmişdir. Xanəndə sənətindən aşıq repertuarına keçən hər hansı bir muğam, zərbi-muğam və ya təsnif, rəng və s. musiqi nümunəsi müşahidə olunmur. Lakin aşıqla xanəndə-sazəndə sənətinin qarşılıqlı münasibəti sadəcə ikinciyə təsir etməmişdir. Əgər aşıq havaları xanəndə repertuarına yol tapmışdırsa, muğam ifaçılığının əsas xüsusiyyətləri də aşıq sənətinə öz təsirini göstərmişdir. Bu təsir aşıq havalarının önündə ifa olunan muğam parçalarında, vokal ifada xanəndə boğazlarının istifadə olun-

ması, zəngulələrin zənginləşdirilməsi ilə ifadə olunmuşdur. Qarşılıqlı olaraq aşıq havalarının ifası zamanı xanəndələr də aşıq ifa üslubuna istinad etmiş, aşıqlara xas boğazlarla öz ifalarını daha da zənginləşdirmişlər. Deyilənlərin parlaq ifadəsi bir sıra musiqi nümunələrində öz əksini tapmışdır.

Qarşılıqlı təsir prosesi Azərbaycanın bütün bölgələrində eyni getməmişdir. Bu baxımdan Şirvan zonasının şifahi ənənəli musiqisi digər zonalardan fərqlənir. Belə ki, burada aşıqlarla xanəndə və sazəndələrin praktik sənət əlaqələri daha güclü inkişaf etmiş və bu da onların ifaçılıq üslubunda, repertuarında, instrumental musiqisində ifadə olunmuşdur. Şirvan zonasının yetirməsi olan xanəndələrin repertuarında aşıq havaları çoxluq təşkil etdiyi kimi, aşıqlar da xanəndə ifa üslubunun xüsusiyyətlərindən olduqca çox istifadə edirlər. Maraqıdır ki, həm aşıq, həm də muğam sənətinin ən çox inkişaf etdiyi Qarabağ bölgəsində XIX əsrin ortalarından aşıqlarla xanəndələr eyni səhnəni bölüşsələr də, yuxarıdakı fikirləri onlar haqqında söyləmək olmur. Müasir dövrümüzdə də bu təsir əsas etibarilə Şirvan zonasının yetirmələrində hiss olunur. Təəssüf ki, Qarabağ zonasının aşıq sənəti uzun illərdir passiv vəziyyətdədir. XX əsrdən etibarən bu bölgədə muğam sənətinin üstünlük təşkil etməsi ilə aşıq sənətinin sıxışdırılması, həm də Qarabağ, ətraf rayon və kəndlərin iyirmi ildən çox (1988-2014), yəni bu günə qədər  işğal altında olması zatən kölgədə qalmış bu sənətin bir az da passivləşməsinə səbəb olmuşdur. Həmçinin əvvəlki fəsildə də qeyd etdiyimiz kimi, muğam sənətinin XX əsrin əvvəllərindən etibarən professional tədrisə cəlb olunması da bu prosesə öz təsirini göstərmişdir.

Aşıq və muğam sənətində hər iki repertuara daxil olmuş musiqi janrları əsas etibarilə qovuşuq bəhrli janr qrupuna aid olan nümunələrdir. Üzeyir Hacıbəyli Azərbaycan xalq musiqisinin metro-ritmik problemlərini araşdırarkən mövcud janr-

ları əsas etibarilə bəhrli və bəhrsiz qruplara ayırmış və ayrıca olaraq daxilində iki növün də mövcud olduğu musiqi janrlarını göstərmişdir ki, musiqi elmində bu janrlar qarışıq bəhrli janrlar kimi tanınmışdır.

«Oxunan və çalınan şeylər şəkil cəhətincə ümumiyyətlə iki növdür: bəhrli havalar və bəhrsizlər. Bunlardan bəhrlilərin həm havası və həm də şəkli müəyyən olub, oxunan və çalınan zamanda zərb vurmağa ehtiyacı vardır; yəni onların çalğısında zərb alətləri dəxi iştirak edir. Bəhrsizlərin çalğısında isə zərb aləti vurula bilməz. Belələrinə, yəni bəhrsizlərə Azərbaycanda, İranda dəxi dəstgah deyirlər». (80, s.186) Burada dəstgah dedikdə təbii ki, muğam dəstgahının şöbə və guşələri nəzərdə tutulur. Çünki dəstgahın tərkibində ifa olunan rənglər və təsniflər təbii ki, bəhrli qrupa aid musiqi janrlarıdır. Bu barədə irəlidə geniş məlumat verilir. Lakin şikəstələrdən və zərbli muğamlardan yazarkən Üzeyir bəy onları bəhrsiz adlandırır, eyni zamanda instrumental parçaların bəhrli olduğunu qeyd edir. Bu janrların daxilində həm bəhrli, həm də bəhrsiz musiqinin səslənməsi ortaya çıxır ki, buna da M.İsmayılov aydınlıq gətirmişdir: «Musiqimizin xalq arasında «ritmik muğam» və yaxud «zərbi-muğam» adlanan bu nümunələri üzərində apardığımız nəzəri müşahidələr göstərir ki, «Şikəstə», «Heyratı», «Arazbarı» və s. musiqi növlərinin hər birində həm bəhrli, həm də bəhrsiz musiqinin xüsusiyyəti vardır, yəni bunlar elə musiqi nümunələridir ki, onların metro-ritmik əsasını həm sərbəst dəyişilən vəzn, həm də qeyri-sərbəst dəyişilməyən ciddi bir vəzn təşkil edir». (21, s.83) Müəllif irəlidə bu tip musiqi janrlarını qarışıq bəhrli janr qrupu adlandıracağını qeyd edir. Beləliklə də əsər işıq üzü gördükdən sonra musiqişünaslıq elminə qarışıq bəhrli janr qrupu terminini daxil edilmişdir. M.İsmayılov bu janr qrupuna əsas etibarilə zərbi-muğamları və aşıq sənətində, eləcə də muğam sənətində özünə

yer tapan bir sıra musiqi nümunələrini aid etmişdir ki, bu musiqi nümunələrində də həm sərbəst və qeyri-sərbəst vəznlər birləşir. Belə nümunələr əsas etibarilə «Güllü qafiyə», «Kərəmi», «Qara qafiyə», şikəstələrdir ki, onlara həm aşıq, həm də xanəndə repertuarında rast gəlinir.

Hər üç tipə aid musiqi janrlarına həm aşıq, həm də muğam sənətində rast gəlmək mümkündür. Bəhrli qrupa aid olan musiqi nümunələrinə bir sıra aşıq havaları, eləcə də rənglər, diringilər, təsniflər bu qrupa aid olan musiqi janrlarıdır.

Ü.Hacıbəylinin bəhrsiz adlandırdığı qrupa yalnız muğam dəstgahının şöbə və guşələri aiddir ki, bu tip ifa olunan musiqi nümunəsinə aşıq sənətində rast gəlmək qeyri-mümkündür. Əgər vokal ifada sərbəstlik, bəhrsizlik müşahidə edilərsə də belə, instrumental müşayiət mütləq halda dəqiq ritmi göstərəcəkdir. Hansı ki, buradan da qarışıq bəhrli janr qrupu yaranır. Bu qrupa aid olan musiqi nümunələri təqdim olunan elmi tədqiqat işinin əsas obyekti kimi çıxış edir. Çünki iki sənət arasında müştərək mövcud olan musiqi nümunələri məhz bu qrupa aiddir. O cümlədən zərbi-muğamlar, «Güllü qafiyə», «Döymə Kərəmi», «Çoban bayatı» və s. misal ola bilər.

Aşıq musiqisində bir sıra havalar vardır ki, onlar xanəndələr tərəfindən də ifa olunur. Bu havalar «Güllü qafiyə», «Kərəmi», «Döymə Kərəmi», «Çoban bayatı», «Arazbarı», «Heydəri», «Ovşarı», «Kəsmə şikəstə», «Qarabağ şikəstəsi», «Şirvan şikəstəsi», havalarıdır. Bu havalar xanəndə repertuarında müxtəlif janr qrupunda cəmləşmişdir. Məsələn, «Arazbarı», «Heydəri», «Ovşarı», «Qarabağ şikəstəsi», «Kəsmə şikəstə» zərbi-muğam adı altında, «Çoban bayatı» instrumental muğam kimi (nadir hallarda vokal-instrumental şəkildə də ifa edilir), «Güllü qafiyə», «Kərəmi», «Döymə Kərəmi» havaları isə zərbi-muğam tipli musiqi nümunələri kimi ifa olunur. Sonuncuların zərbi-muğam tipli musiqi nümunəsi kimi adlandır-

mağımıza səbəb bu havaların da («Arazbarı» istisna olmaqla) qarışıq bəhrli janr qrupuna aid olması ilə əlaqədardır. Bu fikri yuxarıda adlarını çəkdiyimiz zərbi-muğamlara da aid etmək olar. Xanəndə sənətində «Səmai-şəms», «Mənsuriyyə» və «Heyratı» zərbi-muğamları da bu havalar kimi qarışıq bəhrli janr qrupuna aiddir. Belə yaxınlıq bu tip aşıq havalarının xanəndə repertuarında rahatlıqla yer almasına gətirib çıxarmışdır. Bu nəticəni bir qədər genişləndirsək, zərbi-muğamların yaranmasını da həmin aşıq havalarının təsiri kimi qiymətləndirmək olar. Bu barədə İ.Köçərli də qeyd edir: «Zərbi-muğamları saz havaları ilə yaxınlaşdıran cəhətlər vardır. Belə ki, aşıq musiqisinə dərindən nəzər salsaq, burada özünəməxsus formaya, ifa tərzinə və melodik quruluşa malik nümunələr ilə rastlaşırıq. Bu musiqi formaları qarışıq bəhrli musiqi nümunələrinə aid olaraq vokal cəhətdən reçitativ-deklamasiya xarakterli, instrumental baxımdan isə dəqiq ölçülü melodik havaya malikdirlər. Vokal hissə oxunan zaman ifaçı-aşığın vurğularla ölçünü saxlaması, eyni zamanda, vokal və instrumental hissələrin növbələşməsi xüsusiyyəti də özünü göstərir. «Dilqəmi», «Yanıq Kərəmi» və bir çoxları kimi məşhur saz havaları buna misal ola bilər. Bizim fikrimizcə, həmin formalar və ifaçılıq xüsusiyyətləri hal-hazırda təşəkkül tapan zərbi-muğamın kompozisiya quruluşunun yaranması və formalaşmasına öz təsirini göstərməmiş deyildir». (31, s.13)

Şikəstə janrının da bu cəhətlərə (qarışıq bəhrli janr qrupuna aid olması) malik olması onun xanəndə yaradıcılığında məhz zərbi-muğam adı altında yer almasına səbəb olmuşdur. Şikəstələr və bu tip aşıq havaları tədricən xanəndə repertuarına yol taparaq zərbi-muğam janrının formalaşmasına zəmin yaratmışdır. İ.Köçərli zərbi-muğamlara həsr etdiyi xüsusi bölmədə onların ilk yaradıcısının Mirzə Sadıq Əsəd oğlu olması faktını üzə çıxarmışdır. (31, s.10) Bildiyimiz kimi, bu məşhur

xalq sənətkarı da XIX əsrdə yaşamışdır. Deməli hələ aşıq sənətindən keçmiş zərbi-muğamlardan öncə muğam dəstgahlarının zil şöbəsi kimi mövcud olan «Mənsuriyyə», «Səmayişəms» kimi şöbələr Sadıqcanın repertuarında müstəqil şəkildə səslənmiş və tədricən zərbi-muğam kimi təşəkkül tapmağa başlamışdır. Eyni zamanda məhz həmin dövrdə aşıq və xanəndə arasında praktik sənət əlaqələrinin yaranması, eyni səhnəni bölüşmələr baş vermişdir. Bununla da xanəndələr qarışıq-bəhrli janr qrupunun xüsusiyyətlərini özündə əks etdirən digər aşıq havaları ilə müstəqil ifa olunan zərbi-muğamlar arasında yaxınlığı duyaraq onları öz repertuarına gətirmiş, muğam ifaçılıq ənənələrinin üslub xüsusiyyətləri ilə zənginləşdirərək özününküləşdirmişlər. «Qarabağ şikəstəsi», «Kəsmə şikəstə» kimi musiqi nümunələri dediklərimizin ən bariz nümunəsidir. Çünki müasir dövrümüzdə bu iki sənət incisi yalnız xanəndə sənətində mövcudluğunu davam etdirir. «...zərbi-muğamlar xalq musiqi yaradıcılığı və aşıq musiqisində mövcud olan bəzi musiqi formalarının səciyyəvi xüsusiyyətlərinin təsiri nəticəsində tarixin müəyyən mərhələlərində inkişaf yolu keçərək tədricən xalq mahnı və rəqs yaradıcılığı, muğam incəsənətinin təsiri nəticəsində dolğunlaşaraq xanəndə ifaçılıq sənətində formalaşmağa başlamış və öz klassik təcəssümünü xalq üçlüyü ifasında tapmışdır. Zərbi-muğamlar üçlüyün ifasında elə bir tam, təkmilləşmiş forma, kompozisiya quruluşu əldə etmişdir ki, öz növbəsində «əks təsirə» malik olaraq bəzi aşıq havalarını özünə tabe etmiş və yeni, özünəməxsus formada təqdim etmişdir». (31, s.14)

Bütün mülahizələrin sonu olaraq belə nəticə çıxarmaq olar ki, zərbi-muğamlar janr və ifaçılıq üslubuna yaxın olan aşıq havalarının təsiri altında öz sayını və ifa imkanlarını genişləndirərək xanəndə repertuarında əbədi və önəmli yerlərdən birini tutmuşdur. «Arazbarı», «Kərəmi», «Ovşarı», «Gül-

lü qafiyə» və s. bu kimi aşıq havaları əvvəldən muğam sənətində mövcud olan «Mənsuriyyə», «Heyratı», «Səmayi-şəms» kimi zərbi-muğamların müstəqilləşərək xüsusi janr əhəmiyyəti kəsb etməsinə səbəb olmuşdur. Eləcə də bu tip aşıq havaları xanəndə repertuarına daxil olaraq bu janrın öz kökünü daha da dərinləşdirməsinə səbəb olmuşdur.

«Çoban bayatı» aşıq havası xalq arasnıda geniş yayılmış və populyar musiqi nümunəsidir. Onun bir sıra musiqi alətlərində instrumental variantları mövcuddur. «Çoban bayatı» instrumental muğamı isə aşıq havasının muğam improvizasiya üslubunda ifa variantıdır. «Çoban bayatı»nın bu tərz ifası ilk dəfə ustad tarzən Qurban Pirimovun ifasında populyarlıq qazanmışdır. Lakin bununla belə xanəndələr də «Çoban bayatı» muğamını ifa edirlər. «Çoban bayatı»nın milli nəfəs alətlərində, o cümlədən tütəkdə, balabanda, neydə ifaları da eyni dərəcədə məşhurdur.

Bələliklə həm aşıq, həm xanəndə repertuarında adları çəkilən bu musiqi nümunələrini bir neçə qrupa ayırmaq olar: 1) həm aşıq, həm xanəndə repertuarında yer almış musiqi nümunələri; 2) aşıqdan xanəndə repertuarına keçmiş və hal-hazırda yalnız xanəndələr tərəfindən ifa edilən musiqi nümunələri; 3) hər iki repertuarda mövcud olan, adları eyni, musiqi məzmunları isə müxtəlif musiqi nümunələri. Birinci qrupa «Heydəri», «Arazbarı», «Kərəmi», «Döymə Kərəmi», «Güllü qafiyə», «Şirvan şikəstəsi» «Çoban bayatı» aşıq havalarını aid etmək olar. İkinci qrupa «Qarabağ şikəstəsi», «Kəsmə şikəstə»ni, üçüncü qrupa isə «Ovşarı» aiddir.

# II FƏSİL
# AŞIQ VƏ MUĞAM SƏNƏTİNDƏ MUSİQİ DİLİNİN PROBLEMLƏRİ

## 2. 1. Xanəndə ifaçılığında aşıq mənşəli zərbi-muğamlar

Aşıq və muğam sənətləri arasında əlaqə və qarşılıqlı münasibətləri aşkara çıxarmaq üçün apardığımız təhlil və tədqiqatlar deməyə əsas verir ki, bu münasibətlərdə mövcud olan əlaqə və təsirlər iki qismə ayrılır: hər iki sənətin bir-birindən əxz etdiyi janrlar arasında yaranan ümumi cəhətlər və ifaçılıq üslublarının bir-birinə təsiri nəticəsində yaranan xüsusiyyətlər.

Tarix boyunca iki sənət arasında məntiqi, fəlsəfi-psixoloji, vahid təfəkkür və s. kimi faktorlar, eləcə də yaradıcılıq prosesində həyata keçirilən funksiyalar arasındakı fərqli, ümumi və oxşar cəhətlər mövcuddur. Yəni həm aşıq sənəti, həm də muğam sənəti eyni bir xalqın yaratdığı musiqi sənəti olduğuna görə bu sənətlər arasında vahid təfəkkür qaynağından doğan məntiqi əlaqələrin mövcudluğu danılmazdır. Xalqın musiqiçilərə olan hörmətli münasibəti, musiqinin magik, sehrli qüvvəsi, musiqi alətləri və onlarda ifa olunan musiqilərin insanlara müxtəlif təsirləri (sehrli, qeyri-adi, saflaşdıran, müalicəvi və s.) vahid təfəkkür qaynağının əsas xüsusiyyətləridir. Buraya həmçinin musiqi sənətkarlarının xalqın həyatında oynadığı rolu da daxil etmək lazımdır. Hər iki sənətin daşıyıcıları vahid xalqın musiqi mədəniyyətinin əsasını qoymuş, inkişaf etdirmiş və bu mədəniyyəti təmsil etmişdir. «…Gəncə, Qarabağ və Şamaxı aşıqları çox gözəl və səsli xanəndələrlə həməsr olmuş və məşhur aşıqlar xanəndəliyin zəngulə kimi bəzəklərini aşıqlığa aşılamışlar. Xanəndələrsə aşıq sənətinin ən yaxşı tərəfləri hesabına muğamları genişləndirmiş və aşıq xalları, aşıq guşələri hesabına yeni boyalar və yeni məlahətlər tapmışlar. Bu

təbii artırmalar vaxtın tələbinə uyğun olmuş, xanəndəliyə yeni təravət gətirmiş və xalq muğamatını yeni guşələrlə bəzəmişdir. Xalqın sevimlisi olan bu məşhur xanəndələr bu artırmalara çox həssaslıqla yanaşmışlar. Şüurlu musiqi təfəkkürü kimi bir xalq musiqi məktəbi düzəltmişlər..». (15, s.23)

Aşıq və xanəndə sənəti arasında olan əlaqə və münasibətlərə hər iki sənətkarın repertuarında yer alan musiqi janrları kontekstində, eləcə də bu musiqi nümunələrinin ifası zamanı iki xalq musiqi ifaçısının bir-birindən əxz etdiyi ifaçılıq-üslub xüsusiyyətləri baxımından aydınlıq gətirmək istərdik.

Hər iki sənətin musiqisində vahid lad sistemi mövcuddur. Bülbül Məmmədovun da qeyd etdiyi kimi vahid lad sistemi, vahid intonasiya mənbəyi, ümumilik təşkil edən ritmik xüsusiyyətlər və s. bütövlükdə vahid təfəkkür mənbəyinin nəticəsidir. Hər iki musiqini eyni bir xalqın nümayəndəsi yaradır. Bəstəkar yaradıcılığında bu xüsusiyyət qabarıq büruzə verir. Məsələn, hər hansı bir bəstəkarın müxtəlif janrda, formada, həcmdə və s. yazılmış əsərlərini dinlədikdə ümumi üslub xüsusiyyətləri aşkar nəzərə çarpır ki, bu da bəstəkarın musiqi dilinin özünəməxsusluğunu səciyyələndirir. Xalq musiqisində də bu cür hallar mövcud olmaya bilməzdi. Çünki xalq sənətkarları da bəstəkarlar kimi yaradıcılıq prosesində eyni xəzinədən - etnik yaddaşdan, milli musiqi təfəkküründən qidalanaraq yaradır.

Ayrı-ayrı sənətkarların yaratdığı bütün musiqi janrlarının xalq musiqisinə əsaslandığı fikri də məhz buradan yaranır. Burada Azərbaycan xalqına məxsus musiqi dilinin üslub xüsusiyyətləri sənətkarın şəxsi istedadı, fantaziyası, musiqi duyumu ilə birləşir. Aşıq və xanəndə arasında olan ümumi-məntiqi yaradıcı əlaqələr də məhz bu baxımdan reallaşır.

Aşıq və muğam sənətində xüsusi xarakterik cizgilər mövcuddur ki, iki sənət arasında əlaqə, oxşarlıq və fərqli məqamları

səciyyələndirir. Bu cizgilər və onlar arasında fərqli və ümumi cəhətlər janr rəngarəngliyində və ifa üslubunda üzə çıxır.

Azərbaycan muğam sənətində geniş təşəkkül tapmış zərbi-muğamlar içərisində **"Arazbarı"** zərbi-muğamı özünəməxsus yer tutur. Bu muğamı digərlərindən fərqləndirən ümdə cəhəti onun vokal və instrumental partiyalarının bəhrli olmasıdır ki, bu da musiqişünaslıq elmində zərbi-muğamlara verilən xarakteristika ilə uyğun gəlmir. Ü.Hacıbəylinin bəhrli və bəhrsiz janr qrupları ilə bağlı təsnifatı öz yaradıcılığında təkmilləşdirən musiqişünas alim M.İsmayılov şikəstələr və zərbi-muğamları qarışıq bəhrli janrlar qrupuna şamil etmişdir: "Musiqimizin xalq arasında "ritmik muğam" və yaxud "zərbi-muğam" adlanan bu nümunələri üzərində apardığımız nəzəri müşahidələr göstərir ki, "Şikəstə", "Heyratı", "Arazbarı" və s. musiqi növlərinin hər birində həm bəhrli, həm də bəhrsiz musiqinin xüsusiyyəti vardır, yəni bunlar elə musiqi nümunələridir ki, onların metro-ritmik əsasını həm sərbəst dəyişilən vəzn, həm də qeyri-sərbəst dəyişilməyən ciddi bir vəzn təşkil edir". (21, s.83) İrəlidə M.İsmayılov "Arazbarı" adının qarşısında "istisna" sözünü qeyd etsə də, bu istisnanın səbəblərini göstərməmişdir.

«Arazbarı» aşıq sənətində hava, muğam sənətində isə zərbi-muğam kimi tanınır. Dahi bəstəkarımız Üzeyir Hacıbəyli «Arazbarı» zərbi-muğamını simfonik şəkildə ("Leyli və Məcnun" operası) təqdim etməklə onun xalq tərəfindən bir daha və yenidən sevilməsini təmin etmişdir. Cəsarətlə qeyd etmək olar ki, Üzeyir bəyin bu qiymətli sənət nümunəsi daha sonralar simfonik muğamların yaranmasında əsaslı rol oynamışdır. Çünki Üzeyir bəyin əsəri musiqi etibarilə xanəndə yaradıcılığında səslənən «Arazbarı» zərbi-muğamı ilə eynidir, nəticə etibarilə bu əsər simfonik muğamın ilk nümunəsi də hesab oluna bilər. "Muğamın simfonizmləşməsi "Leyli və

Məcnun” operasının beşinci pərdəsinin son şəklindəki musiqi müqəddiməsində Azərbaycanda geniş yayılmış zərbi-muğamlardan birindən, “Arazbarı”dan istifadə olunmuşdur. Bu əsərin bədii-estetik dəyəri o qədər yüksək olmuşdur ki, artıq operadan kənar konsert salonlarında simfonik orkestrin ifası ilə səsləndi və bu günə kimi səslənməkdədir. “Arazbarı” Azərbaycan simfonik musiqisinin və simfonik muğamların ilk nümunəsi kimi qəbul oluna bilər”. (50, s. 40)

“Arazbarı” aşıq havası ilə “Arazbarı” zərbi-muğamı arasında bir sıra fərqlər mövcuddur. Bu fərqlər musiqi nümunəsinin melodiya, məqam, ritmika və s. baxımından təhlilində, eləcə də aşıq və xanəndənin ifalarında, instrumental partiyalarda özünü göstərir.

Həm aşıq, həm də muğam musiqisi Azərbaycan xalq musiqisinin əsasını təşkil edən ladlara əsaslanır. Lakin musiqi nümunələrində ladın ifadə və istifadə formaları özünü hər iki sənətdə fərqli şəkildə göstərir. Belə ki, “Arazbarı” zərbi-muğamı “Şur” muğam ailəsinə mənsub olduğu dəfələrlə qeyd olunmuşdur. Bu fakt həm zərbi-muğamın musiqi materialına nəzər saldıqda, həm Üzeyir bəyin əsərinin lad əsası olaraq təsdiq olunur. Lakin aşıq “Arazbarı”sının melodiyasını nəzəri cəhətdən təhlil etdikdə segah ladının üstünlük təşkil etdiyini görürük. Bu məsələyə aydınlıq gətirən İ.Köçərli şikəstə janrı ilə bağlı elmi əsərində qeyd edir: “Müasir “Arazbarı” zərbi-muğamının instrumental musiqisində daimi bir lad dəyişikliyi özünü göstərir. Segah ladı ilə başlayan melodiya son anda şur ladına modulyasiya edir. İnstrumental partiyada segah ladı üstünlük təşkil etsə də şura keçid və modulyasiya edilməsi də olduqca qabarıqdır. Bizim fikrimizcə, instrumental refrenin şura modulyasiya etməsi, vokal melodiyanın da şurla bitməsi “Arazbarı”nın lad əsasının şur olması fikrini yaratmışdır”. (31, s. 104)

“Arazbarı” zərbi-muğamının və “Arazbarı” aşıq havasının melodik materialının təhlili göstərir ki, zərbi-muğamın instrumental partiyasının ilk cümləsi segah ladına, ikinci cavab cümlə isə şur ladına əsaslanır. Aşıq havasının həm instrumental, həm də vokal partiyası segah ladına əsaslanır. İnstrumental partiyada zərbi-muğamda rastladığımız şura modulyasiya edən ikinci cümləyə rast gəlmirik. Beləliklə, aşıq havasında yalnız birinci cümlənin musiqisi leytmotiv kimi əvvəldən axıra qədər dəyişmir.

*Nümunə 1*

Not yazısı : R.Zöhrabov



*Nümunə 2*

Not yazısı : T.Məmmədov



Vokal partiya zərbi-muğamda əvvəldən axıra qədər segaha əsaslanaraq davam edir, yalnız son tamamlama xanələri (2 xanə) bir cox aşıq havalarında olduğu kimi sur ladında kadans edir.

*Nümunə 3*

Not yazısı : T.Məmmədov



Aşıq “Arazbarı”sında da vokal partiya eyni qaydada əvvəldən axıra qədər segah ladına əsaslanır, yalnız son kadans şura əsaslanır. Aşıq havalarının əvvəldən hansı lada əsaslanmasından asılı olmayaraq, sonda şur ladına kadans etmələri faktı məlumdur. Bunun səbəblərini isə əsas etibarilə saz alətinin pərdə düzülüşünün öz daxilində şur ladını əmələ gətirməsi ilə izah edirlər. Hətta bu fakta əsaslanaraq Şur muğamının daha qədim olması kimi fikirlər də mövcuddur. Aşıq “Arazbarı”sının musiqi materialı Şur muğamının şöbəsi Sarəncə əsaslanır. Sarənc şöbəsində isə Segah intonasiyaları üstünlük təşkil etdiyinə görə bu nümunədə segah ladının özünü göstərməsi təbii hal alır.

Kadansın şur ladına əsaslanması bir sıra aşıq havalarına xas əlamətdir. Hər iki variantda bu proses vokal ifaçı tərəfindən həyata keçirilir. İnstrumental partiyada isə fərqlər özünü göstərir. Belə ki, zərbi-muğamda əvvəldə qeyd etdiyimiz həmin, şur ladına istinad edən cavab cümləsi aşıq “Arazbarı”sında rast gəlinmir. Aşıq havasında başqa fərqlər də özünü göstərir.

Əsas fərq vokal partiyada hiss olunur. Aşıq havasında vokal partiya sərbəst vəzndə olduğu halda, zərbi-muğamda vokal partiyada 3/4 ölçüyə tam tabe olur və dəqiq vəzndə, instrumental partiya ilə eyni abu-havada səslənir.

Aşıq havasından fərqli olaraq, zərbi-muğamda 3/4 metr ölçüsü əvvəldən axıra qədər davam edir. Burada digər zərbi-muğamlardan fərqli olaraq dəqiq ritm özünü göstərir. “Arazbarı” zərbi-muğamının instrumental partiyası da aşıq havasından müəyyən qədər fərqlənir və əsas leytmotiv olduğu kimi saxlanılır.

Lakin yenilik şur ladına istinad edən cavab cümləsindən başqa, orta hissədə kulminasiyasını təşkil edən bölmədə üzə çıxır. Bu bölmə yalnız instrumental variantda keçir, vokal ifada yoxdur. Lakin aşıq havasında bu məqam vokal ifada özünü göstərir. Təbii ki, tam eyniylə yox, həmin yüksəklikdə olan pərdələrə toxunmaqla keçir.

*Nümunə 4*

Not yazısı : R.Zöhrabov



Zərbi-muğamdan fərqli olaraq aşıq havasında özək təşkil edən leytmövzu daha cox vurğulanır. Zərbi-muğamda isə melodik dönümlər hər dəfə şur ladına kadans edən cavab cümləsi ilə tamamlanır. Burada şur kökü daim təsdiqlənir və dəfələrlə vurğulanır.

«Arazbarı» zərbi-muğamı R.Zöhrabovun «Zərbi-muğamlar» (86) kitabında ətraflı şəkildə təhlil olunduğu üçün ritm, forma, melodiya və s. baxımından biz əsas etibarilə aşıq «Arazbarı»sına yer ayırırıq.

Aşıq "Arazbarı"sında yer alan melodik məzmunda "sol diyez" mayəli segah ladı daha çox özünü göstərir. (Nümunə 5) Hava instrumental girişlə başlayır. Musiqi mayənin alt aparıcı tonundan yuxarı istiqamətdə başlayaraq, üst aparıcı tonun alterasiyalı və natural hallarda keçməsi ilə ilk cümlədən Segah abu-havası yaradır. Çümlənin sonunda alt aparıcı tondan əsas tona kadans etməklə bu hissi bir az da artırır.

İlk başlanğıcda zərbi-muğamda da eyni hal baş verir. Lakin cavab cümləsi yenə də segah ladına istinad etdiyi halda, zərbi-muğamda şur ladına modulyasiya edilir. (nümunə № 6)

*Nümunə 5*

Not yazısı : T.Məmmədov



*Nümunə 6*

Not yazısı : R.Zöhrabov



Bu quruluş hər iki musiqi nümunəsində bir daha təkrarlandıqdan sonra vokal partiya mayənin üst aparıcı tonunda başlanır və aşağı istiqamətdə, yəni şikəstələrdə olduğu kimi mayənin alt aparıcı tonuna doğru hərəkət edir. Ü.Hacıbəylinin də qeyd etdiyi "üç tonlu quruluş" burada da özünü göstərir. Lakin ikinci cümlə nisbətən genişlənmiş şəkildə və əsas tonu da cəlb etməklə davam edir, sonda mayənin alt aparıcı tonunda dayanır. Dayaq zamanı melodiya alt aparıcı tona ənənəvi olaraq mayədən deyil, mayənin alt mediantasından enir və bu da musiqiyə xüsusi əhval-ruhiyyə verir.

*Nümunə 7*

Not yazısı : T.Məmmədov




Xanəndə ifasında da cavab cümləsində eyni pərdələr iştirak edir, lakin sonluq ənənəvi olaraq mayədən alt aparıcı tona keçməklə baş verir. Daha sonra zərbi-muğamda VII pillənin bəmləşməsi ilə xarakterik olan instrumental intermediya keçir. Aşıq "Arazbarı"sında belə melodik parça iştirak etmir. İkinci kuplet də eyniylə birinci kimi dəyişilmədən səsləndikdən sonra, üçüncü kupletdə vokal partiyada VII pillənin bəmləşməsi baş verir. Zərbi-muğamda otuz xanəlik instrumental intermediyadan sonra ikinci kuplet olduğu kimi verilir, üçüncü kupletdə xanəndənin ifasında da VII bəmləşmiş pilləyə rast gəlinir, lakin aşıq havasında olduğu qədər vurğulanmayaraq sadəcə bir dəfə eşidilir.

*Nümunə 8*

Not yazısı : R.Zöhrabov



*Nümunə 9*

Not yazısı : T.Məmmedov




Aşıq “Arazbarı”sında əvvəldə də qeyd etdiyimiz kimi metr ölçülərinin tez-tez dəyişməsi vəzn sərbəstliyi yaradır. Burada 3/4, 4/4, 5/4 metr ölçüləri tez-tez növbələşir. Bu da vurğuların sayının və yerinin tez-tez dəyişməsinə səbəb olur. (nümunə 9, 10)

*Nümunə 10*

Not yazısı : T.Məmmədov



Zərbi-muğamda bu hala təsadüf olunmur. Burada daha çox stabil ölçü, eləcə də melodik materialın rəngarəng olması özünü göstərir. Bu da sazəndə yaradıcılığının təsirindən irəli gəlir. Zərbi-muğamların yaranmasında rənglər və diringilərin, rəqslərin təsiri olduğu elmi mənbələrdə daim qeyd olunur: “Muğam daxilində belə bir yeni keyfiyyətin (zərbi-muğam ifa üslubunun-K.A.) yaranmasında “rəng” bölmələrinin də özünəməxsus rolu olmuşdur. Rənglərin muğam daxilində daşıdığı çox vacib funksiya, onların müstəqil zərbi-muğamların kompozisiya quruluşunda da bərqərar olmasına gətirib çıxarmışdır”. (21, s.84) Bu xüsusiyyəti “Arazbarı” zərbi-muğamını daha çox bəhrli qrupa aid olan aşıq havalarına yaxınlaşdırır.

Forma etibarilə aşıq “Arazbarı”sı kuplet formasını xatırladır. İnstrumental bölmələri nəqarət, vokal partiyanı kuplet hesab etmək olar. “Arazbarı” zərbi-muğamında isə rondovari forma özünü göstərir. Bunun da səbəbi əvvəldə qeyd etdiyimiz instrumental intermediyanın daxil olmasıdır. Nəticədə A-B-C-A-$B_1$ (b-ikinci cümlə)-A quruluşu yaranır.

Təhlil zamanı istifadə etdiyimiz not nümunələri aşıq «Arazbarı»sı-T.Məmmədovun «Azərbaycan klassik aşıq havaları» kitabından (Aşıq Əlixan Niftəliyev-Tovuz məktəbi) (133, s.144), «Arazbarı» zərbi muğamı isə R.Zöhrabovun «Zərbi-muğamlar» kitabından (86, s.335) götürülmüşdür. Hər iki musiqi nümunəsində eyni poetik mətndən istifadə olunmuşdur. Bu mətnə Aşıq Babək Şakirlinin ifasında nota saldığımız «Şirvan şikəstəsi»ndə də rast gəlmişik.

Beləliklə, təhlillər göstərdi ki, aşıq havası ilə eyni adlı zərbi-muğam arasında həm vokal, həm də instrumental partiyalarda müəyyən fərqlər mövcuddur. Bu fərqlər müxtəlif ifaçılıq üslublarının təsiri nəticəsində yaranmış və musiqi nümunəsinin fərqli ifa variantlarının ortaya çıxmasına səbəb olmuşdur. Burada sazəndə yaradıcılığının da rolunu qeyd etmək lazımdır. Bir sıra aşıq havalarının melodik materialının inkişaf etdirilməsində, müxtəlif bəzək və xalların, araçalğıların əlavə olunmasında bu ifaçıların xeyli xidməti vardır. Lakin bu dəyişikliklər aşıq havasının orijinallığına xələl gətirməmiş, əksinə onun geniş kütlələr arasında daha cox yayılmasına və sevilməsinə zəmin yaratmışdır. Qeyd etmək lazımdır ki, aşıq və xanəndə ifaçılığı arasında yaranan əlaqələr onların özünəməxsusluğuna zərər vurmadan, orijinal xüsusiyyətlərini kölgədə qoymadan inkişaf etdirildiyi üçün, hansısa birinin unudulması təhlükəsini yaratmır, əksinə musiqi mədəniyyətimizin müasir cəmiyyətin tələblərinə cavab verən sənət nümunələri ilə zənginləşməsinə və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

**«Ovşarı»** adı altında musiqi nümunələri həm aşıq sənətində, həm də muğam sənətində çox məşhurdur. Bu musiqi nümunəsinin adını çox vaxt Azərbaycan ərazisində yaşamış qədim tayfalarından biri olan Əfşarlarla bağlayırlar. Məsələn, Ə.Eldarovanın «Azərbaycan aşıq sənəti» kitabında bu havanın adı Əfşarı kimi verilir. (70, s. 96) İ.Köçərlinin kitabında

da bu haqda məlumat yer alır: «Ovşarı-Afşarı- bu ad altında aşıq havası mövcuddur. «Avşar» oğuz tayfalarından birinin adıdır». (31, s.13) Ə.Bədəlbəyli bu musiqi nümunəsi haqqında «İzahlı monoqrafik musiqi lüğəti» kitabında ətraflı məlumat verir: «Əfşarı (Ovşarı) – Şur kökündə olan zərbi-muğamlardan biri; 2. Aşıq şeir-musiqi yaradıcılığında şur kökündə gedən vokal-instrumental musiqi forması. Əsas ölçüsü 2/4-dür. Melodik və ritmik cəhətdən divani formasına oxşayır; 3. İran musiqisində Şur dəstgahına mənsub şaxələrdən biridir». (13, s.38) «Ovşarı» Əfşar qəbiləsinin adı ilə bağlıdır». (45, s. 442)

«Ovşarı» havası haqqında Ə.Bədəlbəylinin fikirlərində də rast gəldik ki, onun hər iki sənətdə nümunəsi şur ladına əsaslanır. Digər bir mənbədə «Ovşarı» zərbi-muğamı şüştər ladına əsaslandığı qeyd olunur. (86, s.264)

Lakin maraqlı bir cəhət var ki, aşıq havası və zərbi-muğamın (xanəndə repertuarında «Ovşarı» zərbi-muğam kimi mövcuddur) musiqi məzmunu fərqlidir. Zərbi-muğamın musiqi məzmunu ilə Ə.Bakıxanovun (130, s. 58) kitabında təqdim olunan «Ovşarı № 55» rənginin musiqisi eyni materiala əsaslanır. «Ovşar № 31» (130, s.36) rəngi isə şur ladına əsaslansa da, musiqi məzmunu fərqlidir. «Ovşarı» aşıq havasının musiqi məzmunu isə adlarını çəkdiyimiz musiqi nümunələrinin hər birindən fərqlənir. Nəticə etibarilə xanəndə repertuarında səslənən «Ovşarı»nın aşıq sənətində eyni adlı havadan götürüldüyünü söyləmək olmur. Çünki bu nümunələrin musiqi məzmunu olduqca fərqlidir. Bu fərq ilk xanələrdən özünü göstərir.

*Nümunə 11*

Not yazısı : R.Zöhrabov



*Nümunə 12* Not yazısı : T.Məmmədov



Vokal partiyada da fərqlər açıq-aydın hiss olunur. «Ovşarı» aşıq havasının musiqi materialı tamamilə fərqli məzmuna malikdir.

Lad məsələsi burada əsas fərqli məqamı üzə çıxarmağa kömək edir. Belə ki, «Ovşarı» aşıq havası şur ladına əsaslanır və onun bütün xarakterik cizgilərini, kadanslarını hiss etdirir. Əgər nəzərə alsaq ki, şur ladı aşıq musiqisi üçün olduqca doğmadır, «Ovşarı» havası bu doğmalığı tamlığı ilə ifadə edir. Lakin «Ovşarı» zərbi-muğamı şüştər ladına əsaslanır. Burada «Şüştər» muğamına aid rənglərin melodik materialı, şüştər ladının xarakterik pərdələri, xromatizmi, məxsusi kadansları özünü qabarıq büruzə verir. Bu, bir daha sübut edir ki, aşıq «Ovşarı»sı ilə «Ovşarı» zərbi-muğamı eyni kökdən olan musiqi nümunələri deyil.

Aşıq havası «Ovşarı» "si" mayəli (T.Məmmədov «Azərbaycan klassik aşıq havaları») şur ladının mayə və VI pərdənin vurğulanması ilə xarakterikdir. Belə ki, refren xüsusiyyəti daşıyan instrumental partiya mayə pərdəsini, vokal partiya isə VI pərdəni təsdiqləyir. Burada şur ladına əsaslanan bir sıra xalq mahnılarında olduğu kimi VI pərdədən başlayaraq IV pərdəyə enən melodiya tipi yaranır. Xalq mahnılarından fərqli olaraq vokal partiyada melodiya VI pərdədən başlayaraq mayənin üst aparıcı tonuna qədər enir, lakin vokal ifada mayə pərdəsi əvvəldən axıra qədər səslənmir. Əksinə, VI pərdə dəfələrlə eşidilir, bütün melodik qurumlar VI pərdədə ta-

mamlanır. Hətta vokal partiyanın melodiyasını rast ladına da aid etmək mümkündür. Çünki “si” mayəli şur ladının IX pərdəsi hesab olunan “sol” səsi burada bəmləşmiş şəkildə istifadə olunur və “re” mayəli rast ladının quruluşu yaranır.

*Nümunə 13*

Not yazısı : T.Məmmədov




İnstrumental partiya (refren) altı dəfə keçir. Birinci keçiddə mayə səsi dəfələrlə təsdiqlənir, xromatik səslərdən istifadə olunmur, mayədən VIII pərdəyə yuxarı istiqamətli sıçrayış melodiya üçün xarakterikdir, daha sonra bu sıçrayış aşağı istiqamətli pilləvari hərəkətlə doldurulur. Burada şur ladına xas olan V pərdənin bəmləşməsi baş vermir. Refrenin ikinci keçidində isə «sol» səsinin-IX pərdənin ikili keçidi (həm natural, həm bəmləşmiş) baş verir.

İkinci refren ladın X pərdəsində dayaq edir. Bu da vokal ifanın növbəti keçidini hazırlayır. Vokal partiyanın keçidi zamanı da X pərdə üstündə zəngulədən istifadə olunur. Refrenin üçüncü keçidi (on iki xanə) qısalmış şəkildə birinci keçidi demək olar ki, təkrar edir. IV refren bir daha qısalır, səkkiz xanədən ibarətdir, sanki iki yerə bölünərək vokal ifaya məxsus cümlələrlə növbələşir. Sonda isə vokal partiya ilə instrumental refren bərabər keçir. Burada kontrastlı polifoniyanın nümunəsi yaranır. Müxtəlif lad əsasına malik melodiyaların eyni vaxtda keçməsi aşıq havasının ən maraqlı cəhəti kimi qiymətləndirilə bilər.

Əvvəldə də qeyd etdiyimiz kimi vokal partiyada mayə səsi tamamilə eşidilmir. Əgər vokal partiyanın hər keçidini növbəti epozod kimi qiymətləndirsək (ABACADA$D_1$Koda) B

və C epizodlarında melodiya «re» səsinə kadans edir, D epizodunda isə şur ladına meyl melodiyanın mayənin üst aparıcı tonuna keçməklə bitməsində özünü göstərir. Dərhal instrumental keçidin mayə səsi ilə başlaması əslində melodiyanı yekunlaşdırır. D epizodunda və kodanın vokal hissəsində bütün cümlələr "do diyez" səsində dayanır. Zərbi-muğam sonda mayənin oktavasında kiçik kadansla tamamlanır. B və C epizodlarına rast ladına əsaslanaraq baxsaq, burada «re» mayəli rast ladının mayə, mayənin üst mediantası (VI pərdə) və üst aparıcı tonu (V pərdə) aktiv iştirak edir. Məsələn B epizodunda melodiyanın birinci cümləsi VI pərdə, ikinci cümləsi V pərdə ilə başlanır. Hər iki cümlə mayə səsində tamamlanır.

B epizodunun ikinci hissəsindən əvvəl beş xanəlik instrumental keçid baş verir. Yenidən mayə (şur) səsi vurğulanır. B epizodunun ikinci hissəsi yenə də rast ladının IV, V, VI pərdələrindən ibarət melodiya səslənir.

İkinci refrenin genişlənmiş variantı şur ladının IX pərdəsində tamamlanaraq vokal melodiyanın kulminasiya hissəsini hazırlayır. Melodiya şur ladının oktava yuxarı mayə səsinin üst aparıcı tonu ilə başlanır, alt aparıcı tonunda zəngulə edir. Melodiyanın bu hissəsində əvvəlki epizodlardan fərqli olaraq «sol» səsi bəmləşmir, kadans da «lya» səsinə edilir, növbəti cümlə şurun mayəsinin kvintasına hərəkət edir, lakin C epizodunun ikinci bölməsində yenidən «sol» səsinin bəmləşməsi baş verir. Melodiya sanki yenidən Rast əhval-ruhiy-

*Nümunə 14* Not yazısı : K.Atakişiyeva



yəsi yaradır. Hətta bəmləşmiş «sol» səsi ətrafında gəzişmə də özünü göstərir. D epizodu havanın ikinci kupletini ifadə edir. Vokal partiya B epizodunu təkrarlayır, sadəcə sonda melodiya B epizodunda olduğu kimi «re» səsində deyil, «do diyez» səsində dayaq edir.

*Nümunə 15* Not yazısı : T.Məmmədov




$D_1$ epizodunda şur ladının VII pərdəsi, «mi» səsi daha çox vurğulanır, bu səsin üstündə reçitativ-deklamasiya xarakterli melodiya keçir, nəticədə Rast abu-havası tamamilə yox olur. Artıq şur ladının intonasiyaları hiss olunur. Yenə də bütün cümlələrin sonu mayənin üst aparıcı tonuna dayaq edir. Kodanın vokal hissəsində də eyni halı görmək mümkündür, C epizodundan etibarən vokal melodiyanı daim instrumental ifa tamamlayır. Hər dəfə cümlənin «do diyez» səsində dayaq etməsindən dərhal sonra instrumental partiyanın «si», yəni mayə səsilə başlaması vokal melodiyanı sanki tamamlayır.

*Nümunə 16* Not yazısı : K.Atakişiyeva




Aşıq «Ovşarı»sı T.Məmmədovun kitabında verilmiş variantda aşıq Şəmşirin (Göyçə məktəbi) ifasından yazılmışdır. Havanın mətni nəsihətli sözlər, xeyirsiz övladdan şikayət məqamları və s. kimi fikirləri ifadə edən qoşma janrındadır.

T.Məmmədovun kitabında verilən «Ovşarı» havası şur ladına əsaslanır. Bu havanın Aşıq Altayın ifasındakı lent yazısı da kitabda olduğu kimidir. Tədqiqata cəlb olunan musiqi materialları içərisində Aşıq Əkbərin ifasında «Ovşarı» havası iki nümunədə vardır. Bu nümunələrdə təqdim olunan "Ovşarı" havaları musiqi məzmunu, ritmi, xarakteri ilə bir-birindən əsaslı şəkildə fərqlənir. «Olarmı» rədifli qoşma üstündə ifa olunan "Ovşarı" havası xarakter etibarilə daha lirik və kədərlidir. Burada şikayət xarakterli, həsrətli intonasiyalar üstünlük təşkil edir. Poetik mətndə də sevgilisindən ayrılmış aşiqin kədəri, qəmli ifadələri əksini tapır.

Aşıq Altayın ifasında səslənən «Ovşarı» havası Aşıq Əkbərin ifasındakı «Ovşarı»dan xarakterinə, tempinə, ritmik quruluşuna və bir sıra başqa xüsusiyyətlərinə görə fərqlənir.

Əvvəldə də qeyd edildiyi kimi muğam sənətində mövcud olan «Ovşarı» zərbi-muğamı aşıq sənətindəki «Ovşarı» havasından bütünlüklə fərqlənir. Bu baxımdan R.Zöhrabovun nota saldığı «Ovşarı» zərbi-muğamı əsas nümunə kimi götürülmüşdür. Muğam sənəti ilə bağlı digər not nümunələrinə nəzər saldıqda Ə.Bakıxanovun məcmuəsində rast gəldiyimiz «Ovşarı» (130, s.58) və «Ovşar» (130, s.36) rəngləri tədqiqat obyektinin bir nümunəsi kimi təhlil prosesinə daxil edilmişdir. Belə ki, bu rənglər eyni ilə əvvəldə müqayisə etdiyimiz nümunələrdə qarşımıza çıxan fərqlərə malikdir. «Ovşarı» rəngi sırf şüştər ladındadır, musiqi məzmunu isə eyni adlı zərbi-muğamın intonasiyalarına əsaslanır. «Ovşar» rəngi də şur ladındadır, lakin musiqi məzmunu həm «Ovşarı» zərbi-muğamından, həm də aşıq sənətində təhlilə cəlb etdiyimiz iki növ «Ovşarı» havasından fərqlidir. Aşıq havaları ilə bu rəngi yaxınlaşdıran əsas cəhət hər birinin şur ladına əsaslanmasıdır. «Ovşarı» rəngi «Rəhab» muğamına, «Ovşar» rəngi isə «Nəva» muğamına aid edilmişdir. Rənglərin nəinki aid olduğu

muğam və ladlar, həmçinin xarakteri, ritmik quruluşu, melodik və intonasiya baxımından da fərqliliyi aydın görünür. «Ovşarı» rəngi 4/4 metr ölçüsünə, «Ovşar» rəngi isə 6/8 metr ölçüsünə tabedir. «Ovşarı» rənginin intonasiyaları ilk başdan eyni adlı zərbi-muğamının intonasiyaları ilə eynilik təşkil edir. Sadəcə cümlələrin yeri fərqlidir. «Ovşarı» rəngi «Ovşarı» zərbi-muğamının F ilə işarələnmiş (R.Zöhrabov “Zərbi – muğamlar”) musiqi mətni ilə başlayır:

*Nümunə 17*

Not yazısı : R.Zöhrabov



*Nümunə 18*

Not yazısı : Ə.Bakıxanov



Daha sonra ardıcıllaşma zərbi-muğam A – rəng ikinci cümlə; zərbi-muğam B- rəng üçüncü cümlə və s. şəkildə davam edir. Beləliklə «Ovşarı» rəngi ilə «Ovşarı» zərbi-muğamı arasındakı əlaqə və yaxınlıq göz qabağındadır. Bu sözləri «Ovşar» rəngi üçün demək qeyri-mümkündür. Burada tamamilə başqa abu-hava, başqa lad, ritmik quruluş, məzmun özünü göstərir. «Re» mayəli şur üstündə qurulmuş rəngin musiqi əhval-ruhiyyəsi daha şən, canlı xarakter daşıyır. Azərbaycan xalq musiqisi üçün ənənəvi olan 6/8- ¾ metr ölçüsü növbələşir. Mayənin üst kvartası tez-tez vurğulanır, melodik xətt ladın IX pərdəsinə sıçrayış edərək aşağı istiqamətdə doldurulur, bu hərəkət bir neçə dəfə təkrar edilir, yalnız sona yaxın mayə səsi eşidilməyə başlayır. Şur ladının ifadəsində diqqəti çəkən məqam mayənin üst aparıcı tonunun alterasiyalı vəziyyətinin yalnız treldə istifadəsidir. Şur ladında mayənin üst aparıcı tonunun diatonik vəziyyətdə istifadəsi aşıq musiqisi üçün daha çox xarakterikdir. Muğam sənətinə aid musiqi janrlarında isə

şur ladı məhz bu özünəməxsusluğu ilə daha çox işlənir. Bu rəngdə isə V pərdənin diatonik işlənməsi musiqiyə arxaik xarakter verir və onun folklor musiqisinin dərin qatları ilə yaxınlaşdırır. Bütün deyilənlərlə yanaşı «Ovşar» rənginin musiqi məzmunu yuxarıda təhlil etdiyimiz aşıq «Ovşarı»ları ilə yaxınlıq təşkil etmir.

A)

*Nümunə 19*

Not yazısı : Ə.Bakıxanov




B)

*Nümunə 20*

Not yazısı : Ə.Bakıxanov




Növbəti nümunə **«Heydəri»** zərbi-muğamı və eyni adlı aşıq havasıdır. Təhlil zamanı istifadə etdiyimiz not nümunələri R.Zöhrabovun (86) təqdim etdiyi «Heydəri» zərbi-muğamı, T.Məmmədovun «Azərbaycan klassik aşıq havaları» kitabında nəşr etdirdiyi «Heydəri» aşıq havasıdır. Məlum olduğu kimi, «Heydəri» zərbi-muğamı xanəndə repertuarında tez-tez səslənən musiqi nümunələrindən biridir. Ümumiyyətlə, «Heydəri», «Mani» və «Ovşarı» zərbi-muğamları lad əsası baxımından fərqli olsalar da, musiqi ifadə tərzi və faktura, ritmik quruluş baxımından eyni tipli musiqi nümunələridir.

«Heydəri» zərbi-muğamı şüştər ladına əsaslanır. Bu muğamın çox məşhur və sevilən ifaları xalqın yaddaşında yaşayır və bir çox xanəndələrin repertuarında əsas yerlərdən birini tu-

tur. Onun bir məşhur ifası da görkəmli xanəndə, xalq artisti A.Qasımovun ifasında qızıl fondda saxlanılır. Bu ifada A.Qasımovu ustad tarzən B.Mənsurov müşayiət etmişdir.

Təhlilə cəlb etdiyimiz «Heydəri» zərbi-muğamı R.Zöhrabovun «Zərbi-muğamlar» məcmuəsində verilmiş not nümunəsidir. «Heydəri» zərbi-muğamı haqqında R.Zöhrabov ətraflı məlumat verir: «Hələ XIX əsrdə görkəmli tarzən Mirzə Fərəc zərbi-muğamların siyahısını təqdim edərkən «Heydəri» zərbi-muğamını da bu siyahıya daxil etmişdi» (86, səh.200) Təhlil müqayisəli şəkildə aparıldığından həmin «Heydəri» aşıq havası haqqında da məlumat vermək lazımdır. «Heydəri» aşıq havasının not nümunəsini (Aşıq Mahmud-Tovuz məktəbi) T.Məmmədovun «Azərbaycan klassik aşıq havaları» kitabından götürmüşük. «Heydəri» zərbi-muğamının musiqi məzmunu ilə «Heydəri» aşıq havasının musiqi məzmunu tamamilə fərqlidir, bir az da dəqiqləşdirsək aşıq havasının musiqi materialı «Mani» zərbi-muğamı ilə üst-üstə düşür. Belə hala daha əvvəldə «Ovşarı» zərbi-muğamı ilə «Ovşarı» aşıq havasını təhlil etdiyimiz zaman da rast gəlmişdik. Lakin «Ovşarı» aşıq havasının digər zərbi-muğamlarla uyğunluğu yox idi. Burada isə «Heydəri» aşıq havasının musiqi məzmunu «Mani» zərbi-muğamı ilə uyğundur. Bu səbəbdən müqayisələri «Heydəri» aşıq havası ilə «Mani» zərbi-muğamı arasında aparmağımız daha məqsədəuyğundur. İlk növbədə qeyd edək ki, hər iki musiqi nümunəsi şur ladındadır.

«Mani» zərbi-muğamının mətn əsası onun aşıq musiqi ilə sıx əlaqədə olduğunu göstərir. Çünki başlanan hər sətrin əvvəlində “ay” nidası, daha sonra “ey”, “vay” nidalarından da istifadə olunur, mətn əsası bayatılardan ibarətdir.

*Nümunə 21*

not yazısı: T.Məmmədov




Mətnin məzmunu sevgilisinin həsrətini çəkən aşiqin hisslərini ifadə edir. Zərbi-muğamda məzmunca bir-birinə yaxın bir neçə bayatıdan istifadə edilir. Bu baxımdan həcm etibarilə zərbi-muğam aşıq havasından daha böyükdür. Şərti olaraq iki hissəyə ayırsaq, zərbi-muğamın birinci hissəsinin musiqi materialı ilə aşıq havası uyğunluq təşkil edir, ikinci hissə kimi götürdüyümüz bölmədən (G bölməsi-R.Zöhrabov) isə yeni musiqi materialı başlayır, bu mövzuya aşıq havasında rast gəlinmir. «Mani» zərbi-muğamı iki əsas leytmövzudan ibarətdir. Birinci leytmövzu hər iki musiqi nümunəsində rast gəlinir:

*Nümunə 22*

Not yazısı : R.Zöhrabov



*Nümunə 23*

Not yazısı : T.Məmmədov



Motiv özəyi hər iki musiqi nümunəsində dəfələrlə keçir və bütün əsərin əsas mahiyyətini təşkil edir.

A)

*Nümunə 24*

Not yazısı : R.Zöhrabov



B)

*Nümunə 24*

Not yazısı : T.Məmmədov



Bu motiv (№ 24 B) aşıq havasında daha çox qabarır və dəfələrlə təkrar olunur, bütün musiqi materialının nüvəsini təşkil edir. Fərqli olaraq zərbi-muğamda həmin motiv deyil, əsasını təşkil etdiyi bütöv mövzu iki dəfə olduğu kimi, üçüncü dəfə isə R.Zöhrabov tərəfindən «C» kimi işarələnən parçası genişlənmiş şəkildə keçir və zərbi-muğamın əvvəldə şərti olaraq ayırdığımız birici hissəsini tamamlayır, *fermato*, get-gedə azalan səs və temp bu tamamlanmanı daha da gözə çarpdırır. İkinci hissənin da məzmunu əsas etibarilə birincidən bəhrələnir, sadəcə burada xarakter bir qədər dəyişir, canlanma, major ruhu hiss olunur. Bu da sonda gələn təsnifi hazırlamış olur. Təsnif cəld tempdə, şən əhval-ruhiyyəlidir.

İkinci hissə kimi qeyd etdiyimiz bölmə birinciyə nisbətən daha yığcamdır. İlk motiv keçərkən aşıq havasında mayənin üst kvartası («si bemol») daim vurğulanır (zərbi – muğam «fa diyez» mayəli şura, aşıq havası isə «fa» mayəli şura əsaslanır), zərbi-muğamda isə mayənin alt mediantasına istinad olunur (*«re»*). Vokal partiyada həm melodiya, həm də lad baxımından fərqlər hiss olunur. Belə ki, zərbi-muğamın vokal partiyasında mayənin üst aparıcı tonu (V pərdə) həm natural, həm də alterasiyalı şəkildə keçir. Aşıq havasında isə mayənin üst kvintası (VIII pərdə «do-*do bemol»*) natural və alterasiyalı

şəkildə işlənir, bir an mayəni sanki «*si bemol*» səsinə daşıyır. Lakin mayə instrumental partiyada dəfələrlə vurğulanır.

Hər iki musiqi nümunəsində vokal partiya mayənin üst kvartası ətrafında qurulan melodiya ilə başlayır. Bu melodiyalarda VIII pərdə natural və alterasiyalı vəziyyətdə keçir. (Nümunə № 21)

*Nümunə 25*

Not yazısı : T.Məmmədov




Zərbi-muğamda mayənin üst aparıcı tonu V pərdə də natural və alterasiyalı şəkildə keçdiyi halda, aşıq havasında bu pərdə natural halında keçir. Şur ladı üçün ən çox xarakterik olan bu pərdənin alterasiyası həmin ladda olan bir sıra aşıq havalarında o qədər də təsadüf olunmur, sanki aşıq havalarında şur ladı daha doğal, natural halda özünü göstərir. Ola bilsin ki, bu da həmin ladın saz alətindəki quruluşu ilə bağlıdır. Qeyd etmək yerinə düşər ki, şur ladının bu cür istifadəsi bir sıra xalq mahnılarında da təsadüf olunur.

Sonrakı inkişaf mərhələsi artıq aşıq havasının muğam sənətində, daha çox instrumental baxımından dəyişikliyə uğramasının bariz nümunəsidir. Eyni vəziyyət «Arazbarı», «Qarabağ şikəstəsi» və s. nümunələrdə də özünü göstərir. Aşıq havasının əsas motivlərindən istifadə edərək onu daha da dinamikləşdirmək, genişləndirmək və motiv işlənməsi, variantlılıq xüsusiyyətlərinin gəlməsi sırf xanəndə sənətinin təsiridir. Lakin bu heç də o demək deyil ki, aşıq havalarının daxili inkişafı və ya dinamikası və s. yoxdur. Sadəcə aşıq havalarında

inkişaf xətti daha çox poetik mətnlə bağlı olduğu halda, bu havalar xanəndə repertuarına keçdikdə inkişaf əsas etibarilə instrumental partiyada, virtuozluq və variantlılıq baxımından özünü göstərir ki, bu da rəng və təsniflərin təsirini, virtuoz ifaçılıq ənənələrini ifadə edir. Məsələn, təhlil etdiyimiz nümunədən də göründüyü kimi əsas motivlər məhz instrumental partiyada özünü göstərir. Vokal partiya isə aşıq havasında olduğu kimi cərəyan edir. Nəzərə alaq ki, şikəstələr kimi aşıq havaları əsasında yaranan zərbi-muğamların da vokal partiyanın əsasını mayənin üst mediantası ilə mayəyə doğru hərəkət edən melodik xətt və ya bu səslər ətrafında yaranan melodik material təşkil edir. Burada vokal partiya diapazon baxımından daha genişdir. Şur ladının bir sıra pərdələrinə istinad olunur. Aşıq havasında da isə vokal partiya əsas etibarilə maye və üst kvarta çərçivəsində qurulur. Zərbi-muğamın vokal partiyası da instrumental müşayiət kimi daha inkişaflıdır. Təbii ki, bu da xanəndə ifaçılıq üslubunun təsiri nəticəsidir.

## 2. 2. Xanəndə repertuarında yer alan şikəstələr və digər aşıq havaları

Şikəstə janrı həm aşıq, həm də xanəndə yaradıcılığı üçün eyni dərəcədə doğma və sevimli bir janrdır. Bu janr aşıq yaradıcılığına məxsus olsa da, xanəndə repertuarına o qədər dərindən daxil olmuşdur ki, «Qarabağ şikəstəsi», «Kəsmə şikəstə», «Şirvan şikəstəsi» kimi nümunələri demək olar ki, muğam sənəti nümunəsi kimi qəbul olunmuşdur. Birinci və ikinci şikəstə tamamilə aşıq repertuarında yox vəziyyətindədir. «Şirvan şikəstəsi» isə hər iki sənətdə eyni sevgi ilə ifa olunur. Adını sadaladığımız bu üç musiqi nümunəsi bölgə etibarilə də fərqlidir. Belə ki, «Qarabağ şikəstəsi» Qarabağ bölgəsinə, «Kəsmə şikəstə» (ona bəzən "Bakı şikəstəsi" də deyirlər) Abşeron ərazisinə, «Şirvan şikəstəsi» də adından da mə-

lum olduğu kimi Şirvan bölgəsinə məxsus musiqi havaları kimi tanınır. Lakin bundan asılı olmayaraq hər üç şikəstə xanəndə repertuarında önəmli yerləri tutur.

Şikəstə janrının xanəndə repertuarına yol tapmasının bir sıra səbəbləri vardır. Bunlardan ən birincisi şikəstə janrının quruluş etibarilə zərbi-muğam janrına uyğun olmasıdır. Bu uyğunluq ilk növbədə özünü hər iki janrın qarışıq bəhrli qrupa aid olması ilə yaranır. Şikəstələrdə də zərbi-muğamlar kimi musiqi materialının vokal hissəsi bəhrsiz, instrumental hissəsi isə bəhrlidir. Digər tərəfdən şikəstələrin musiqi materialının xanəndə ifa üslubuna yaxınlığı, əhval-ruhiyyənin, emosional aləmin muğamla səsləşməsi bu janrın xanəndələr tərəfindən də sevilməsinə gətirib çıxarmışdır.

Şikəstə janrı Azərbaycan musiqişünaslığında xüsusi diqqət çəkən tədqiqat obyektidir. Şikəstələr haqqında ilk əvvəl Üzeyir bəyin «Azərbaycan musiqi həyatına bir nəzər» məqaləsində məlumat verilir: «Şikəstə və bayatıya aşıq dəstəsinin dəstgahı demək olar, çünki bu növ musiqi təğənnisi əsl onların sənətidir…şikəstə və bayatının sözləri də zatən köy xalqına məxsus bəstə və qoftə olub qoftəsi məzmunca müxtəlif olduğu halda, bəstəsi yeknəsəkdir… » (80, s.188) Daha sonra alim bu janrın müxtəlif mahallarda yaranması ilə əlaqədar variantlarının adını çəkir.

Bundan başqa şikəstə janrı haqqında ətraflı məlumat M.İsmayılovun «Azərbaycan xalq musiqi janrları» elmi əsərində verilmişdir. Bu əsərdə alim qarışıq bəhrli janr qrupu olaraq şikəstələrə xüsusi bölmə həsr etmişdir. Burada şikəstə janrının xüsusi tərifi verilir: «Azərbaycan şikəstəsi hər biri müstəqil xarakter daşıyan iki çalardan ibarət vokal-instrumental bir musiqi janrıdır. Adi mahnılardan fərqlənən şikəstənin əsas xüsusiyyəti ondan ibarətdir ki, Segah muğamının «Şikəsteyi-fars» şöbəsi üzərində sərbəst gəzişmək yolu ilə yaranan şikəs-

tənin oxunan hissəsi, yəni əsas melodiyası metro-ritmik cəhətdən bəhrsiz olduğu halda, xalq çalğı alətlərindən tar, kamança və xüsusən zərb alətləri bu əsas melodiyanı müəyyən metrik vəzndə müşayiət edir». (21, s.84)

Tərifdən də aydın olduğu kimi alim xanəndə ifasında səslənən şikəstədən danışır. Sonrakı məlumat və təhlillər də məhz xanəndə ifasının məhsulu olan «Qarabağ şikəstəsi»nin əsasında aparılır. Burada həmçinin şikəstə «Ovşarı», «Arazbarı», «Kərəmi» kimi musiqi nümunələri ilə müqayisə edilir.

Şikəstələr haqqında İ.Köçərli monoqrafiya yazmış, əsərdə şikəstələrin təkamül prosesini izləmiş, janr xüsusiyyətlərini-melodik, metr-ritmik, forma və quruluşunu ətraflı şəkildə təhlil etmiş, şikəstəni xalq və bəstəkar yaradıcılığında araşdırmışdır. Tədqiqatçı ilk dəfə olaraq şikəstə janrına aşıq sənətinin məhsulu olaraq yanaşmış və onun hər iki sənətdə (aşıq və muğam) yerini, mövqeyini müəyyən etməyə çalışmışdır. Şikəstələri əsas etibarilə zərbi-muğamlarla müqayisə edən alim onların xanəndə sənətinə yol tapmasını bu cür izah edir: «…şikəstə tarixən aşıq yaradıcılığının məhsulu olmuş, sonrakı təkamül, inkişaf prosesində Azərbaycan xalq musiqi yaradıcılığının bütün qolları ilə qovuşmuş, xalq mahnı və rəqs yaradıcılığı, muğam sənətinin uyğun cəhətlərini mənimsəmiş və nəhayət, xanəndə sənətində son dərəcə təkmilləşmiş bir forma almışdır. Şikəstənin muğam ifaçılığına daxil olması bu janrın daxili qanunauyğunluqları ilə şərtlənmişdir. Vokal melodiyanın improvizasiya xüsusiyyətlərinə malik olması, instrumental hissənin inkişaflı, rəngvari «xasiyyət» daşıması onların xanəndə ifaçılığına daxil olması üçün əlverişli zəmin yaratmışdır». (31, s.27) «Aşıqların repertuarına daxil olan «Bayatı», «Şikəstə» kimi xüsusi, başlıca olaraq kədərli təsirli melodiyalar silsiləsində xalqın inqilabdan əvvəl ağır taleyi öz ifadəsini tapmışdır. Xalq arasında həmin mahnıların külli miqdarda

mətni və musiqi variantı meydana gəlmişdir. Bunlar müxtəlif rayonlarda müxtəlif şəkillərdə ifa olunur. Bizə Bayatı və Şikəstənin onlarca variantı gəlib çatmışdır». (14, s.27)

Bütün misallardan da göründüyü kimi şikəstə janrı aşıq sənətinin məhsulu kimi tanınır. Lakin təəssüflər olsun ki, müasir dövrümüzdə aşıq sənətində bu janra getdikcə daha az yer ayrılır. Xüsusilə də məşhur «Qarabağ şikəstəsi»nə aşıq repertuarında demək olar ki, rast gəlmək mümkün deyil. Şikəstənin bu növü və «Kəsmə şikəstə» daha çox xanəndə repertuarında yer almışdır. Aşıq sənətində müasir dövrümüzdə «Şirvan şikəstəsi», «Sarı torpaq şikəstə», «Badamı şikəstə», «Cığdan çıxma şikəstə», «Quba şikəstəsi», «Zarıncı şikəstə», «Kərəm şikəstəsi» və s. kimi növləri daha məşhurdur. Son zamanlar «Şirvan şikəstəsi» xanəndələr arasında da geniş yayılmışdır. Lakin «Qarabağ şikəstəsi» və «Kəsmə şikəstə»dən fərqli olaraq «Şirvan şikəstəsi» zərbi-muğam statusu daşımır, adını və janrını olduğu kimi saxlamışdır.

Şikəstə janrına öz tədqiqatlarında geniş yer ayıran İ.Köçərli bu janrı bir sıra aspektlərdən araşdırır və məhz «Qarabağ şikəstəsi» və «Kəsmə şikəstə»ni musiqi və poetik baxımdan yaxın olan digər aşıq havaları ilə müqayisə edir. Müqayisəyə cəlb olunan şikəstələr xanəndə ifasına əsaslanır. Müəllif daha sonra bu şikəstələrlə aşıq yaradıcılığında yayılmış «Şirvan şikəstəsi»ni və digər şikəstə növlərini də müqayisə edərək, şikəstə janrının məhz aşıq sənətinin məhsulu olmasını qeyd etmiş, ümumiyyətlə şikəstəni milli vokal ifaçılıq üslubu kimi qiymətləndirmişdir.

Şikəstə janrının xanəndə repertuarında yer alması ilk növbədə onun zərbi-muğam janrı ilə yaxınlığından irəli gəlir. Hər iki musiqi janrı qarışıq bəhrli janr qrupuna daxildir, hər ikisində poetik mətn bayatıya əsaslanır, hər iki musiqi nümunəsində Segah ladı (Şikəsteyi-fars) üstünlük təşkil edir. Musi-

qi materialının digər oxşar xüsusiyyətlərini də sadalamaq mümkündür. Bütün bu səbəblər şikəstə ilə zərbi-muğam janrını bir-birinə yaxınlaşdırmışdır. Bununla belə şikəstənin xanəndə repertuarında olan növləri bu qəbildən olan digər havalar kimi zənginləşmiş, inkişafa uğramışdır.

Aşıq sənətindən xanəndə repertuarına yol tapan şikəstələrdən ən məşhuru **«Qarabağ şikəstəsi»**dir. Hal-hazırda bu şikəstə yalnız xanəndə repertuarında mövcudluğunu davam etdirir. Bildiyimiz kimi Qarabağ Azərbaycanda muğam sənətinin beşiyi kimi tanınır. Lakin unutmaq lazım deyil ki, bu bölgədə həm də aşıq sənəti mövcud olmuşdur. «Qarabağ şikəstəsi»nin XVIII əsr aşıqların repertuarında mövcud olması da şübhəsizdir. Məhz bu bölgədə aşıqlarla xanəndələrin daha sıx təmasda olması da məntiqə uyğundur. Çünki şeir və musiqi məclisləri də ən çox Qarabağda fəaliyyət göstərirdi və bu məclislərdə musiqi və şeir sənətinin ustadları bir araya gəlirdi. Eyni vəziyyət «Şirvan şikəstəsi» üçün də reallaşmışdır. Lakin «Qarabağ şikəstəsi»ndən fərqli olaraq bu şikəstə eyni səviyyədə aşıqların da yaradıcılığında qalmaqdadır. Ola bilsin ki, Qarabağ aşıq məktəbinin öz fəaliyyətini demək olar ki, dayandırması bu zonada muğam sənətinin üstünlüyü ələ alması ilə nəticələnmişdir. Burada muğam ifaçılarının digər bölgələrə nisbətən daha çox olması aşıq sənətini sanki sıxışdırmışdır. Həmçinin siyasi səbəbləri də nəzərə almaq lazımdır. Aşıq sənətinin beşiyi Göyçənin vətən hüdudlarından qoparılaraq yad sərhədlərə qatılması və buradan azərbaycanlıların qovulması da öz mənfi təsirini az göstərməmişdir. Hal-hazırda, artıq 20 ildən çoxdur ki, eyni aqibət Qarabağ muğam sənətini də gözləməkdədir.

«Qarabağ şikəstəsi» xanəndə sənətində ifaçılıq ustalığının ən əsas meyarlarından biri hesab olunur. Hər bir ustad xanəndə bu şikəstəni böyük zövq və fəxarətlə ifa etməyi özünə

borc bilmişdir. «Qarabağ şikəstəsi» təkcə Qarabağda deyil, Azərbaycanın hər tərəfində məşhur olmuşdur və bu gün də öz mövqeyini saxlamaqdadır. «Şirvan şikəstəsi»nə nisbətən «Qarabağ şikəstəsi» xanəndə sənətinin təsirinə daha çox məruz qalmışdır. Bu işdə yalnız xanəndələr deyil, sazəndələrin də xidməti böyükdür. Şikəstə janrında instrumental partiyanın bədii və formayaradıcı əhəmiyyətinin böyük olması faktını qeyd etmək lazımdır. İnstrumental hissələrin rəngarəngliyi və inkişafa məruz qalması, variantlılıq, və s. bütün bunlar məhz müşayiətçilərin xidmətidir. Xüsusilə ustad tarzənlər şikəstənin variantlılıq xüsusiyyətini daha çox inkişaf etdirmişlər.

«Qarabağ şikəstəsi» tədqiqat obyekti kimi də maraq kəsb etmişdir. R.Zöhrabovun «Zərbi-muğamlar» kitabında bu şikəstə ətraflı şəkildə təhlil olunmuş və tam halda nota salınmışdır. Eləcə də İ.Köçərlinin «Aşıq sənəti: musiqili poetik janrlar» kitabında «Qarabağ şikəstəsi» geniş təhlil olunmuşdur. Hər iki nümunə xanəndə ifasından götürülmüşdür. Musiqi nümunələri içərisində ən maraqlısı və ilk dəfə olaraq bizim tərəfimizdən nota salınmış aşıq Altay Məmmədovun ifasında «Qarabağ şikəstəsi» ilə R.Zöhrabovun adı çəkilən əsərində verilən «Qarabağ şikəstəsi»ni müqayisəli şəkildə təhlilə cəlb etmişik. Təhlil zamanı adı çəkilən elmi tədqiqat işlərində verilən təhlillərin nəticələri də göz önündə tutulmuşdur. Bununla belə aşıq ifasında səslənən «Qarabağ şikəstə»si ilk dəfə olaraq tərəfimizdən nota salınmış və tədqiqata cəlb olunmuşdur.

Maraqlıdır ki, «Qarabağ şikəstəsi» musiqi nümunəsi kimi həm nota salınarkən, həm də təhlilə cəlb edilən zaman onun xanəndə ifasında olan variantı əsas götürülmüşdür. Bunun ilk və əsas səbəbi bu şikəstənin xanəndə repertuarında olduqca geniş yayılmasıdır. «Qarabağ şikəstəsi»ni yüksək səviyyədə ifa etmək xanəndələr üçün sanki ustalıq meyarlarından biri kimi qəbul olunur və musiqi təhsili müəssisələrində

xanəndəlik ixtisasının proqramına da daxil edilmişdir. Digər bir səbəb isə bu şikəstənin aşıq repertuarında demək olar ki, yer almamasıdır. Hal-hazırda muğam ifaçılığında mühit, məktəb fərqlərinin zaman-zaman itməsi də bu səbəblərədən irəli gəlir. Təbii ki, bu gün nota salaraq təhlil etdyimiz «Qarabağ

*Nümunə 26*

Not yazısı : K.Atakişiyeva




şikəstə»si əslən Gədəbəy aşıq mühitinin yetirməsi Aşıq Altayın ifasından götürülməsi musiqi nümunəsinin bölgə xüsusiyyətlərinin üzə çıxarılmasında müəyyən çətinlik yaradır.

«Qarabağ şikəstəsi»nin xanəndə və aşıq ifasında əxz etdiyi fərqli və ümumi cəhətləri aşkarlamaq üçün təhlil zamanı not nümunələri ilə yanaşı müxtəlif ifaçıların CD yazılarına da müraciət etmişik. Variantlılıq xüsusiyyəti bu musiqi sənətlərinin (aşıq və muğam) əsas xarakterizə edici cəhəti olduğu üçün müxtəlif ifalarda fərqli məqamlar, bölgə xüsusiyyətləri və s. özünü göstərir. Bundan başqa müasir xanəndələrin ifasından götürülmüş nümunələrlə XX əsrin birinci yarısında yaşayıb yaratmış xanəndələrin ifası arasında da müəyyən fərqlər vardır. Təəssüf ki, aşıq ifası ilə bağlı bu fərqləri aşkara çıxarmaq mümkün deyil, çünki bu şikəstə aşıq repertuarında istifadə olunmur.

Bu səbəbdən də müxtəlif bölgələrin aşıqlarının ifasını müqayisə etmək imkansızdır. Bundan fərqli olaraq «Qarabağ şikəstəsi»ni hansı bölgədə fəaliyyət göstərməsindən asılı olmayaraq bütün xanəndələr ifa edir. Əsas məqsəd müxtəlif bölgələrin fərqli xüsusiyyətlərini deyil, aşıqla xanəndə ifasında yaranan fərqli və ümumi cəhətləri aşkara çıxarmaq olduğu üçün təhlil zamanı R.Zöhrabovun nota saldığı «Qarabağ şikəstəsi», Seyid Şuşinskinin, Xan Şuşinskinin, Yaqub Məmmədovun, Arif Babayevin ifalarının lent yazıları, eləcə də aşıq Altayın ifasından nota saldığımız nümunələrdən istifadə etmişik.

İlk növbədə onu qeyd etmək lazımdır ki, aşıq Altayın ifasında səslənən «Qarabağ şikəstəsi» tədqiqat prosesi üçün lentə alınmış və nota salınmışdır. Bu şikəstə aşıqların repertuarında uzun illərdir ki, səslənmir. Bu baxımdan təhlil zamanı digər musiqi nümunələrinə nisbətən burada dərin araşdırmalar aparmaq nisbətən çətinləşir. Belə ki, müasir dövrdə yaşayıb yaradan aşıqların bu şikəstəni qədim ənənələr əsasında deyil, daha çox xanəndələrin ifasından eşidib öyrəndikləri kimi ifa etməsi təbiidir. Digər şikəstələrin ifası ilə müqayisə etdikdə dediklərmizə bir daha şahid olmaq mümkündür. Məsələn, «Badamı şikəstə», «Cığdan çıxma şikəstə» və s. ifasını dinlədikdə bu havaların sırf aşıq sənətinin məhsulu olması aydın nəzərə çarpır, aşıq Altayın ifasında səslənən «Qarabağ şikəstəsi» isə xanəndə ifasından sadəcə ifa tərzinə görə fərqlənir, musiqi materialında, ritmində nəzərə çarpacaq dəyişikliklərə rast gəlinmir. Bu da ilk növbədə «Qarabağ şikəstəsi»nin bir əsrə qədər müddətdə aşıq repertuarında səslənməməsindən irəli gəlir.

«Qarabağ şikəstəsi»nin müxtəlif xanəndələrin ifasında dinlədikdə də bir sıra fərqli məqamlarla üzləşirik. Məsələn, misilsiz üçlük Şövkət Ələkbərova, Sara Qədimova və Xan Şuşinskinin ifasında səslənən «Qarabağ şikəstəsi» bu musiqi nümunəsinin əfsanəvi variantı hesab olunur. Bu ifada «Qarabağ

şikəstəsi» klassik ənənələrə əsaslanır, lakin xanəndələri tar, kamança deyil, xalq çağlı alətləri orkestri müşayiət edir. Xan Şuşinskinin solo ifa etdiyi digər bir nümunədə isə yüksək sürət müşahidə olunur, xanəndənin partiyasında da müəyyən fərqlər aydın şəkildə duyulur. Muğam ifaçılığı üçün bu fərqlər təbiidir. Şifahi ənənələrə əsaslanan xanəndə ifasında hər bir sənətkar fərdi üslub və ifaçılıq manerasından irəli gələrək öz ustalığını nümayiş etdirir, ifa etdiyi musiqi janrının inkişafına, yenilənməsinə, yeni rəng, nəfəs almasına səbəb olur. Bu baxımdan «Qarabağ şikəstəsi» xanəndələr üçün bir növ imtahan mərhələsidir.

*Nümunə 27* Not yazısı : K.Atakişiyeva




«Qarabağ şikəstəsi»nin aşıq ifasında səslənən digər şikəstələrdən ilk nəzərə çarpan fərqi onun instrumental partiyasının daha inkişaflı və zəngin materiala malik olmasıdır. Bu şikəstənin xanəndə repertuarında ön yerdə durması və sazəndələr tərəfindən instrumental hissəsinin inkişaf etdirilməsi onu digər şikəstələrdən əsaslı surətdə fərqləndirir. Bu inkişaf üçlüyün ifasında daha çox duyulsa da, aşıq variantına da öz təsirini göstərmişdir. Fərqli xüsusiyyətlər tək instrumental partiyada deyil, vokal melodiyanın ifasında da hiss olunur. Xanəndə öz ifasını daha çox xırdalıqlarla, rəngarəng boğazlarla zənginləşdirir. Aşıq ifasında bu təsirlər az da olsa hiss olunur, lakin aşıq ifa manerası üstünlük təşkil edir və şikəstəni digər reçitativ tipli aşıq havalarına yaxınlaşdırır.

Aşıq şikəstəsində ilk instrumental mövzu xanəndə variantında əsas üstünlük təşkil edən baş mövzudur. Bir sıra xanəndələrin ifasını dinlədikdə məhz bu leytmövzunun dəfələrlə səsləndiyini görürük.

*Nümunə 28*

Not yazısı : R.Zöhrabov



Ümumiyyətlə isə aşıq şikəstəsində iki instrumental mövzu keçdiyi halda, xanəndə ifasında bir sıra kiçik keçidlər də səslənir.

*Nümunə 29*

Not yazısı : R.Zöhrabov



Qeyd etmək lazımdır ki, bu heç də bütün ifalarda təsadüf olunmur. Məsələn, Mənsum İbrahimov və Aygün Bayramovanın ifasında səslənən «Qarabağ şikəstəsi»ndə iki əsas leytmövzu keçir, Arif Babayevin, Yaqub Məmmədovun ifasında isə əlavə bir keçid eşidilir.

*Nümunə 30*

Not yazısı : R.Zöhrabov



Digər aşıq havalarında müşahidə olunduğu kimi, «Qarabağ şikəstəsi»ndə də dəyişiklik əsas etibarilə instrumental bölmələrdə hiss olunur. Bu isə sırf musiqi materialının inkişafa uğraması ilə baş verir. Belə ki, sazəndə yaradıcılığının təsiri nəticəsində şikəstənin instrumental parçalarının sayı artır, ifasında texniki və melodik baxımından inkişaflılıq nəzərə çarpır. Vokal partiyaya gəldikdə isə, burada fərq ayrı-ayrı xanəndələrdə müxtəlif cür özünü göstərir. Ən çox nəzərə çarpan məqam tempin fərqli şəkildə tətbiq olunmasıdır. Məsələn, Yaqub Məmmədovun ifasında şikəstə nisbətən aramla ifa olunur, Arif Babayevin ifasında nisbətən hərəkətli, Xan Şuşinskinin ifasında isə daha sürətli şəkildə ifa olunur. Şikəstənin orkestrlə müşayiət olunan nümunələrində də tempdə xüsusi hərəkət müşahidə olunur. Sırf xanəndə partiyasına nəzər saldıqda, ifaçının daha çox fərdi üslub özəlliklərindən faydalanmasını görmək mümkündür. Burada ümumi muğam boğazları ilə yanaşı, özünəməxsus xırdalıqlar da musiqiyə rəngarənglik və xüsusi əhval-ruhiyyə gətirir. Alim Qasımov və Səkinə İsmayılovanın bəstəkar Vasif Adıgözəlovun xor, solistlər və simfonik orkestr üçün «Qarabağ şikəstəsi» oratoriyasında ifa etdikləri partiyada əsaslı dəyişiklik hiss olunmasa da, A.Qasımovun üslubunda aşıq ifasına yaxınlıq daha çox duyulur. Bildiyimiz kimi A.Qasımov bir sıra şikəstələrin, o cümlədən «Şirvan şikəstəsi», «Zarıncı şikəstə» və s. mahir ifaçısıdır və bu xanəndənin ifasında səslənən aşıq havalarında aşıq ifaçılıq üslubu, boğazları xüsusi bir zövqlə istifadə olunur. Bu baxımdan «Qarabağ şikəstəsi»ndə də həmin ifa manerası az da olsa duyulur.

«Qarabağ şikəstəsi»nin orijinal nümunələrindən biri də Elbrus Abdulzadə və onu müşayiət edən Elxan Mansurov (tar), Elşən Mansurovun (kamança) ifasında səslənir. Bu ifa şikəstənin qədim variantı kimi qeyd olunmuşdur. Əvvəlki nümunələrdə olduğu kimi burada fərq ilk növbədə instrumental

partiyada müşahidə olunur. Lakin digər variantlardan fərqli olaraq şikəstənin başlanğıc və leytmövzu funksiyası daşıyan instrumental parçasından başlanaraq musiqi materialı dəyişik verilir. Lakin dəyişiklik bununla bitmir, digər ənənəvi parçalarda davam etdirilir. Bəzən tarzən melodiyanı sadələşdirir, bəzən isə ona yeni motiv və ibarələr əlavə edir. Bütün bunlarla yanaşı şikəstənin ənənəvi ifasında rast gəlmədiyimiz bir məqam da diqqəti cəlb edir. Sona yaxın xanəndə zil pərdələrə üz tutur, sazəndələrin ifasında isə yeni parçalar eşidilir.

Bütün izlədiyimiz nümunələrdə «Qarabağ şikəstəsi»nin məhz xanəndə yaradıcılığında inkişafa uğradığına və mükəmməl sənət əsərinə çevrilməsinə şahid oluruq. Eyni sözləri «Şirvan şikəstəsi» haqqında söyləmək olmaz. Bu şikəstə də eyniylə xanəndələr tərəfindən ifa olunsa da, burada «Şirvan şikəstəsi»nin ifa üslubuna daha çox aşığın təsir etdiyini görmək olur. Bu təsir onunla bağlıdır ki, «Qarabağ şikəstəsi»ndən fərqli olaraq, «Şirvan şikəstəsi» aşıq repertuarında müasir dövrümüzdə də ən başlanğıc yerlərdən birini tutur. Xüsusilə Şirvan aşıqlarının məharətlə ifa etdiyi bu şikəstə də xanəndələrin diqqətindən yayınmamış və onu öz repertuarlarına daxil etmişlər.

**«Şirvan şikəstəsi»** haqqında musiqişünaslıqda maraqlı tədqiqatlara rast gəlinir. Belə ki, «Şirvan şikəstəsi» adı altında bu şikəstənin çoxsaylı növləri haqqında dəfələrlə qeyd olunmuşdur. Bu barədə daha ətraflı İradə Köçərli aşıq sənəti ilə bağlı tədqiqatlarında bəhs edir. O, «Şirvan şikəstəsi»nin növləri kimi «Döymə şikəstə», «Qədim şikəstə», «Cığdan çıxmaz şikəstə», «Bayatı şikəstə», «Zarıncı şikəstə» və s. adlarını çəkir. «Şirvan şikəstəsi»nin ən məşhur variantı əsas etibarilə xanəndə repertuarına yol tapmış növüdür ki, bu hava «Şirvan şikəstəsi» adı ilə tanınır.

Tədqiqata cəlb etdiyimiz «Şirvan şikəstəsi» də məhz bu şikəstədir ki, xanəndələrdən Zabit Nəbizadə, Abgül Mirzəye-

vin, Alim Qasımovun ifasından, aşıqlardan isə Aşıq Şakirin və onun nəvəsi Babək Şakirlinin ifasından götürülmüşdür.

«Şirvan şikəstəsi» nəinki xanəndələrin, hətta estrada müğənnilərinin də diqqətini cəlb etmiş, onun müasir üslubda aranjman olunmuş ifa variantları yaranmışdır. Bu şikəstədə musiqi materialı əvvəlki şikəstədən olduqca fərqlidir. Həm instrumental, həm də vokal partiya həzin və nisbətən lirik xarakterlidir, aşığın ifasında bu həzinlik daha çox duyulur, instrumental partiyada balabanın iştirak etməsi isə lirik xarakteri bir qədər də gücləndirir. Bu şikəstənin xanəndə ifasında həmin xarakterin mümkün olduğu qədər saxlanılması təsir qüvvəsinin aşıq tərəfindən daha artıq olması fikrini yaradır. «Şirvan şikəstəsi»ni ifa edərkən xanəndələr aşıq havasının əhval-ruhiyyəsini yaratmağa çalışırlar.

“Şirvan şikəstəsi”nin xanəndə ifasında olduqca orijinal və özünəməxsus variantlarından biri də istedadlı xanəndə, xalq artisti Alim Qasımovun təqdimatında səslənmişdir. Xanəndənin özünəməxsus ifa üslubu burada da parlaq şəkildə öz əksini tapmışdır. A.Qasımov şikəstənin məzmununun ifadə etdiyi bədii mənanı emosional və psixoloji cəhətdən daha da gücləndirmək üçün onun əvvəlində bir bayatı ifa edir. Bu ifa reçitativ deklomasiyalı aşıq havaları ilə muğamların zil pərdələrdə gəzişmələrini xatırladan, həmçinin sanki haray çəkən, dərdini, kədərini anlatmaq istəyən sənətkarın üsyanını ifadə edən musiqi ilə xarakterizə olunur. Bayatının məzmunu olduqca emosional və bir qədər də dramatikdir. Alim Qasımovun ifaçılıq üslubuna xas olan cəhətlərdən səsin bir anda zil və bəm registrlər arasında dəyişməsi, dərviş musiqisinə xas olan intonasiyalar havanın emosional gücünü bir qədər də artırır. Aşıq ifasında lirik kədəri ifadə edən melodiya burada bir qədər dramatikləşir. Lirik məzmunun altında daha böyük faciənin olmasına işarələn bir əhval-ruhiyyə yaranır. Qeyd etmək

lazımdır ki, Alim Qasımov öz repertuarına aşıq havalarını böyük məmnuniyyətlə daxil edən xanəndələrdən biridir. Onun ifasında səslənən "Şirvan şikəstəsi", "Zarıncı şikəstə" dinləyicilərin böyük rəğbətini qazanmışdır. A.Qasımov bu şikəstələri ifa edərkən aşıq ifasının özünəməxsus cəhətlərini fərdi üslubuna yansıtmağa çalışır, havaları özünəməxsus şəkildə cilalandıraraq onları daha da rəngarəng və orijinal şəkildə dinləyiciyə çatdırır. Bu fikirləri istedadlı xanəndənin bütün yaradıcılığına da şamil etmək olar. Onun ifasında səslənən muğam və təsniflər, xalq mahnıları daim orijinal cəhətlər kəsb etməklə digər ifalardan köklü şəkildə fərqlənir.

A.Qasımovun ifasında «Şirvan şikəstəsi» ilə Aşıq Şakirin ifası arasında yaxınlıq çox duyulur. Bildiyimiz kimi Şirvan aşıq sənətinin görkəmli nümayəndəsi, Aşıq Bilal məktəbinin yetirməsi Aşıq Şakirin yaradıcılığında bir sıra havalar, o cümlədən «Şirvan şikəstəsi» ifaçılıq sənətində bu havanın nümunəvi ifası hesab olunur. Aşıq Şakir yaradıcılığı Şirvan aşıq sənətinin inkişafına böyük təsir göstərmişdir. Onun həzin və yumşaq tembrli səsi qəm-kədər, həsrət ifadə edən şikəstənin musiqisi üçün olduqca xarakterikdir. Son zamanlar Aşıq Şakirin ifasında bu havanın müxtəlif üslublarda variantları da işlənərək dinləyicilərin ixtiyarına verilməklə bu havaya olan marağı və xalq məhəbbətini daha da artırmışdır. A.Qasımovun ifasında isə bu şikəstə daha da emosional-psixoloji gücünü artırmış, kədərli xarakteri dramatikləşmiş, insanın qəlbində haqsızlığa qarşı yüksələn üsyanın ifadəsinə çevrilir. Bəzən sadə xalq mahnısı öz daxilində daha böyük kədər, daha güclü üsyan və mübarizə hisləri ifadə edə bilər, nəinki böyük simfoniyalar, operalar və s. Burada xanəndənin özünəməxsus daxili emosional-psixoloji aləmi, dünyagörüşü də xüsusi rol oynayır. Eyni hava müxtəlif ifalarda tamamilə fərqli mahiyyət kəsb edə bilər.

A.Qasımovun ifasında bu xüsusiyyətlərin yaranmasında bir neçə amil xüsusi rol oynayır. Məsələn, şikəstənin əvvəlində xanəndənin dərin məzmuna malik, dünyanın ədalətsizliyinə qarşı etiraz edən fikirlər üzərində qurulan bayatı oxuması havanın emosional gücünü artıran əsas faktorlardan biridir.

Əzizim, arxa haray,
Su gəlir arxa, haray,
Qərib igid yad ölkədə
Çağırar arxa, haray.

Əzizim, Ərzruma,
Yol gedir Ərzruma.
Dəvəsi ölmüş ərəbik,
Dözərik hər zülümə.

Əvvəldə bu şikəstənin «Qarabağ şikəstəsi» və «Kəsmə şikəstə»dən fərqli olaraq zərbi-muğam xüsusiyyəti daşımadığını qeyd etmişdik. Bu fikir şikəstənin A.Qasımovun ifasında olan variantında daha çox duyulur. Belə ki, şikəstənin önündə oxunan bayatılardan başlamış sona qədər xanəndəni balabanın müşayiət etməsi onun aşıq yaradıcılığına məxsusluğunu vurğulayır və zərbi-muğam xarakterindən bir qədər uzaqlaşdırır. Çünki əvvəlki iki şikəstədə müşayiətdə ümumiyyətlə balaban aləti iştirak etmir. Vokal partiyanın sərbəst improvizasiyalı ifa üslubunda qurulması Şirvan bölgəsinə məxsus havaların ümumi cəhəti kimi qəbul oluna bilər. Çünki aşıq Şakirin ifasında da vokal partiyada xanəndə ifa üslubunun təsiri açıq-aydın görünür.

Qeyd etmək lazımdır ki, bu şikəstənin Şirvan aşığı Ağamurad İsrafilovun ifasında dinlədiyimiz variantında daha sakit tərzli əhval-ruhiyyə müşahidə olunur. Şirvan mühitinin yetirmələrindən biri olan gənc xanəndə Elnarə Abdullayevanın ifasında «Şirvan şikəstəsi»ndə isə aşıq Şakirin ifasında olan dərin həsrət, kədər hissi, qəm-qüssə xanəndənin məlahətli tembri ilə uzlaşaraq ürəyəyatımlı təəssürat oyadır. Baxmarayaq ki, instrumental müşayiətdə canlanma hiss olunur, xanəndə havanın sonuna qədər öz ifasının sakit kədərli tərzinə sadiq qalır.

Qeyd etmək lazımdır ki, Aşıq Şakirin, xanəndələrdən A.Qasımovun, E.Abdullayevanın ifasında şikəstənin sonuna yaxın zil pərdələrə yüksələn kulminasiya anı Aşıq Ağamurad İsrafilovun, xanəndə Əvəzxan Xankişiyevin və digər gənc ifaçıların təqdimatında müşahidə olunmur.

Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, xanəndə yaradıcılığında yer alan digər şikəstələrdən fərqli olaraq «Şirvan şikəstəsi»ndə şikəstə janrının aşıq ifasına məxsus cəhətləri daha parlaq ifadə olunur. Bununla da «Şirvan şikəstəsi» «Qarabağ şikəstəsi» və «Kəsmə şikəstə»nin məruz qaldığı dəyişikliklərə uğramır və janr xüsusiyyətlərini daha çox qoruyub saxlamış olur. Şikəstənin ifasında xanəndə ifa üslubunun təsiri isə bu havanın Şirvan bölgəsinə məxsus havalarla təşkil etdiyi ümumi cəhətlərdən biri kimi qiymətləndirilir.

*Nümunə 30 a*  Not yazısı : K.Atakişiyeva




Şikəstə janrının xanəndə repertuarında yer alması və xüsusilə son illər məhz «Şirvan şikəstəsi»nin gənc muğam ifaçılarının (Abgül Mirzəyev, Mirələm Mirələmov və s.) repertuarına daxil olması nəinki bu janrın, eləcə də aşıq sənətinin Azərbaycan musiqisində dərin köklərə bağlı olduğunu göstərməklə yanaşı, yaşamaq və gələcəyə doğru addımlamaq hüququnu bir daha artırmış olur.

Növbəti musiqi nümunəsi **«Döymə Kərəmi»** aşıq havasıdır. Bu havanın musiqisi Aşıq Əhlimanın və xanəndə Zabit Nəbizadənin ifasından bizim tərəfimizdən nota salınmışdır. Həmçinin Aşıq Şakirin ifasında səslənən «Döymə Kərəmi» də

təhlil prosesinə cəlb edilmişdir. Qeyd edək ki, Zabit Nəbizadənin ifasındakı «Döymə Kərəmi» ilə Aşıq Şakirin ifasında səslənən «Döymə Kərəmi» arasındakı yaxınlıq Aşıq Əhlimanın ifasındakı «Döymə Kərəmi»yə nisbətən daha çoxdur.

«Döymə Kərəmi» «Kərəmi» aşıq havasının çox saylı növlərindən biridir. Döymə sözünun əlavə olunması isə havanın daha ritmik, dinamik, nisbətən sürətli ifası, eləcə də zərb alətinin aramsız ritm vurmasını nəzərdə tutur. Havanı dinlədikdə də bu prosesin şahidi oluruq. Musiqini müşayiət edən zərb aləti aramsız olaraq ritm vurur və havaya dinamik, canlı əhval-ruhiyyə verir.

«Döymə Kərəmi» aşıq havası həm aşıq, həm də xanəndə ifasında olan variantında rast ladına əsaslanır. «Kərəmi» aşıq havasının bəzi növləri, o cümlədən xalq arasında çox məşhur olan «Yanıq Kərəmi» havası segah ladına əsaslanır. Hətta müasir aşıqların yaradıcılığında «Yanıq Kərəmi» yalnız instrumental formada ifa olunur. Xanəndə Məcid Behbudovun ifasında səslənən «Kərəmi» havası da «Döymə Kərəmi» havası kimi rast ladına əsaslanır.

Müqayisəli təhlil not misalları ilə bərabər əsas etibarilə Zabit Nəbizadənin və Aşıq Əhlimanın ifasından nota saldığımız «Döymə Kərəmi» musiqi nümunələri və ifaları arasında aparılacaq.

Z.Nəbizadənin ifasında səslənən «Döymə Kərəmi» elə ilk başlanğıcdan zərb alətinin rolunu xüsusilə qeyd edən aramsız vurğulu ritmin musiqini müşayiət etməsi ilə başlayır. İnstrumental giriş musiqinin dinamik, hərəkətverici, oynaq xarakterini büruzə verir. Xanəndəni zərb aləti ilə bərabər tar, kamança və balaban müşayiət edir. Xanəndələr aşıq repertuarından istifadə etdikləri zaman çox vaxt balaban alətini də instrumental müşayiətə daxil edirlər. Bu alət musiqinin aşıq sənətinə aid olması hissini bir az da artırır. Bildiyimiz kimi

Şirvan aşıqlarını müşayiət edən musiqi alətlərindən biri və ən məşhuru da elə balabandır.

Bu baxımdan Z.Nəbizadənin ifasında səslənən «Döymə Kərəmi» ilk xanələrdən aşıq musiqisinin xüsusiyyətlərini özündə ifadə etməyə başlayır.

«Döymə Kərəmi». Z.Nəbizadənin ifasında:

*Nümunə 31* Not yazısı : K.Atakişiyeva




Canlı xarakterli girişdən sonra dəqiq vəznə tabe olan instrumental müşayiətin altında sərbəst vəznli vokal ifa başlayır. Xanəndə ilk sətirlərdən aşıq ifa üslubuna yaxınlaşmağa çalışır. Yəni aşıq ifasına məxsus reçitativ-deklamasiya xarakterli ifa tərzi özünü göstərir. Həmçinin iki sətrin sonunda aşıq zənguləsindən istifadə etməsi də bu qəbildəndir.

Aşıq musiqisinə məxsus ifadə tərzi həm də insturmental müşayiətdə əsas partiyanın balabana həvalə edilməsində özünü göstərir. Belə ki, tar və kamança sadəcə onu səsaltılarla müşayiət edir və ya unison olaraq təkrarlayır. Bununla bir daha aşıq musiqisinin abu-havası hiss olunur.

Çox maraqlı bir məqamı da qeyd etmək yerinə düşər. Xanəndədən fərqli olaraq Aşıq Əhlimanın ifasında səslənən «Döymə Kərəmi»nin instrumental girişi isə sazın ifasında muğam parçası ilə başlayır. Sanki hər iki ifaçı bir-birinə bənzəməyə, digərinin sənətindən nələrisə əxz etməyə çalışmışdır.

«Döymə Kərəmi». Aşıq Əhlimanın ifasında:

*Nümunə 32*

Not yazısı :K.Atakişiyeva



Aşıq Şakirin ifasında səslənən «Döymə Kərəmi»nin instrumental girişi isə eyniylə Z.Nəbizadənin ifasında olduğu kimidir. Burada da balabanın tembri saza nisbətən daha çox duyulur, yəni xanəndədə olduğu kimi balaban aləti üstünlük təşkil edir. Melodik material da xanəndə ifasında olduğu kimidir.

Sazın ifasında aşıq Şikəsteyi-fars (sol) üstündə muğam parçasını ifa edir, sonra Rasta (do) ayaq edərək instrumental girişin hərəkətli ikinci hissəsini səsləndirir. Burada balaban da ifaya qoşulur və üstünlüyü ələ alır. Aşıq Əhliman ifaya "do" mayəli rast üstündə başlayır. Xanəndə ifasında olduğu kimi burada ilk cümlə mayə səsinin dəfələrlə vurğulanması ilə başlayır. Mayə səsi ilə yanaşı melodiya mayənin üst mediantası arasında qurulur. Nəticədə melodiyanı üç səs təşkil edir: «do-re-mi».

Xanəndə ifası «mi bemol» mayəli rast ladına əsaslanır. Vokal ifasının ilk xanələrindən mayə səsi durmadan təkrarlanaraq əsaslı şəkildə vurğulanır. Birinci kupletin ifası zamanı vokal melodiyanın diapazonu xalis kvinta intervalını təşkil edir. Melodiya mayə səsi ətrafında gəzişmə və mayə səsinin dəfələrlə vurğulanması ilə yaranır.

*Nümunə 33*

Not yazısı : K.Atakişiyeva




Əvvəlki fəsildə qeyd etdiyimiz əlavələrin formayardıcı funksiyası burada da özünü göstərir. Birinci kupletin iki sətrindən sonra

Badam sevgilim,  
Demə ki, sənə yadam sevgilim.  
Uzaqdan harda boyunu gördüm,  
Dünyalar qədər şadam sevgilim.

misralarından ibarət gül qafiyə keçir. Bu dörd misra birinci kupletin ilk iki sətri ilə digər iki sətri arasında sanki bağlayıcı kimi çıxış edir. Xanəndə bu zaman səs oynatmalarından daha çox istifadə edir. Onun ifa etdiyi poetik mətndə rast gəldiyimiz əlavə misralar burada yer almır və onu instrumental parça əvəz edir.

*Nümunə 34*

Not yazısı : K.Atakişiyeva




Xanəndə ifasında üçüncü sətir mayənin üst mediantası ilə başlayır. Melodiyadakı dinamika daha artır. Birinci kupletdən sonra girişə nisbətən daha hərəkətli xarakter daşıyan instrumental intermediya keçir. İntermediya on səkkiz xanədən ibarətdir. Burada ritmik rəngarənglik də özünü göstərir. Aşıq ifasında da birinci kupletdən sonra hərəkətli, nisbətən rəqsvari xarakterdə instrumental intermediya keçir. Lakin xanəndə ifasına nisbətən burada intermediyanın həcmi qısadır.

Birinci intermediya xanəndə ifasında on yeddi xanə, aşıq ifasında isə səkkiz xanədən ibarətdir.

İkinci kupletin ifasında isə xanəndə daha çox muğam boğazlarına üstünlük verdiyi üçün melodiyanın diapazonu genişlənərək oktavaya çatır, vokal ifada xırdalıqlar, bəzəklər, muğam ifaçılarının dili ilə desək «şirinliklər» artır. Lakin burada xanəndəni ənənəvi olaraq tar deyil, balaban müşayiət edir. Bu kupletin ikinci sətrindən sonra yeni instrumental intermediya keçir, yenidən xanəndə ifası səslənir, sonda aşıq havalarında olduğu kimi şur ladına keçən kadansla tamamlanır. Birinci kupletdə rast gəldiyimiz dörd misralıq əlavədən burda istifadə edilmir. Xanəndə ikinci və üçüncü sətrin sonunda səsi uzatmaq vasitəsilə xırdalıqlar edir. Bu kupletin də vokal ifa üslubu nisbətən birinciyə yaxındır. Aşıqda da xanəndədə olduğu kimi ikinci kuplet mayənin üst mediantası ilə başlanır. İki misradan sonra səslənən intermediya isə birinci kupletdəkinə nisbətən daha uzun, on yeddi xanədən ibarətdir.

*Nümunə 35* Not yazısı : K.Atakişiyeva



Xanəndə ifasında növbəti instrumental intermediyadan sonra üçüncü kuplet keçir. Üçüncü kupletin ifasında xanəndə sırf muğam improvizasiya üslubuna üstünlük verərək boğazlar, xırdalıqlar, zəngulələr edir. Artıq burada musiqi nümunəsinin məhz xanəndə tərəfindən ifa olunmasını bildirən cəhətlər özünü daha aydın göstərir. Əlavə misraları isə instrumental parça əvəz edir. Əvvəlki iki kupletdən fərqli olaraq balaban xanəndənin partiyasını daim imitasiya edir. Bu da onu muğam ifasına yaxınlaşdıran daha bir cəhətidir. Üçüncü kupletin sonuncu kadansı ənənəvi olaraq şur ladına əsaslanır.

Aşığın ifasında digər kupletlər əvvəlkindən bir o qədər də fərqlənmir. İnstrumental intermediyaların melodik materialı xanəndə ifasında səslənən variantda bir qədər fərqli təqdim olunur. Dinlədikdə hər iki variantın bir kökdən olduğu hiss olunur. Azərbaycan xalq musiqisinə məxsus çoxvariantlılıq xüsusiyyəti burada parlaq şəkildə özünü göstərir.

A)

*Nümunə 36* Not yazısı : K.Atakişiyeva




B)

*Nümunə 36* Not yazısı :K.Atakişiyeva




C)

*Nümunə 36* Not yazısı : K.Atakişiyeva



Vokal partiyada isə bu səviyyədə fərq hiss olunmur. Sadəcə fərqli ifa üslubunun yaratdığı rəngarənglik özünü göstərir. Mətn əsasını qoşma təşkil edir.

Fərqli mətn musiqinin xarakterinə də nisbətən təsir göstərmişdir. Z.Nəbizadənin ifasında səslənən «Döymə Kərəmi» cavabsız, qarşılıqsız sevginin yaratdığı qəm-kədəri, Aşıq Əhlimanın ifası isə öyüd-nəsihət, tərbiyəvi məsləhətləri ifadə edir. Buna görə də hər iki musiqini dinlədikdə sözlərin xarakterinin musiqiyə təsir göstərdiyinin şahidi oluruq. Maraqlı bir cəhəti də qeyd etmək yerinə düşər. İfaçıların səs tembrləri arasında olan fərq də mətnin xarakterinin güclənməsinə səbəb olur. Belə ki, Aşıq Əhlimanın xanəndəyə nisbətən bəm səsi ifa etdiyi mətnin tərbiyəvi gücünü daha da artırır. Ondan fərqli olaraq Aşıq Şakirin ifasında səslənən «Döymə Kərəmi» həm mətn əsasına, həm musiqi materialına, həm də səs tembrinə görə Z.Nəbizadənin ifasına daha yaxındır. İkinci və üçüncü kupletlərdə aşığın muğam boğazlarına, xanəndə ifa üslubuna üstünlük verməsi də bunu deməyə əsas verir.

*Nümunə 37 a* Not yazısı : K.Atakişiyeva



*Nümunə 37 b* Not yazısı : K.Atakişiyeva



Aşıq havalarının müxtəlif aşıqların ifasında variant dəyişikliyinə uğraması şifahi ənənəli xalq professional musiqisinə xas cəhətlərdən biridir. Bu cəhəti elə eyni muğamların müxtəlif xanəndələrin ifasında fərqli interpretasiyada təqdim

olunması ilə müqayisə etmək olar. Ancaq aşıq musiqisində variant dəyişikliyi muğam ifasına nisbətən daha sərbəst formadadır. Belə ki, bir sıra aşıq havalarının müxtəlif aşıqların ifasında variantları yaranmış və müstəqil hava kimi məşhurlaşmışdır. Muğam sənətində də xanəndələrin ifası fərqli və daha mükəmməl ifa üslubuna görə fərqlənmişdir. Məsələn, Zabul Qasım, Segah İslam kimi xanəndələrimiz xalq arasında adlarının önündə səslənən muğamları kamil ifa etdiklərinə görə çox sevilmişlər. Lakin bununla belə muğam sənətində İslam Segahı, Qasım Zabulu, Cabbar Çahargahı və s. kimi ayrıca muğam variantları mövcud deyil. Segah muğamının variantları isə əsas etibarilə mayə səsinin aid olduğu yüksəkliklərə görə fərqlənir. Halbuki Dübeyti janrının Aşıq Mikayıl Azaflının ifasında səslənən variantı Azaflı dübeytisi kimi aşıq sənətində çox məşhurdur və müxtəlif aşıqların ifasında tez-tez səslənir.

**«Güllü qafiyə»** aşıq repertuarında xüsusi yer tutan musiqi nümunələrindən biridir. «Güllü qafiyə» bir sıra aşıq havalarında olduğu kimi öz adını poetik mətnin quruluşundan götürür. Belə ki, aşıq poeziyasında gül qafiyə, cığa, yedək, sırğa və s. kimi anlayışlardan istifadə olunur. Bu sözlər müəyyən şeir formasına qoşulan kiçik əlavələrdir ki, onlar da öz təbiətinə görə müxtəlif olur. Bu barədə həm folklorşünas alimlərin əsərlərində, həm də aşıq musiqisinə həsr olunmuş elmi-tədqiqat əsərlərində ətraflı məlumat verilir. Hər iki sahədə bu sözlərin mənası, məqsədi, işlənmə forması və səbəbi açıqlanır. Əsas etibarilə bir çox alimlər aşıqların havacatla poetik forma arasında mütənasiblik yaratmaq üçün məhz cığalardan, gül qafiyə, yedək və s. istifadə etməsini qeyd edir. İ.Köçərli «Aşıq sənəti» kitabında M.Qasımlının fikirlərinə əsaslanaraq bu sözlərdən hər birinin mənasını və mahiyyətini izah edir: «Gül qafiyə – bənd daxili, yəni misraarası işlənən şeir qurumudur. Gül qafiyə üç-beş hecalı və dörd-altı misralı ola bilər.

Bu misralar bir-birilə qafiyələnməli, əsas mətnin tutumu və ovqatı ilə uyğun olmalıdır». (30, səh. 46) Daha sonra müəllif gül qafiyələrin artırıldığı poetik formadan asılı olaraq fərqləndiyini qeyd edir. Tədqiqata cəlb etdiyimiz musiqi nümunələri xanəndə Z.Nəbizadənin ifasında səslənən «Güllü qafiyə», T.Məmmədovun «Azərbaycan klassik aşıq havaları» kitabında təqdim etdiyi «Güllü qafiyə» musiqi nümunəsidir.

İlk növbədə qeyd edək ki, Z.Nəbizadənin ifasında səslənən «Güllü qafiyə» tərəfimizdən nota salınmışdır. Bu havanın poetik əsasını qoşma təşkil edir. Qoşmaya əlavə edilən gül qafiyə hətta musiqi məzmununun da dəyişməsi ilə şərtlənir. Belə ki, qoşmanın bəndləri lirik, təmkinli musiqi ilə ifa olunduğu halda, gül qafiyə hissəsində temp, melodiya dəyişir, canlanır, sürətlənir və ümumi əhval-ruhiyyəyə şən, həyatsevər xarakter verir.

Musiqi materialının təhlili daha maraqlı xüsusiyyətləri üzə çıxarmağa imkan verir. Havanın musiqi məzmunu ilə poetik məzmunu bir-birini tamamlayır.

«Güllü qafiyə» instrumental girişlə başlayır. Artıq ilk motivlərdən havanın ümumi əhval-ruhiyyəsi özünü göstərir. Tar, kamança, qaval eyni vaxtda unison şəkildə eyni melodiyanı ifa edir. Şur intonasiyaları ilk xanələrdən özünü bütün parlaqlığı ilə göstərir. Xüsusilə mayənin üst aparıcı tonunun natural və bəmləşmiş şəkildə eşidilməsi musiqiyə amiranə xarakter verir.

*Nümunə 38*

Not yazısı :K.Atakişiyeva



On iki xanəlik instrumental girişdən sonra xanəndənin ifası başlayır. Amiranə xarakter yenə də davam edir. İki misranı bəmdə, növbəti iki misranı isə zildə ifa edən xanəndə əvvəlki nümunəyə nisbətən (Döymə Kərəmi) burada aşıq ifaçılıq üslubuna xas cəhətləri bir o qədər də tətbiq etmir. «Güllü qafiyə» bəhrli ritm qrupuna aid musiqi nümunəsidir. Aşıq havalarına xas olan bəhrsiz ritm və ya reçitativ-deklamasiya xarakterli melodiya burada izlənmir və bu xüsusiyyətlərin olmaması onu xalq mahnısına yaxınlaşdırır. Poetik mətn qoşma şeir formasıdır. Gül qafiyənin əlavə olunması musiqinin xarakterində də dəyişiklik yaradır. Belə ki, gül qafiyə hissəsinə çatan zaman ritm, temp, xarakter dəyişir, daha şən, rəqsvari musiqi ilə əvəz olunur. Lakin melodiyanin əsas məzmunu dəyişmir. Tematik material eyni qalır.

*Nümunə 39*

Not yazısı : K.Atakişiyeva




Əsas kupletlə gül qafiyə arasında keçən intermediya bu prosesi hazırlayır. Musiqinin xarakteri məhz burada dəyişir. Ümumilikdə iki kuplet və iki gül qafiyədən ibarət poetik mətnin məzmunu öz sevgilisinə xitab, müraciətdən ibarətdir. Kupletlərin məzmunu ilə gül qafiyələrin məzmunu bir-birini tamamlayır.

*Nümunə 40*

Not yazısı : K.Atakişiyeva




T.Məmmədovun «Azərbaycan klassik aşıq havaları» kitabında təqdim olunmuş «Güllü qafiyə»nin xanəndə ifasında təqdim etdiyimiz nümunədən fərqlənməsi ilk baxışdan hiss olunur. Burada da musiqi instrumental girişlə başlayır. Girişin musiqi məzmunu reçitativ-deklamasiya xarakterli aşıq havalarının abu-havasını yaradır. Dəfələrlə təkrar olunan kiçik motivlər, eyni pərdənin çox sayda səslənməsi, aid olduğu kökün eşitdirilməsi musiqiyə nisbətən monotonluq verir. Otuz doqquz xanəlik girişdən sonra vokal ifa təqdim olunur. Poetik mətnin burada da müraciət xarakterli (dedim-dedi) olması melodiyaya öz təsirini göstərmişdir. Sevgilisi ilə arasında olan dialoqu nəql edən ifaçı musiqinin melodiklikdən çox monoton reçitativ, danışıq intonasiyasına yaxınlaşmasını təmin edir. Yəni Z.Nabəzadənin ifa etdiyi «Güllü qafiyə»də müşahidə etdiyimiz mahnıvarilik burada reçitativ-deklamasiya ilə əvəz olunmuşdur. Vokal melodiyanın kiçik diapazonu, həmçinin melodiyanı təşkil edən səslərin sekunda münasibətində yuxarıdan aşağı istiqamətlənməsi və bu hərəkətin demək olar ki, sona qədər eyni formada təkrarlanması havanın daha çox reçitativ-deklomasiya xarakteri daşımasına səbəb olur.

*Nümunə 41* Not yazısı :T.Məmmədov




Bütün hava boyunca birinci oktavanın «sol» səsindən «fa» səsinə tədricən enən hərəkət yeddi dəfə təkrar olunur. Orta hissədə melodik hərəkət birinci oktavanın «do», sona yaxın «re», sonda isə «mi» səsində dayanır. Eyni motivin dəfələrlə təkrarlanması instrumental girişdə də müşahidə olunur. Motiv cüzi variant dəyişiklikləri ilə tam otuz yeddi xanə həcmində təkrarlanır.

*Nümunə 42* Not yazısı :T.Məmmədov



**Çoban bayatı** xalq arasında olduqca məşhur bir musiqi nümunəsidir. Bu musiqi müxtəlif formalarda, müxtəlif ifalarda xalqın məhəbbətini qazanmış və yəqin ki, bu səbəbdən də müxtəlif musiqi ifaçıları tərəfindən əxz olunaraq repertuara daxil olunmuşdur. «Çoban bayatı»nın ilk olaraq hansı formada yaranması barədə müxtəlif fikir və mülahizələr mövcuddur. Belə ki, bu musiqinin adı ilə əsaslanan fikirlərdən biri onun məhz çobanlar tərəfindən yaradılmasıdır. Məntiqi olaraq çobanların musiqini əsas etibarilə tütək alətində ifa etmələri «Çoban bayatı»nı instrumental musiqinin bir nümunəsi kimi təqdim edir. Digər fikirlərə görə «Çoban bayatı» ilk olaraq vokal formada xalq mahnısı kimi yaranmışdır. Daha sonra çobanlar, aşıqlar və s. tərəfindən mənimsənilərək ifa olunmuşdur. «Çoban bayatı» hal-hazırda muğam ifaçıları tərəfindən də böyük həvəslə ifa olunur.

«Çoban bayatı»nın yaranması ilə bağlı başqa fikirlər də mövcuddur. Məsələn, A.Nəcəfzadə bu havanın çobanlara məxsus olduğunu və yaranması ilə bağlı folklorşünas alim Ə.Dağlının fikirlərinə istinad edərək belə qeyd etmişdir: «Çoban bayatı heç bir şöbəsi (yaxud guşəsi) olmayan yeganə muğamdır. Bu muğam çobanların bəstələdiyi və tütəkdə çaldıqları musiqidir. Tanınmış dövlət və ictimai xadim, folklor tədqiqatçısı Əlihüseyn Dağlının (1898-1981) ehtimalına görə, Çoban-bayatı muğamı Çobanilər tərəfindən təxminən XIV əsrdə bəstələnmişdir. Çobanilər 1356-cı iləcən Azərbaycanda, həmçinin bütün regionda hökmranlıq ediblər». (42, səh.30)

«Çoban bayatı»nın adında olan çoban sözünün daha qədim tarixi vardır. Belə ki, Azərbaycan ərazisində maldarlıq çox qədim zamanlardan əhalinin əsas məşğuliyyəti olmuşdur. Bayatı sözünün də burada iştirak etməsi bu musiqi nümunəsini qədim dövrə aid olmasını bir daha sübut edir. Bayatı söyləmək sadəcə şair və ya musiqiçilərə məxsus deyildi, hər bir insan əmək prosesində, ailə-məşiət zəminində müəyyən əhval-ruhiyyəyə və ya hadisəyə uyğun olaraq bayatı söyləyə bilərdi. Bayatı janrının aşıq sənətində əsas yerlərdən birini tutması ilk növbədə bu janrın xalqa çox yaxın olması ilə bağlıdır. Bu günümüzə qədər yaşlı nənələrimiz layla və ninniləri məhz bayatılarla zümzümə edirlər. Bayatı öz-özlüyündə musiqi ilə olduqca yaxın ədəbi janrdır, hətta belə demək olarsa bayatı söylənərkən onun avazı da eyni zamanda yaranır. Bu dərəcədə xalq ruhunda olan bir musiqili-poetik janrın çobanlar tərəfindən mənimsənilməsi olduqca təbii qarşılana bilər. Çobanlar musiqini məxsusən tütəkdə ifa etdiklərinə görə bu xalq havası onların ifasında instrumentallaşmış, aşıqların yaradıcılığında isə mükəmməlləşərək bir neçə variantlı musiqi nümunəsinə çevrilmişdir. «Çoban bayatı»nın xalq tərəfindən sevilməsi onun muğam sənətinə yol tapmasına da zəmin yaratmışdır.

«Çoban bayatı» muğam sənətində həm instrumental, həm də vokal-instrumental şəkildə ifa olunur. Lakin təəssüflər olsun ki, müasir xanəndələrin repertuarında bu havaya az rast gəlinir. Araşdırmalar nəticəsində müasir dövrdə gənc xanəndə Sevinc Sarıyevanın və XIX əsrin II yarısında fəaliyyət göstərmiş məşhur Qarabağ xanəndəsi Keçəçi oğlu Məhəmmədin ifasında bu muğamın lent yazısına müraciət etmişik.

Bayatı janrı öz-özlüyündə muğam sənətinə sadəcə «Çoban bayatı» ilə deyil, daha dərindən daxil olmuşdur. Belə ki, adında bayatı sözü işlənən olduqca çox saylı muğamlar, şöbələr və guşələr mövcuddur və müasir dövrdə də ifa olunur. Bu barədə A.Nəcəfzadə qeyd etmişdir: «Bir sıra muğamların adlarında bayatı sözü öz əksini tapmışdır: Azərbayatı, Çoban bayatı, Bayatı, Bayatı-Əcəm, Bayatı-Ərəban, Bayatı-feli, Bayatı-kürd, Bayatı-race, Bayatı-Şiraz, Bayatı-İsfahan, Bayatı-Qacar, Bayatı-türk, Qatar-bayatı, Novruz bayatı və s.».(42, s.28) Məqalədə bayatı sözünün hələ Orta əsr alimlərinin əsərlərində rast gəlindiyi də qeyd olunmuşdur: «Bayatı dahi musiqişünaslar Ə.Marağayinin (1353-1435) məlumat verdiyi iyirmi dörd şöbədən doqquzuncusucusu, Dərviş Əlinin (XVI əsrin II yarısı, XVII əsrin əvvəli) siyahısında isə on üçüncü şöbədir. XIX əsrdə Bayatı adlı zərbi-muğam da ifa olunmuşdur. Bu barədə Mirzə Fərəc (1847-1927) məlumat verir». (42, s. 28)

«Çoban bayatı» ilə bağlı izah verən Ə.Bədəlbəyli isə bu musiqi nümunəsini muğamla əlaqələndirmir: «Heyvandarlıq sahəsində çalışan mütəxəssis çobanların tütəkdə çaldıqları bayatı. Melodik məzmununda bir növ çağırış və sual-cavab sədaları eşidilir. Çobanlar otardıqları mal-qara ya da qoyun sürüsünü çox vaxt bayatı sədaları ilə otlağa aparır, otlaqdan yatağa qaytarırlar». (13, s.79) Bayatı ilə bağlı isə alim, bu janrın adının Bayat adlı Azərbaycan qəbilələri ilə əlaqəli olduğunu,

hər qitəsi dörd misradan ibarət xalq lirik vokal musiqi janrı kimi səciyyələndirilir.

Ümumiyyətlə bayatı janrı haqqında ədəbiyyat sahəsində araşdırmalar aparılmış, bir sıra fikirlər söylənmişdir. Musiqi aləmində bayatı bir sıra musiqi janrları ilə sıx əlaqəli olduğu üçün musiqişünas alimlərin də diqqətini birmənalı şəkildə cəlb edir. Buna səbəb isə xalq musiqisinin demək olar ki, hər növündə bayatının iştirak etməsidir. Əvvəldə bayatı sözü ilə əlaqəli muğam şöbələrin adını çəkdik. Bayatı sözü ilə bağlı aşıq havaları da mövcuddur. O cümlədən, «Çoban bayatı», «El bayatısı», «Köç bayatısı», «Atüstü bayatı» və s. aşıq havaları mövcuddur.

İ.Köçərli «Aşıq bayatısı» məqaləsində bayatı ilə bağlı yazır: «Bayatı janrı qədim türk tayfalarından biri olan Bayat elatının adı və mədəniyyəti ilə bağlı olaraq yaranmışdır. Rəsul Əleyhssəlam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu. Oğuzun ol kişi tamam bilicisiydi. «Kitabi Dədə Qorqud» dastanından gətirdiyimiz bu misaldan da göründüyü kimi geniş bir ərazidə məskunlaşan bayat boyu tarixə böyük şəxsiyyətlər, böyük simalar bəxş etmişdir. Dahi şair Füzuli də bu boya mənsub idi». (35, s.26) Göründüyü kimi İ.Köçərli də bayatı sözünün və janrının kökünü bayat tayfaları ilə bağlayır.

«Çoban bayatı» muğam sənətində daha çox instrumental variantda ifa olunur və onun ən məşhur (bir sıra mənbələrdə ilk ifaçısı kimi də qeyd edilir) ifaçısı Qurban Pirimov hesab olunur. Qurban Pirimovun tar ifaçılığının, eləcə də muğam sənətinin inkişafında xüsusi rolu olmuşdur. Burada ifa texnikasının mükəmməlləşməsi ilə yanaşı yaradıcı faktorlardan da söhbət gedir. Bu barədə N.İbrahimova istedadlı sənətkara həsr olunmuş məqaləsində qeyd etmişdir: «İnstrumental muğamların ifasında Qurban Pirimovun yaradıcılıq fantaziyası öz dolğun əksini tapmışdır. Qurban Pirimov klassik ənənələrə

əsaslanaraq muğam sənətini özünəməxsus bir yolla genişləndirmiş, instrumental muğamların melodik əsasını çoxşaxəli variantlarla zənginləşdirmiş, muğamlara yeni cizgilər gətirmişdir. Onun böyük ehtirasla səsləndirdiyi «Çoban bayatı», «Mahur Hindi», «Çahargah», «Xaric Segah», «Şur», «Zabul Segah» nadir sənət nümunələridir». (24, s.47)

«Çoban bayatı» xanəndələrin ifasında az təsadüf edilsə də, müasir dövrümüzdə gənc ifaçılar bu muğamı öz repertuarlarına daxil etmişlər. Təhlil zamanı müqayisə edəcəyimiz musiqi nümunələri «Çoban bayatı» muğamının Hacı Məmmədovun ifasında instrumental, xanəndə Sevinc Sarıyevanın və ustad xanəndə Keçəçi oğlu Məhəmmədin ifasında vokal-instrumental variantı, eləcə də Aşıq Altayın, Aşıq Əsədin ifasında «Çoban bayatı» aşıq havası, T.Məmmədovun «Azərbaycan klassik aşıq havaları» kitabında əksini tapmış eyni adlı not yazısıdır.

Aşıqlar el şənliklərində olarkən şənlik qonaqlarından daim «aşıq bir bayatı oxu» kimi istəklər alırlar. Aşıqlarla (Aşıq Altay, Aşıq Əhliman) söhbətdən belə məlum oldu ki, bayatı ifa edərkən aşıqlar əvvəlcə «Çoban bayatı» havası ilə ifaya başlayır, onun ardınca «El bayatısı» oxuyur və kompozisiyanı «Sarıtel» havası ilə tamamlayırlar. Bu ilk növbədə onunla izah olunur ki, onlar arasında intonasiya bağlılığı vardır və biri digərini tamamlayır. Ardıcıllıq isə «Çoban bayatı» ilə başlayır. Çünki «Çoban bayatı» rast ladına əsaslanan intonasiyalarla başlayır, daha sonra segah intonasiyaları səslənir, «El bayatısı» da segah intonasiyaları üzərində qurulduğu üçün «Çoban bayatı»dan «El bayatısı»na keçid qeyri-adilik yaratmır, əksinə onun məntiqi davamı kimi səslənir. Hər iki hava asta templi, reçitativ-deklomasiya xarakterli olduğu üçün kompozisiyanın sonunda nisbətən hərəkətli musiqiyə sanki ehtiyac duyulur. Adətən sonda segah üstündə ifa olunan «Sarıtel» havası ifanı tamamlayır. Burada musiqi havaları arasın-

da olan lad əlaqələri xüsusi əhəmiyyət daşıyır. Deyilənlərdən belə nəticəyə gəlmək olur ki, aşıq havaları arasında lad və ritm münasibətləri olduqca əhəmiyyətlidir. Burada məntiqi ardıcıllıq xüsusi önəm daşıyır.

«Çoban bayatı» havasının daha bir variantı Göyçə aşıq mühitinin tanınmış nümayəndəsi, Aşıq Ələsgərin məktəbinin yetirməsi, ustad aşıq Əsəd Rzayevin ifasında əldə olunmuşdur. Bu variantda aşıq əvvəlcə sazın ifasında havanın instrumental girişini səsləndirir. Qeyd etmək lazımdır ki, burada muğamın ifasına yaxın sərbəst improvizə üslubu duyulur, lakin musiqini diqqətlə dinlədikdə müəyyən ritmə tabelik özünü göstərir. Məsələn, Rast muğamının Üşşaq şöbəsində hiss etdiyimiz daxili ritm xüsusiyyəti bu ifada da duyulur. Müəyyən aşıq havasının əvvəlində muğam parçalarının səsləndirilməsi zamanı aşıq adətən bu parçanı muğam ifaçılıq ənənələrinə əsaslanaraq təqdim edir, yəni muğamın ifasına xas olan sərbəst improvizasiya üslubu daha qabarıq şəkildə hiss olunur. Məsələn, təhlilə cəlb etdiyimiz musiqi nümunələrindən biri olan «Döymə Kərəmi»nin əvvəlində Aşıq Əhlimanın ifa etdiyi muğam parçasında dediyimiz cəhətlər özünü göstərir. Eyni fikirləri Borçalı mühitinin nümayəndəsi ustad Aşıq Əmrahın ifasında səslənən «Dilqəmi» havasında da müşahidə etmək olar. Aşıq Əsədin ifasında verilən «Çoban bayatı» havasında səslənən bu parçada isə melodiya öz daxili ritminə malikdir. Qeyd etmək lazımdır ki, muğamda və aşıq havasında musiqi yeni motivlə başlanır. Ümumiyyətlə, «Çoban bayatı» havasında Qatar muğamının intonasiyaları üstünlük təşkil edir. İlk motiv də həmin muğamın mayəsinə enən, kvarta həcmində dörd səsdən təşkil edilir və bu motiv dəfələrlə təkrar olunaraq leytmotiv mahiyyəti daşıyır. Havanın sərbət deklomasiyalı parçasının musiqi materialı ilə eyni adlı muğamın vokal-instrumental məzmunu arasında yaxınlıq çoxdur, hətta demək

olar ki, ikinci birincinin xanəndə variantıdır. Lakin Hacı Məmmədovun ifasında səslənən «Çoban bayatı» muğamına nəzər saldıqda burada eyni adlı muğamın nəfəsli alətlərdə ifası ilə yaxınlıq daha çox gözə çarpır. Nəfəsli alətlərin mahir ifaçısı İlham Nəcəflinin təqdimatında dinlədiyimiz «Çoban bayatı» muğamı dediklərimizə nümunə ola bilər. Beləliklə aşıq ifasında səslənən «Çoban bayatı» havasının reçitativ-deklomasiyalı və ritmik parçalardan ibarət olması, ritmik parçanın isə «Baş Sarıtel» aşıq havası olması faktı bir sıra aşıqların, o cümlədən Aşıq Altay, Aşıq Əsəd, Aşıq İsfəndiyar, Aşıq Səyyad, Aşıq İsa Təbrizli, Təranə Gədəbəyli, Aşıq Sovqat, Aşıq Arzuman, Aşıq Qələndər və digər aşıqların ifasında öz təsdiqini tapmışdır. Lakin xanəndə ifasında səslənən təsnifin «Yeltək» aşıq havası olmasını söyləyən M.Əliyevin fikirləri də havanın xanəndə repertuarına keçidi zamanı «Sarıtel» havasının əvəzlənməsi məsələsini önə çıxarmış olur. Maraqlısı budur ki, bu hal Keçəçi oğlu Məhəmmədin ifasında da izlənir. Beləliklə, xanəndə sənətinin təsirinin daha bir faktı özünü göstərmiş olur. Yeri gəlmişkən bir maraqlı məqamı da qeyd etmək lazımdır. Belə ki, S.Sarıyevanın ifasında səslənən təsnif Keçəçi oğlu Məhəmmədin ifasında verilən «Çoban bayatı» muğamında orta hissədə kiçik bir rəng kimi keçir. Bir sıra rənglərin xanəndələr tərəfindən mətn əlavə edilərək təsnif kimi ifa olunması faktı artıq məlumdur. Bu hala biz istedadlı xanəndələrimizin, o cümlədən xalq artisti İslam Rzayevin yaradıcılığında da rast gəlmişik. Məsələn, tanınmış tarzən Əhsən Dadaşovun bir neçə rənglərini İ.Rzayev mətn əlavə edərək təsnif kimi ifa etmiş və dinləyicilərin rəğbətini qazanmışdır. Belə nəticəyə gəlmək olar ki, S.Sarıyevanın ifa etdiyi təsnif muğam ifaçılığında həm də rəng kimi istifadə olunmuşdur.

*Nümunə 43* Not yazısı : K.Atakişiyeva




Əvvəldə aşıqların ifasında «Çoban bayatı» - «El Bayatısı» - «Sarıtel» kompozisiyasının ifa quruluşu haqqında bir qədər məlumat vermişdik. Aşıq Altayın ifasında not saldığımız «Çoban bayatı» havası sazın bayatı kökündə ifa olunur. «Çoban bayatını» digər bayatılardan fərqləndirən əsas xüsusiyyət onun segah deyil, rast (Qatar) kökünə tabe olmasıdır. Lakin rastla başlansa da bir qədər sonra melodiya segah kökünə dəyişir. Bu hal həm aşıq bayatısında, həm də «Çoban bayatı»nın muğam variantında öz əksini tapmışdır. Eyni fikirləri N.İbrahimova da qeyd etmişdir. Lakin onun təhlilində «Çoban bayatı» Segahla deyil, sonda Şurla tamamlanır. Aşıq havasında isə Şura keçid yoxdur. Əksinə segah kökünü daha da vurğulayan digər aşıq bayatısı-«El Bayatısı»na keçid baş verir. Kompozisiyanın üçüncü bölməsi kimi iştirak edən «Sarıtel» havası (Baş Sarıtel) da segah kökündədir.

«Çoban bayatı» musiqi nümunəsini həm aşıq, həm xanəndə, həm də solo tarzənin ifasında dinlədikdən sonra belə nəticəyə gəlmək mümkündür ki, musiqi materialının təqdimatında köklü dəyişikliyə rast gəlinmir. Melodik xətt hər üç ifada demək olar ki, eyni istiqamətdə inkişaf edir. Lad baxımından təhlil etdikdə aşıq «Çoban bayatı»sı rast ladına əsaslanan musiqi inkişaf edərək segah ladına keçid alır və bu ladda da tamamlanır. Xanəndənin ifasında lad sıralanması isə rast-segah-şur kimi verilir, lakin ifanın sonunda verilən təsnif yenidən segah ladına əsaslanır və nəticədə musiqi nömrəsi məhz

bu ladda tamamlanır. Tarzənin solo ifasında «Çoban bayatı» muğamında isə şur son lad kimi çıxış edir. Beləliklə muğamın solo improvizasiyalı hissəsi şur ladına istiqamətlənir, təsnifdə isə vəziyyət dəyişir. Bununla da «Çoban bayatı» muğamının vokal-instrumental variantı aşıq ifasına daha yaxın olması ilə seçilir. Fərqli cəhət isə ondan ibarətdir ki, aşığın ifasında vokal-instrumental parçalar vokal hissəsinin sərbəst improvizasiyalı şəkildə, instrumental partiyanın isə ritmik müşayiətlə verilməsindən ibarətdir. Bu cəhəti şərtləndirən səbəb isə «Çoban bayatı»nın da reçitativ-deklamasiyalı aşıq havaları üslubunda ifa olunmasıdır. Muğam sənətində havanın improvizasiyalı sərbəst ifa üslubunda təqdim olunması bu sənətin özünəməxsus ifaçılıq üslub və ənənələrindən irəli gəlir. Havanın solo tarda instrumental ifa variantı isə həmin təsirin daha da dərinləşmiş variantını təşkil edir. «Çoban bayatı» muğamının xanəndə ifasında səslənən variantı aşıq havasına daha yaxındır. Belə ki, hər iki kompozisiyada sərbəst ritmə malik reçitativ-deklomasiyalı (xanəndə ifasında improvizasiyalı) hissədən sonra ritmik parça səslənir. Aşıqda bu parça ritmik aşıq havası kimi, xanəndə ifasında isə təsnif kimi verilir.

Beləliklə, «Çoban bayatı» havası aşıq sənətindən muğam sənətinə ilk olaraq xanəndə yaradıcılığı ilə yol tapmış, daha sonra solo instrumental muğam kimi də ifa olunaraq şöhrət qazanmışdır. Havanın lad xüsusiyyətlərində müəyyən dəyişikliklər müşahidə olunsa da, quruluşunda özünü göstərən üç hissəlilik xanəndə ifasında da müəyyən qədər qorunur. Sonda xanəndənin ifasını təsniflə tamamlaması ilə aşığın bayatılardan «Sarıtel» havasına keçid alması ifalar arasında yaxınlıq yaradır. Aşıq bayatıları ifa edərkən saz müşayiətində müəyyən ritmə tabelik duyulur. Xanəndə ifasında isə təsnifə qədərki ifa tam sərbəst improvizasiyalı xarakterdədir. Bu baxımdan «Çoban bayatı»sı aşıq sənətindən xanəndə yaradıcılı-

ğına keçmiş zərbi-muğamlarla eyni təsirə məruz qalmamışdır. Belə ki, bu musiqi nümunəsi muğam ifaçıları tərəfindən demək olar ki, özününküləşdirilmiş və ona muğam sənətinin janrlarına xarakterik olan xüsusiyyətlər tətbiq olunmuşdur.

Təsnif haqqında isə onu qeyd etmək lazımdır ki, hər iki ifada sonda vokal-instrumental musiqi nömrəsi təqdim olunsa da, təsniflə «Sarıtel» havası arasında böyük fərq vardır. İlk nəzərə çarpan isə bu havaların müxtəlif xarakterdə olmasıdır, təsnif «Sarıtel» havasına nisbətən daha oynaq və hərəkətlidir.

Xanəndə ifasında aşıq havasında olduğu kimi həm muğamın, həm də təsnifin mətn əsasını bayatı təşkil edir. Bu bayatı «Çoban bayatı» aşıq havasının təhlilə cəlb etdiyimiz nümunələrində verilən bayatıdan fərqlidir. Lakin bayatı janrının istifadəsi musiqi nümunəsinin kökünü aşıq sənətinə, xalq mahnılarına bağlayır.

Beləliklə, bu yarımfəsildə təhlil olunan havalar janr baxımından müxtəlif olduğu kimi, aşıq və xanəndə ifasında da özünəməxsus xüsusiyyətlər kəsb edir. Özünəməxsusluq həm havanın janr, melodiya, ritm, mətn və s. baxımdan, həm də aşıq və xanəndənin ifa manerasının gətirdiyi yeniliklərlə ifadə olunur.

İlk təhlil olunan havalar şikəstələrdir. Şikəstə xanəndə sənətinə öz janrını dəyişmədən keçmişdir. Xanəndələr «Qarabağ şikəstəsi» və «Kəsmə şikəstə»nin adını zərbi-muğamlarla bir sırada çəkir və bu şikəstələr muğam sənətində məhz belə qəbul olunur. Lakin bununla belə şikəstə adı dəyişmədən qalmışdır. İfaçılıq baxımından həmin şikəstələr digərlərindən fərqli olaraq öz mövcudluğunu yalnız xanəndə sənətində davam etdirmişdir. «Şirvan şikəstəsi» isə həm aşıq, həm də xanəndə sənətində ifa olunur və bu şikəstələrdən fərqli olaraq zərbi-muğam anlamı daşımır. Bu baxımdan «Şirvan şikəstəsi» daha sonra təhlil etdiyimiz havalara yaxınlaşır. Növbəti havalar «Güllü qafiyə», «Döymə Kərəmi» aşıq sənətində daim ifa

olunan musiqi nümunələridir. Xanəndələr tərəfindən ifa olunan bu havalarda musiqidə dəyişiklik olmaması və ifaçının aşıq vokal ifa üslubuna yaxınlaşması duyulur. Yaxınlıq həm də instrumental müşayiət zamanı balaban alətinin iştirakı ilə özünü göstərir.

«Çoban bayatı» havasının xalq mahnıları və ya rəqsləri arasında bənzər variantları haqqında heç bir informasiya olmadığından onun ilkin variantının vokal-instrumental və ya instrumental olması haqqında dəqiq fikir söyləməyə imkan vermir. Bu havanın adında çoban sözünün işlənməsi, çağırış xarakterli olması və nəfəsli musiqi alətlərimizdə özünəməxsus şəkildə ifasının populyar olması, havanı məhz maldarlıqla bağlı musiqi nümunələrinə yaxınlığını düşünməyə imkan verir və hər iki halda bu havanın olduqca qədim dövrlərə aid olması və onun folklor musiqisindən peşəkar musiqi sənətinə yol tapması danılmazdır.

*****

Azərbaycan xalq professional musiqisinin iki möhtəşəm qolu olan aşıq və muğam sənəti yarandığı gündən etibarən mövcud olduğu bütün tarixi dönəmlərdə, eləcə də müasir dövrdə xalqın təfəkkür qaynağından qidalanaraq öz sənət incilərini yaratmış və yaratmaqda davam edir. Hər iki sənətin daşıyıcıları öz ilham mənbəyi olan xalq şeirini, musiqisini seçərək onu zənginləşdirmiş, emosional və psixoloji təsir qüvvəsini yüksəldərək dünya mədəniyyətinin bir hissəsinə çevirmişlər.

Aşıq və muğam sənətinin bir sıra aspektlərdən qarşılıqlı müqayisəsi bir daha göstərdi ki, iki sənət arasında tarixi, fəlsəfi, psixoloji, poetik, funksional, ictimai, sosial və s. əlaqə və münasibətlər, oxşar cəhətlər mövcuddur. Aşıq və xanəndə yaradıcılığı arasında musiqi janrlarının, eləcə də musiqi ifadə vasitələrinin müqayisəli təhlili isə iki sənət arasında yuxarıda sadaladığımız aspektlərlə yanaşı nəzəri və praktik əlaqələrin

mövcudluğunu üzə çıxarmağımıza imkan yaratdı. Bu əlaqə və münasibətlər, təsir məqamları digər fəlsəfi-psixoloji, eləcə də poetik əlaqələrin şərtlənməsinə səbəb olmuşdur.

Aşıq və muğam sənəti tarixdən də məlum olduğu kimi müxtəlif ictimai-sosial mühitlərdə formalaşmış və inkişaf etmişdir. Orta əsrlərdə hər iki sənətin daşıyıcılarında bir mühiti bölüşən məqamlara rast gəlinsə də, sırf musiqi təcrübəsinin paylaşması, praktik əlaqələrin mövcudluğu olmamışdır. Aşıq və muğam sənəti və bu sənətin yaradıcıları arasında parlaq praktik yaradıcılıq əlaqələri XIX-XX əsrlərdə Azərbaycan musiqisinin çiçəkləndiyi dövrə təsadüf edir. Bu məhz həmin dövrdür ki, aşıq və xanəndə eyni səhnəni bölüşmüş, bir dəstədə çıxış etmiş, bir-biri arasında sırf musiqi-poetik əlaqələri yaratmağa cəhd etmişlər. Bu cəhdlərin nəticəsi olaraq hər iki sənət daha da inkişaf edərək yüksək professional səviyyəsinə çatmış, eləcə də xəlqiliyin, milliliyin ən kamil nümunəsini özündə əks etdirmişlər. Tarixin bu dönəmini gözdən keçirdikdə müşahidə etmək mümkündür ki, aşıqlar və xanəndələr bir-birindən həm rəngarəng janrları, həm də ifa üslubunun gözəl xüsusiyyətlərini mənimsəyərək öz sənətlərini zənginləşdirməklə yanaşı, həm də aşıq və muğam sənəti arasında qırılmaz və daim inkişafda olan əlaqələr, münasibətlər yaratmağa müyəssər olmuşlar. Dediklərimizin yekunu olaraq qeyd edək ki, aşıq və muğam sənəti arasında praktik əlaqələr məhz bu dövrdə formalaşmışdır. XIX əsrə qədər isə hər iki sənət nümayəndələri öz yaradıcılıqlarını cəmiyyətin müxtəlif təbəqələri qarşısında nümayiş etdirmiş, bir-birilə aktiv praktik əlaqədə bulunmamışdılar.

Aşıq və xanəndənin tarixin müxtəlif dönəmlərində, eləcə də ümumiyyətlə yerinə yetirdiyi ictimai, mədəni funksiyalar arasında bir sıra ümumi və xüsusi məqamlar var ki, onların mövcudluğu bu sənətlərin gələcək inkişaf yollarını şərtləndirir. Müqayisə nəticəsində aşıq və xanəndənin daşıdığı ictimai-

siyasi, fəlsəfi-psixoloji, sosial, maddi-mənəvi funksiyaların mahiyyət etibarilə fərqli xüsusiyyət daşıması aşkar olundu. Aşığın daşıdığı mənəvi yük tarixin müxtəlif mərhələlərində daha ağır olmuşdur. Lakin hər iki xalq sənətkarı milli mədəniyyətin inkişafında, təbliğində, gələcək nəsillərə ötürülməsində eyni dərəcədə rol oynamış və bu gün də həmin vəzifəni daşımaqda davam edir.

Aşıq və xanəndə repertuarını nəzərdən keçirdikdə həm aşıq, həm də xanəndə tərəfindən ifa edilən, eləcə də əvvəllər aşıq yaradıcılığında mövcud olan və daha sonralar xanəndə repertuarına keçən musiqi nümunələrini müşahidə etdik. Bu musiqi nümunələri aşıq və muğam sənəti arasında ən qırılmaz və inkaredilməz əlaqələrin, təsirlərin olmasını bir daha sübut edir.

Beləliklə deyilənləri nəzərə alaraq cəsarətlə qeyd etmək olar ki, Azərbaycan xalq musiqisinin əsasını təşkil edən aşıq və muğam sənəti tarixi, sosial, fəlsəfi-psixoloji, eləcə də musiqi ifadə vasitələri, ifaçılıq üslubları baxımından bir-birilə sıx əlaqədə inkişaf edən sənət sahələridir. Təhlillər isə ilkin variantın məhz aşıq sənətində yarandığını deməyə əsas verir. Bunu aşıq sənətindən xanəndə repertuarına, instrumental ifaçılığa yol tapmış musiqi nümunələri deməyə əsas verir. Lakin qarşılıqlı təsir eyni havaların musiqi və bədii-emosional məzmununun inkişaf etməsi və zənginləşməsi ilə nəticələnmişdir. Digər tərəfdən iki sənətkar arasında baş verən ifaçılıq təcrübələrinin bölüşməsi qarşılıqlı təsirin həm də ifa üslubunda təzahür etməsi ilə şərtlənmişdir. Aparılan təhlillər və əldə olunan nəticələr həm aşıq, həm də muğam sənətinin Şərq və Türk dünyasının, təfəkkürünün qovuşduğu Azərbaycanda musiqi mədəniyyətinin inkişafında əsas rol oynayan, biri digərini tamamlayan, tariximizi yaşadan, bu günümüzü qoruyan, gələcəyimizi formalaşdıran mədəniyyət abidələri olmasını sübuta yetirir və yeni tədqiqatlara aparan yolları müəyyənləşdirmiş olur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Abdullazadə G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti: tarixi-fəlsəfi təhlil. B.: Qartal, 1996, 292 s.

2. Abdullayeva S.A. Azərbaycan xalq çalğı alətləri. (musiqişünaslıq-orqanoloji tədqiqat). B.: Adiloğlu, 2002, 454 s.

3. Abduləliyev A.Ə. Azərbaycan muğamı Qafqaz regionunda. // «Musiqi dünyası» jurnalı, № 3-4 (33), 2007, s.115-121.

4. Azərbaycan xalq musiqisi. Oçerklər. (müəlliflər: Ə.İsazadə, Ə.Eldarova, R.İsmayılzadə, N.Məmmədov, R.Zöhrabov, B.Hüseynli) B.: Elm 1981, 198 s.

5. Azərbaycan folkloru antologiyası III. Göyçə folkloru. B.: AMEA, 2000, 767 s.

6. Azərbaycan xalq musiqisinin antologiyası: 10 cilddə / Azərbaycan muğamları və rəngləri. AMEA Mİİ, IV cild, B.: Azpetrol Neft Şirkəti, 2005, 222 s.

7. Azərbaycan milli musiqisinin tədqiqi problemləri. Respublika elmi konfransının materialları. Bakı, 1991. Ü.Hacıbəyov adına BMA. B.: Azərbaycan, 1992, 238 s.

8. Araslı H.M. Aşıq yaradıcılığı. B.: Birləşmiş Nəşriyyat, 1960, 136 s.

9. Babayev E.Ə. Azərbaycan muğam dəstgahlarında ritmintonasiya problemləri. B.: Ergün, 1996, 126 s.

10. Babayev E.Ə. Ənənəvi musiqimiz. B.: Elm, 2001, 158 s.

11. Babayev.E.Ə. Şifahi ənənəli Azərbaycan musiqisində intonasiya problemləri. B.: Elm, 1998, 146 s.

12. Bağırova S.D. Azərbaycan muğamı. Məqalələr, məruzələr, tədqiqtalar. B.: Elm, 2007, 298 s.

13. Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti. B.: Elm, 1969, 246 s.

14. Bülbül. Seçilmiş məruzə və məqalələri. B.: EA nəşriyyatı 1968, 237 s.

15. Bülbül III aşıq qurultayındakı məruzələri, 1961 // «Musiqi dünyası» jurnalı, 3-4, 2002.
16. Bakalavr təhsili Tar aləti üçün «İnstrumental muğam fənni» üzrə Proqram. B.: AMK, 2009, 15 s.
17. İsazadə Ə.İ. Azərbaycan muğam folklorunun öyrənilməsi tarixindən. Azərbaycan xalq musiqisi. Oçerklər. B.: Elm, 1981, s.5-29.
18. İmamverdiyev İ.C. Azərbaycan aşıq sənətinin səciyyəvi xüsusiyyətləri (Qərb bölgəsi üzrə). B.: Şirvannəşr 2004, 137 s.
19. İsmayılov H.Ə. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. B.: Elm, 2006, 310 s.
20. İmanov M.K. Azərbaycan folklorşünaslığının dünəni və bu günü // "Milli zəka" jurnalı, 2014, № 1, s. 12-20.
21. İsmayılov M.S. Azərbaycan xalq musiqi janrları. B.: İşıq, 1984, 100 s.
22. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. B.: Elm, 1991, 118 s.
23. İsmayılova G. Müasir mərhələdə aşıq sənətində problemlər və perspektivlər. // «Musiqi dünyası» jurnalı, 3-4/2005
24. İbrahimova N. Qurban Pirimovun yaradıcılığında «Çoban bayatı». // «Musiqi dünyası» jurnalı, 3-4/2007
25. Kərimli A.K. Göyçə aşıq məktəbi.// «Musiqi dünyası» jurnalı 2-2000.
26. Kərimli A.K. Çıldır aşıq səktəbi haqqında bilgilər.// «Azərbaycan musiqisi:tarix və müasir dövr» toplusu. B.: ADK Nəşriyyatı, 1994, 128-131 s.
27. Kərimli A.K Tovuz aşıq məktəbinin saz havaları. // «Azərbaycan musiqisi:tarix və müasir dövr» toplusu. B.: ADK Nəşriyyatı, 1994, 69-70 s.
28. Kərimov M.Ə. Azərbaycan xalqının musiqi irsi. B.: 2007, 143 s.
29. Kərimi S.Ə, Quliyev A.N, Əliyev M.F. Saz məktəbi. B.: Qarabağ, 2007, 229 s.

30. Köçərli İ.T. Aşıq sənəti: musiqili poetik janrlar. B.: 2010, 218 s.
31. Köçərli İ.T. Azərbaycan xalq musiqi yaradıcılığında şikəstə. B.: Tural, 2003, 124 s
32. Köçərli İ.T. Aşıq sənətində sinkretizm və sintez problemlərinin tədqiqi. // «Musiqi dünyası» jurnalı, 1-2/2010.
33. Köçərli İ.T. Aşıq havalarının təsnifatı məsələlərinə dair.// «Musiqi dünyası» jurnalı, 3/2010.
34. Köçərli İ.T. Aşıq havalarında musiqili-poetik sintez problemlərinin tədqiqi. // «Musiqi dünyası» jurnalı, 2/2011
35. Köçərli İ.T. Aşıq bayatısı.//«Konservatoriya» jurnalı, 2/2010.
36. Qəniyev S.H. Şirvan aşıqları. I cild, B.: Nurlan 2007, 698 s.
37. Quliyev M.B. Muğam sənətində ifaçılıq məsələləri. B.: MBM, 2013, 139 s.
38. Qasımlı M.P. Ozan aşıq sənəti. B.: Uğur, 2003, 308 s.
39. Qasımlı M.P. Ozan aşıq sənəti. B.: Uğur, 2011, II redaksiya, 304 s.
40. Qasımova S.A. Seçilmiş məqalələr. B.: Elm və təhsil-2010, 245 s.
41. Quliyeva G.V. Bülbül. B.: İşıq 1983, 135 s.
42. Nəcəfzadə A.İ. Adında Bayatı sözü olan muğamlar. // «Konservatoriya»
jurnalı № 1, 2012.
43. Məmmədov T.A. Azərbaycan aşıq yaradıcılığı. B.: Apostrof, 2011, 648 s.
44. Məmmədov T.A. Koroğlu aşıq havaları. B.: 2010, 375 s.
45. Məmmədov T.A. Azərbaycan xalq professional musiqisi:aşıq sənəti. B.: Şur 2003, 95 s.
46. Məmmədov T.A. Azərbaycan xalq professional musiqisi: aşıq sənəti. // «Musiqi dünyası» jurnalı 1-2, 2001
47. Musazadə R.M. Qədim muğamlar. B.: MBM, 2013, 122 s.
48. Musazadə R.M. Muğamın tədrisi metodikası. B.: MBM, 2012, 190 s.

49. Musazadə R.M. Aşıq sənəti və zərbi muğamlar. // «Qobustan» jurnalı 4/2008

50. «Muğam aləmi» Beynəlxalq elmi simpoziumun materialları. B.: Muğam media, 2009, 164 s.

51. Mübariz. XX əsr Gədəbəy bölgəsinin aşıq sənəti. // «Musiqi dünyası» jurnalı 2-2000

52. Namazov Q.M. Aşığın sazı və sözü. B.: Yazıçı, 1980, 132 s.

53. Namazov Q.M. Azərbaycan aşıq sənəti. B.: Yazıçı, 1984, 189 s.

54. Namazov Q.M. Aşıqlar. I kitab. B.: AMEA Nəşriyyatı, 2004, 447 s.

55. Paşayev S.X. Azərbaycan folkloru və aşıq yaradıcılığı. B.: Yazıçı, 1989, 87 s.

56.Paşayev S.X.XIX əsr aşıq yaradıcılığı.B.:ADU,1990,98 s.

57. Paşayev S.X. Ozan-aşıq sənətinin nəzəri məsələləri. B.: Ozan, 2002, 208 s.

58. Pirsultanlı S.P. Sazın, sözün qovşağı. // S.P.Pirsultanlı. Ozan-aşıq sənətinin nəzəri məsələləri. B.: Ozan, 2002, s. 82-86.

59. Pirsultanlı S.P. Aşıq yaradıcılığı.//S.P.Pirsultanlı. Ozan-aşıq sənətinin nəzəri məsələləri. B.: Ozan, 2002, s. 100-126.

60. Pirsultanlı S.P. Azərbaycan xalq şeiri və onun sazla əlaqəli inkişaf prosesi. //S.P.Pirsultanlı. Azərbaycan folkloruna dair tədqiqlər. G.:Pirsultan, 2006, s.376-393.

61. Paşayeva Y.S. Əfrasiyab Bədəlbəyli və Azərbaycan xalq musiqisi. B.: Nurlan, 2002, 220 s.

62. Rəhimbəyli N.R. Azərbaycan dastanlarının melopoetikası. B.: Şərq-Qərb 2009, 535 s.

63. Rəhimov Ə.R. «Azərbaycanın qeyri-maddi mədəni irsi:aşıq sənəti». // «Musiqi dünyası» jurnalı, 1-2/2009

64. Rəhimov Ə.R. Şirvan aşıq mühiti üçün xarakterik olan özünəməxsus yaradıcılıq xüsusiyyətləri. // «Musiqi dünyası» jurnalı, 3/2012

65. Rəhimova A.E. Aşıq sənətinin spesifik əlamətləri haqqında. // «Musiqi dünyası» jurnalı, 4/2010.
66. «Rast» instrumental muğamı (metodik tövsiyələr). B.: AMK 2009, 20 s.
67. Səfərova Z.Y. Azərbaycan musiqi elmi (XIII-XX əsrlər). B.: Elm 1998, 583 s.
68. Seyidova S.Y. Azərbaycan xalq professional musiqisi. B.: Şirvannəşr, 1998, 56 s.
69. Təhmasib M.A.Azərbaycan xalq dastanları (orta əsrlər).B.: Elm,1972,400 s.
70. Eldarova Ə.M. Azərbaycan aşıq sənəti. B.: Elm 1996, 165 s.
71. Əhmədov Ə.A. Muğam operalaranın qürubu. B.: Avropa, 2013, 205 s.
72. Əbdülqasımov V.Ə. Azərbaycan tarı.B.: İşıq 1989, 95 s.
73. Əliyeva X.A. Aşıq musiqisinin bəzi lad-məqam xüsusiyyətləri. // «Musiqi dünyası» jurnalı 3-4/2007
74. Əliyeva X.A. Aşıq Pənah yaradıcılığı. // «Musiqi dünyası» jurnalı 1-2/2008
75. Əliyeva X.A. Aşıq musiqisində şikəstə janrına bir nəzər.// «Musiqi dünyası» jurnalı, 4/2012.
76. Əliyeva X.A. Şirvan aşıq havalarının məqam və melodiya xüsusiyyətləri. Avtoreferat. B.: Mütərcim, 2014, 29 s.
77. Həsənova C.İ. Azərbaycan musiqisinin məqamla-rı.B.:Elm və təhsil, 2012, 231 s.
78. Həsənova C.İ. Üzeyir Hacıbəylinin yaradıcılığında milli musiqinin nəzəri əsasları. B.: Mars-Print, 2009, 321 s.
79. Həkimov M.İ. Aşıq sənətinin poetikası.B.:AMEA folklor İnstitutu, 2004, 609 s.
80. Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri.B.:Yazıçı, 1985,653 s.
81. Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. B.: Apastrof, 2010, 152 s.

82. Hacıyeva M.T. Aşıq sənəti-Azərbaycanda musiqi təfəkkürü, fəlsəfi mədəniyyət fenomenidir.// «Musiqi dünyası» jurnalı 3-4/2005

83. Xalıqzadə F.X. «Kitabi Dədə Qorqud»un musiqi sözlüyü.// «Kitabi Dədə Qorqud» jurnalı, s 160-168.

84. Xalıqzadə F.X. «Kitabi Dədə Qorqud» və musiqi poetikasının bəzi məsələləri// «Musiqi dünyası» jurnalı 2(3) / 2000, s 34-40.

85. Zöhrabov R.F. Muğam. B.: Azərnəşr, 1991, 218 s.

86. Zöhrabov R.F. Zərbi-muğamlar. B.: Mars-print 2004, 406 s.

87. Zöhrabov R.F. Bülbül və Azərbaycan xalq musiqisi.// «Musiqi dünyası» jurnalı, 1-2/2001.

88. Şuşinski F.M.Azərbaycan xalq musiqiçiləri. B:"Yazıçı" nəşriyyatı.1985, 480 s.

**Rus dilində**

89. Абдуллазаде Г. А. Мугам. Б.: Язычы, 1983, 39 с.

90. Абдуллазаде Г. А. Филасофская сущность музыкального искусства. Б.: Ишыг, 1985, 284 с.

91. Алексеев. Э. Е. Проблемы формирования лада. М.: Музыка, 1976, 288 с.

92. Алексеев Э. Е. Раннефольклорное интонирование. Звуковысотный аспект. М.: Сов.композитор, 1986, 238 с.

93. Алексеев Э. Е. Фольклор в контексте современный культуры. Рассуждения о судьбах народных песен. М.: Сов.композитор, 1988, 236 с.

94. Асафъев Б. В. Речевая интонация. М.-Л.: Музыка, 1965, 136 с.

95. Асафъев Б. В. Музыкальная форма как процесс. Книга 1. 2-е изд. Л.: Музыка, 1971, 376 с.

96. Асафъев Б. В. О народной музыке. Л.: Музыка, 1987, 248 с.

97. Грубер Р. И. Всеобщая история музыки. Л.: Музыка, 1979, 398 с.

98. Дадашзаде К. А. Знаковая система дастана. Б.: Нурлан, 2004, 292 с.

99. Земцовский И. И. Фольклор и композитор. Теоретические этюды о русской советской музыке. Л.-М.: Сов. Композитор, 1978, 174 с.

100. Зиятлы А. Азербайджанское народное музыкальное творчество. Б.: Мин.Высшего и Среднего Спец. образования Аз.ССР, 1987, 108 с.

101. Зохрабов Р. Ф. Теоретические проблемы азербайджанского мугама. Б.: Шур, 1992, 247 с.

102. Исмайлов М. М. Ладовые особенности азербайджанской народной музыки. Ученые записки. Серия ХЫЫЫ № 2 (7). Б.: изд.АГК, 1969, с.3-8

103. Кулиев А. Н. Принципы контрастности в музыкальной драматургии азербайджанского мугама. // II Beynəlxalq muğam festivalı, Şərq-Qərb, 2011, 135 s.

104. Мазель Л. А. О мелодии. М.: Музгиз, 1952, 300 с.

105. Мазель Л. А. Вопросы анализа музыки. Опыт сближения теоретического музыкознания и эстетики. М.: Сов. композитор, 1978, 381 с.

106. Мазель Л. А. Строение музыкальных произведений. М.: Музыка, 1986, 528 с.

107. Мамедов Т. А. Традиционные напевы азербайджанских ашыгов. Б.: Ишыг, 1988, 352 с.

108. Мамедов Т. А. «Взаимодействие стиха и напева в традиционных напевах азербайджанских ашыгов»// «Мусиги дцнйасы», 1/2014

109. Назайкинский Е. В. О психологии музыкального восприятия. М.: Музыка, 1972, 84 с.

110. Проблемы фольклора. М.: Наука. 1975, 229 с.

111. Ручъевская Е. А. Слово и музыка. Л.: Наука, 1960, 560 с.

112. Скребков С.С. Художественные принципы музыкальных стилей. М.: Музыка, 1972, 448 с.

113. Специфика фольклорных жанров. М.: Наука, 1973, 304 с.

114. Способин И. В. Музыкальная форма. 5-ое изд. М.: Музыка, 1970, 191 с.

115. Тюлин Ю. Н. Музыкальная форма. 2-ое изд. М.: Музыка, 359 с.

116. Фархадова С.Т. Муга-монодия как тип мышления. Б.: Елм, 2001, 368 с.

117. Халыгзаде Ф. Х. Ритмика Азербайджанской народной музыки. Автореферат кандидатской диссертации. М.: 1985, 22 с.

118. Шушинский Ф. М. Народные певцы и музыканты Азербайджана. М.: Сов.композитор, 1979, 200 с.

119. Эльдарова А. М. Некоторые вопросы музыкального творчества ашугов.// Азербайджанская музыка. Б.: Элм, 1961, 64 с.

120. Эльдарова А. М. Некоторые вопросы ашугского искусства. // Искусства Азербайджана (под ред.У.Гаджибекова) Б.: Изд. АН. Азербайджанской ССР, 1949, 113 с.

121. Зохрабов Р. Ф. Азербайджанския профессиональная музыка устной традиции: мугам-дестгях и зерби-мугамы. Б.: Марс-принт, 2010, 458с.

122. Зохрабов Р. Ф. Теоретические проблемы азербайджанского мугама. Б.: Шур, 1992.

**Türk dilində**

123. Akkoç Can. Geleneksel Türk Musikisinin Deterministik Olmayan Ses Sistemi Üzerinde Gözlemler. Presented at the first national Symposium on Turkish Music, Ms., İstanbul, 1993

124. Ezgi Suphi. Ameli ve Nazari Türk musikisi. İstanbul Konservatuvari Neşriyatı, 1985.

125. Kafkasyalı Ali. İran türkleri aşık muhitleri. Eser Ofset, Saraybosna Caddesi, Erzrum, 2006, 309 s.
126. Çobanoğlu Özkul. Aşık tarzı Kültür Geleneyi ve Destan Türü. Akçağ Yay., Ankara, 2002.

**Notoqrafiya**

127. Azərbaycan xalq musiqisinin antologiyası: 10 cilddə/Azərbaycan aşıq musiqisi. Tərtibçilər: Ə.İsazadə, Ə.Məmmədova, S.Bağırova və b. AMEA, Mİİ, VII cild, B.: 2007, 242 s.
128. Azərbaycan aşıq mahnıları./İşləyəni S.Rüstəmov.-B.: Azmusnəşr, 1938, I, II, III, IV dəftər, 20 s.
129. Bağırov N.Z. Azərbaycan klassik aşıq havaları. B.: Trabzon, 2011, 189 s.
130. Bakıxanov Ə. Azərbaycan xalq rəngləri. B.: Azərnəşr, 1964.
131. İmamverdiyev İ. Qurbanov B., Qasımlı M., Rəhimov Ə. Şirvan aşıqlarının saz havaları. B.: ADMİU, 2011, 106 s.
132. Mehdipur. Ç. Aşıq havaları. Birinci basqı. T.: Humazər, 2000, 150 s.
133. Məmmədov T. A. Azərbaycan klassik aşıq havaları. Bakı, 2009
134. Hüseynli Q. 55 aşıq melodiyası. Aşıq Teymur Hüseynovun ifasından. Respublika Xalq Yaradıcılığı Evinin Kitabxanası. Əlyazma, 1956.

**Saytoqrafiya**

135. Azərbaycan diskoqrafiyası. http://diskoqrafiya.musiqi.dunya.az
136. Azərbaycanın ənənəvi musiqi atlası. http://diskoqrafiya.musiqi.dunya.az
137. Üzeyir Hacıbəyov. "Azərbaycan xalq musiqisinin əsasları". http://musbook.musiqi.dunya.az
138. "Musiqi dünyası" elektron jurnalı. http://musiqi.dunya.az
139. "Harmony" musiqi kulturoloji beynəlxalq elektron jurnal. http://mugam.musiqi.dunya.az

## MÜNDƏRİCAT

**Ön söz ............................................................................ 3**

**Giriş ................................................................................ 4**

**I fəsil. Aşıq və muğam sənətinin**
**tədqiqi problemləri**
1. 1. Aşıq və muğam sənətinin tarixi əlaqələri ..................... 9
1. 2. Aşıq və xanəndə ifaçılığının əsas xüsusiyyətləri .......... 32
1.3. Aşıq və muğam sənətində təsnifat və janr məsələləri .... 51

**II fəsil. Aşıq və muğam sənətində**
**musiqi dilinin problemləri**
2. 1. Xanəndə ifaçılığında aşıq mənşəli zərbi-muğamlar...... 64
2. 2. Xanəndə repertuarında yer alan şikəstələr və
digər aşıq havaları.............................................................. 86

**İstifadə edilmiş ədəbiyyat** ................................................ 126

**Kəmalə Ələşrəf qızı Atakişiyeva.**
**Şifahi ənənəli Azərbaycan professional musiqisi:**
**aşıq və xanəndə yaradıcılığı.**
Bakı, Elm və təhsil, 2020

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 136 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.